**RƏNA QURBANLI**
**(Qılıcova)**

# Ana ürəyi

**"Elm və təhsil"**
**Bakı -2020**

*Redaktor*:
**Nəriman Həsənzadə**
*Xalq şairi*

**Rəna Qurbanlı (Qılıcova). Ana ürəyi.**
**Bakı, "Elm və təhsil", 2020, 272 səh**.

4702000000
N-98-2020 qrifli nəşr

**© Rəna Qurbanlı, 2020**

## ÖN SÖZ

Ana Ürəyi ″ adlı kitabı ilə Rəna Qurbanlı (Qılıcova) oxucuları ilə yeddinci dəfə görüşə gəlir . Şairə xanım ürəyinin dərinliyindən gələn incə , isti hisləri insan həyatının ayrılmaz hissəsi olan poeziyanın vasitəsi ilə oxucularına çatdırıb .Poemalarında vətənə , torpağa bağlılıq hissi , müasir dövrümüzdə ətrafımızda baş verən hadisələrə düzgün münasibət , ailə məişət məsələlərinə həssas qadın münasibəti aydın hiss olunur . Onun misralarında qadın ürəyinin çırpıntıları duyulur . ʺ Ana Ürəyi ″ adlandırdığı kitabında qələmə aldığı üç poemanın hər üçündə müxtəlif xarakterli ana obrazları yaratmış olsa da şairənin əsl məqsədi övladının yolunda cəhənnəm əzabına qatlanan anaların simasını göstərməkdir . Şairə xanım həyat çətinliyi ilə qarşılaşan anaların əziyyətini özünə məxsus üslubda qələmə alıb , oxucusuna xüsusi eyhamla çatdırıb. Anaların fədakarlığı haqqında dastanlar yazılsa yenə də azdır . " Cənnət anaların ayaqları altındadır ″ deyən hər kəsə , cəhənnəm əzabı çəkən analardan bəhs etmişdir . ʺ Oğru Qadın " poemasında müəllif Sona obrazının timsalında yaratmış olduğu ana , nankor övladının üzündən hər yola əl atmalı olur və bataqlığa

batdıqca batır . Nəhayət oğluna kömək etmək məqsədi ilə düşdüyü bu yolda , oğru kimi rəzil bir damğa alıb , həbs olunur . "Ana Ürəyi " adlı poemada da baş qəhrəmanı olan Pəri obrazı fədakar , zəhmətkeş , cəfakeş anaların simvoludur . Bu poemanı da yazmaqda müəllifin əsl məqsədi anaların yer üzünün ən müqəddəs varlığı olmağını göstərməkdir . Rəna xanım yaratdığı ana obrazlarının timsalında bütün anaların övladlarına olan məhəbbətini ölçmək üçün heç bir ölçü cihazı olmadığını bir daha xatırlatmışdır . Şairə xanım bütün bu fikirləri oxucusuna sadə , oxunaqlı , axıcı misralarla söyləmişdi . Hər iki poema dramatik hadisələrlə zəngin olduğu üçün kitab maraqla oxunur . Bu kitabda yerləşən üçüncü poema "Tovuz şəhidləri" adlanır.Həmin kitabda igid əsgərlərimizin qəhrəmanlıqlarından və yaralı anaların ürəyinin çəkdiyi əzab-əziyyətdən bəhs edir. Arzu edirəm ki , şairənin " Ana Ürəyi " adlı kitabı da "Hər Ömürdən Bircə Gün " , " Yaralı Məhəbbət " , " Tənha Çiçək " , Qəlbimdən Qopan İncilər " , " Yuxumda gördüyüm ev " , "Zəhərli tikan" adlı kitabları kimi oxucular tərəfindən sevilib ,rəğbət qazansın .Müəllifə yeni- yeni yaradıcılıq uğurları arzulayıram .

***Nizami Cəfərov***
*AMEA-nın müxbir üzvü, millət vəkili*
*Filologiya elmləri doktoru, professoru*

# *ANA ÜRƏYİ*

Nə qədər gözəldi bütün fəsillər.
Aylar bir-bir keçir, dolanır illər.
Hər fəslin özünün gözəlliyi var.
Hərəsi bir cürə gözəl, füsunkar.
Gəlimli-gedimli olub dünyamız.
Burda da qonağıq bizim hamımız.
Dünyamız boşalır, bir yandan dolur.
Yaranan varlıqlar bir gün yox olur.
Yaradan hərəyə bir yazı yazıb.
Kimə xoş gün düşüb, ya quyu qazıb.
İstər xoş gün görsün, istərsə qara.
İstəyir gizlənsin, ya getsin hara.
Sonunda əcələ verəcəklər can.
Ömürlük dünyada qalmayır insan.
Dünya pəncərədir, gələnlər baxır.
Kimini yandırır, kimini yaxır.
Kimi xoş gün görür, kefini edir.
Hərə bir yol ilə dünyadan gedir.
Gözəldi yaşamaq, gözəldi həyat!
Bu dərdi, kədəri bir tərəfə at.

Çıxardın həyatın sizlər dadını.
Tarixə yazdırın igid adını.
Heç kimə qalmayan dünya fanidir.
Əcəlin gəlişi vallah , anidir.

******

Hamı tək bir gözəl gəldi dünyaya.
Bənzədi günəşə, o gözəl aya.
Çox gözəl yaratdı onu yaradan.
Zərif bir mələk tək doğdu anadan.
Evin son beşiyi bu qız olmuşdu.
Səs-küyü , sevinci evə dolmuşdu.
İncə bir gülüydü sanki bu Mərcan.
Böyüyüb boy atdı evdə anbaan.
Elə ki, çatmışdı o, on beş yaşa.
Zülfünü darayıb yığırdı başa.
Əndamı ağappaq sanki qarıydı.
Yaxşı ki, dünyada Mərcan varıydı.
Gözləri qapqara eyni badamdı.
Evdə ən sevimli, gözəl adamdı.
Mərcanın sədası kəndə yayıldı.
Kəndin cavanları sankı ayıldı.
Hər yerdə söz-söhbət ondan gedirdi.
Yerlərə, göylərə qız naz edirdi.
Heç nədən yoxuydu onun xəbəri.
Xəyalı gəzirdi bütün yerləri.

Mərcanın anası o, gözəl Pəri.
Hər yerdən tutardı tezcə xəbəri.
Pərinin varıydı ögey baldızı.
Oğluna gəzirdi gözəl ev qızı.
Əslində oğluna bir qız almışdı.
Qız gilin evinə o, yol salmışdı.
Günlərin birində onlar dalaşdı.
Söz-söhbət onların başından aşdı.
Nəhayət pozuldu həmin o nişan.
Buna pis olmuşdu o vaxtlar Turan.
Aradan keçmişdi azca bir zaman.
Əsəbdən ölürdü lap arvad inan.
Günlərin birində bayram qabağı,
Qardaşı evinin oldu qonağı.
Mərcanı görəndə o, mətəl qaldı.
Özünü Mərcanın üstünə saldı.
Nələr gəlib keçdi onun başından.
Qurtara bilmədi sevinc yaşından.
Parıltı göründü tezcə gözündə.
Bir hünər hiss etdi arvad özündə.
Başından tələşik bir fikir keçdi.
Mərcanı özünə o, gəlin seçdi.
Əvvəlcə heç kimə demədi bir söz.
O, özü -özünə dedi azca döz.

Qoy görüm nə deyir bu işə Elxan?
Yəqin ki, eşitsə sevinər yaman.
Gəldi razılığa oğul və ana.
Onlar elçi getdi gözəl Mərcana.
Gözəl qarşıladı onları Pəri.
Heç nədən yoxuydu onun xəbəri.
Nəhayət bu arvad söhbəti açdı.
Təccübdən Pərinin bənizi qacdı.
Bu nədi, ay Turan uşaqdı Mərcan.
O, ərə gedəsi deyil ki, bu an.
Körpədir, hələ var düz on beş yaşı.
Evlənməyib ondan böyük  qardaşı.
Nə deyər adamlar bizə , ay Turan?
Ayıbdır bu yaşda eldən, obadan.
Qardaşın qol qoymaz buna heç zaman.
O, dəli olacaq eşitsə inan.
Oğlunun qayıdıb indi nişanı.
Bəlkə də tanımır hələ Mərcanı.
Bəs nədən düşübsən ələ-ayağa?
Qoy oğlun bir çıxsın hələ qabağa.
Mən bura xəbərsiz gəlmədim, Pəri.
Oğlumun bu işdən vardır xəbəri.
Mərcan qardaşımın gül balasıdı.
Ondan artıq  kimi o, alasıdı?
Mərcandan əlini üzmədi Turan.

Onların evindən çıxmadı bir an.
Günlərin birində nəhayət Pəri,
Göndərdi onlara bu xoş xəbəri.
Kişidən almışam razılığı mən.
Daha nə işin var onları gör sən.
Olduqca sevindi bu işə Turan.
Tələsik Mərcana gətirdi nişan.
Süfrələr açıldı, məclis quruldu.
Yeni evliliyin möhrü vuruldu.

*****

Mərcanın atası yetim olmuşdu.
Artıq bəlli yaşa gəlib dolmuşdu.
Qəzada ölmüşdü ata -anası.
Oldu sürücünün böyük xatası.
Sükan arxasında sürücü yatdı.
Onların həyatı sonuna çatdı.
Onlar sağ çıxmadı həmin qəzadan.
Ortada tək qaldı balaca Sübhan.
Heç kimsə uşağa yaxın durmadı.
Nə də ki, o evə ayaq vurmadı.
Varıydı onların uzaq qohumu.
Görürdü uşağın pisdi durumu.
Nəhayət yazığı gəldi Sübnana.

Evinə apardı onu bu ana.
Tellinin varıydı bir qız övladı.
Həmin o, qızın da Turandı adı.
Bir evdə böyüdü Sübhanla Turan.
Bacı-qardaş oldu onlar o andan.
Böyüdü, Pəriylə evləndi Sübhan.
Dünyaya gətirdi bir qız, üç oğlan.
Bu Mərcan Sübhanın kiçik qızıydı.
O, evin parlayan bir ulduzuydu.
Üç oğlun dalınca gəlmişdi Mərcan.
İstəkli olmuşdu elə o andan.
Çox yaxşı bilirdi işini Turan.
Bilirdi sözünü çevirməz Sübhan.
Bax ona görə də israr edirdi.
Hər gündə Mərcana elçi gedirdi.
Bunları biləndə mat qaldı kişi.
Çevirə bilmədi heç cürə işi.
Nəhayət razılıq verdi bu işə.
Çox hörmət elədi Sübhan keçmişə.
Onların üstümdə əməyi çoxdu.
Bu işdən heç cürə bir çıxış yoxdu.
O evdə tonlarla çörək yemişəm.
Turana həmişə bacı demişəm.
Əliboş qaytara bilmərəm onu.
Mərcanı verməkdi bu işin sonu.

Bax ona görə də verdi Mərcanı.
Bununla Turandan qurtardı canı.

****

Azıydı bu zaman Mərcanın yaşı.
Məktəbə gedirdi dostu, yoldaşı.
Müdürün yanına onlar getdilər.
Səkkizdən bu qızı azad etdilər.
Elxan Mərcangilə qonaq gəlirdi.
Pəri tez evləri yığıb-silirdi.
Hazırlıq gedirdi, bişirdi yemək,
Bu evə kürəkən gəlirdi demək.
Mərcan utanırdı onda Elxandan.
Otaqdan çıxmırdı o, gələn andan.
Elxan boylanırdı o yan, bu yana.
Sanki od düşürdü şirin bir cana.
Mərcanı görməyə o, can atırdı.
Əsəbinnən evi qırıb, çatırdı.
Elxanın çox yaxın dosdu varıydı.
Bu dünya başına onsuz darıydı.
Bir gün bu Elxanın qanı qaraldı.
Fikirlər üstünə yaman yer aldı.
Bəlkə bu Mərcanın yoxdu fikiri.
O, məni öldürür lap diri-diri.
Elxanın qaraldı olduqca qanı.

Əsəbdən alışıb yanırdı canı.
Elxan əsəbləşib ayağa durdu.
Uşaqlıq dostuna o, bir zəng vurdu.
Gördü ki, açmayır heç telefonu.
Narahat eylədi səssizlik onu.
Elxan tez-tələsik mindi maşına.
İstədi baş çəksin tez yoldaşına.
Mehman öz evində tək yaşıyırdı.
Evin hər yükünü o, daşıyırdı.
Həmişə gəlirdi Elxan yanına.
Qulluq eyləyirdi onlar canına.
Həyətdə samavar qaynadardılar.
Damino, nərtaxta oynayardılar.
Ürəyində o, deyinə-deyinə,
Mehmanın çatmışdı artıq evinə.
Qapının zəngini ehmalca basdı.
Dinləyib qapıya tez qulaq asdı.
Gördü ki, gəlməyir heç bir səs-səmir.
Qapı çox möhkəmdir, özü də dəmir.
Qapıya əlinnən bir yumruq vurdu.
Qapı tez açılıb aralı durdu.
Elxan tez-tələsik girdi içəri.
O, gəzib dolaşdı bütün yerləri.
Mehmanı səslədi Elxan ucadan.
Yuxarı baxanda şok oldu o an.

Unutdu ağzında Elxan sözünü.
Gördü ki, tavandan asıb özünü.
Önünə əyilib meyidin başı.
Sükuta qərq olub evin hər daşı.
Kəndirdən asılı qalmışdı Mehman.
Yerində donaraq qalmışdı Elxan.
Dostunun bu halı yandırdı onu.
Elə bil gəlmişdi dünyanın sonu.
İstədi kəndirdən açsın oğlanı.
Gördü ki, ölübdü, yox olub canı.
Onsuz da heç nəyin yoxdu köməyi.
Gedəcəkdir boşa bütün əməyi.
Özünə gəldi o, lap yavaş-yavaş.
Aldı telefonu əlinə bir baş.
Zəng etdi oğlanın öz anasına.
Söylədi yetişsin tez balasına.
Hamını xəbərdar eylədi Elxan.
Milləti oraya tökdü həmin an.
Getdikçə aralıq yaman qarışdı.
Mehmanın anası yandı, alışdı.
Göylərə qalxmışdı onun naləsi.
Bu nalə yandırdı bütün hər kəsi.
Dilini içəri qoymurdu ana.
Elə dil tökürdü o, yana-yana.

Hamı mat qalmışdı həmin bu işə.
Polislər düşmüşdü artıq təşvişə.
Qohumlar gah gəlir, gah gedirdilər.
Polislər sorğunu çox edirdilər.
Meyidi dəfinə hazır etdilər.
Sonra məzarlığa alıb getdilər.
Polislər söylədi burda deməli,
Kənar bir adamın olmayıb əli.
O, özü-özünə qəsdi edibdi.
Sonra da dünyadan köçüb gedibdi.
Onsuz da Mehmana olan olmuşdu.
Qohumlar bulud tək yaman dolmuşdu.

****

Mehmanın varıydı bircə bacısı.
Çoxuydu indi də onun acısı.
Çünki qardaşınnan nəfəs alırdı.
Həmişə meylini ona salırdı.
Mehman evlənmişdi erkən yaşında.
Bir gözəl almışdı ağlı başında.
Dünyaya gəlmişdi bir qız övladı.
Sənubər olmuşdu onun da adı.
Mehman çox sevirdi öz övladını.
Onunla dadmışdı övlad dadını.
Qızını sevirdi dünyalar qədər.
İndi hər bir şeyi lap oldu hədər.

Qısqanclıq üstündə düşürdü dava.
Evində dəyişdi lap abu-hava.
Mehman öz evindən çıxıb gedirdi.
Bu gediş gəlini dəli edirdi.
Başqa bir qadına uymuşdu Mehman.
Ayrıla bilmirdi ondan bircə an.
Heç nəyi boynuna almırdı oğlan.
Yediyi lap zəhər olmuşdu inan.
Yoldaşı bu işdən oldu xəbərdar.
Söylədi ərinə evdə uşaq var.
Açmayaq pərdəni indi, ay kişi.
Arvadın səninlə axı nə işi?
Burax sən bu işi qayıt evinə.
Bu işdən heç bir şey gəlməz əlinə.
Sonunda düşündü gəlinin özü,
Gördü ki, yığılmır Mehman gözü.
Günlərin bir günü yığıldı getdi.
Mehmanı bir yolluq bu qız tərk etdi.
Gəlinin dalınnan nə qədər getdi,
Çox üzür istədi, çox minnət etdı.
Bu gəlin dönmədi evinə yenə.
Mən dönən deyiləm söylədi sənə.
Dalınca çox getdim, çox süründüm mən.
Gördüm heç düzələn deyilsən ki, sən.

Gəzdiyin zibili indi al özün.
Heç kimə bir kəlmə olammaz sözün.
Vermişəm mən işi tam boşanmağa.
Çəkilə bilməzsən bundan qırağa.
Elə ki, başladı məhkəmə işi.
Özünə yer tapa bilmədi kişi.
Düşündü Sənubər hardadı görən?
Onsuz heç yaşaya bilmərəm ki, mən.
Özünü olduqca pis hiss edirdi.
O başa, bu başa gəlib-gedirdi.
Gözləri önündə qız canlanırdı.
Mehmanın ürəyi alovlanırdı.
Bu işlər yandırıb - yaxırdı onu.
Bilmirdi bu cürə olacaq sonu.
Olduqca özü də olmuşdu peşman.
Bilmirdi nə etsin indi də Mehman.
Fikirlər içində çatladı başı.
İmtina edirdi ondan yoldaşı.
Tab edə bilmədi buna ürəyi.
Ağrıdan dağıldı onun kürəyi.
Bu dərdi, kədəri qəlbinə basdı.
Kəndiri götürüb özünü asdı...

*****

Elə ki, düşürdü bir azca dara.
Elxan da bilmirdi heç getsin hara.
Mehmanla bir gəzib, bir dolanırdı.
Həmişə dostuna çox inanırdı.
Mehmansız günləri olmuşdu qara.
Ürəyi bağlamış sanki bir yara.
Yaralı çibana dönmüşdü özü.
Artıq qurtarmışdı elə bil sözü.
Mehmana deyərdi əl çək bu yoldan.
Başını çıxart bir girdiyin koldan.
Özünün gül kimi qızın, arvadın.
Ağzına söz oldun tanışın, yadın.
Bu nədir qardaşım gör nə etdin sən?
Sonunda əlinnən geyindin kəfən.
Sən mənə bir dost yox, olmuşdun qardaş.
İndi mən başıma hardan töküm daş?
Dərd, azar düşəndə mənim canıma,
Həmişə qaçardım sənin yanına.
İndi də beləcə oldu vəziyyət,
Çəkəcəm həmişə sənsiz əziyyət.
Özünə heç gələ bilmirdi Elxan.
Gözünün önündən getmirdi Mehman.
Elə ki, yumurdu bir az gözünü.

O saat görürdü onun özünü.
Özünü günahkar bilirdi Elxan.
Deyirdi yanında olsaydım o an,
Qoymazdım heç görsün belə bir işi.
Boşanmaq üstündə ölərmi kişi?

*****

Aradan keçmişdi bir xeyli zaman.
Mərcansız darıxdı bu Elxan yaman.
Maşınla gedərkən yol ilə birdən,
Gördü ki, qız gəlir orda qəfildən.
Yoxladı o, yolun sağ və solunu.
Maşınla Mərcanın kəsdi yolunu.
Bu zaman itirdi Mərcan özünü.
Yerlərə dirədi qara gözünü.
Çim su tökülürdü qızın başından.
Elxan tez atlanıb düşdü maşından.
O, qara eynəyi gözünə taxdı.
Doyunca Mərcanın üzünə baxdı.
Mərcanın allandı gül yanaqları.
Lalə tək qızardı tez dodaqları.
Elxan salam verib , hal-əhval etdi.
Az qala bu qızın ürəyi getdi.
O, dəvət eylədi qızı maşına.
Maraqla baxırdı tez üst-başına.
Çəkmirdi yerlərdən Mərcan gözünü.

Narahat hiss etdi orda özünü.
İstədi yox desin çıxmadı səsi.
Az qaldı kəsilsin onun nəfəsi.
Onun titrəyirdi əli, ayağı.
Artıq səyriyirdi incə dodağı.
Elxan gülümsəyib tutdu əlindən.
Bir kəlmə söz çıxsın dedi dilindən.
Gəl otur maşına aparım səni.
Özündən nigaran qoyma gəl məni.
Maşına minməsən Mərcan, əgər sən,
Yerimdən bir addım tərpənmərəm mən.
Bilmədi bu Mərcan artıq nə etsin.
Minsinmi maşına, yoxsa ki, getsin?
Nəhayət qızcığaz mindi maşına.
Əlinnən bir tumar çəkdi başına.
Elxan danışırdı özü-özünə.
Qız qulaq asırdı onun sözünə.
Arada alçaqdan nəsə deyirdı.
İçi öz içini sanki yeyirdi.
Bir təhər çatdılar mənzil başına.
Son dəfə boylandı bu qız maşına.
O, sağ ol deyərək düşdü maşından.
Bir ağrı qopmuşdu onun başından.
Elxandan utandı qızcığaz guya.

Batmışdı tamamən bu yazıq suya.
Külək də vururdu indi maşından.
Onunçün ağrılar qalxdı başından.
Elxanın heç bundan yoxdu xəbəri.
Xəyalı gəzirdi sanki göyləri.
Elə ki, yumurdu indi gözünü,
Bəxtəfər bilirdi artıq özünü.

*****

Düz üç il birlikdə nişanlı qaldı.
Onlar bir-birinə meylini saldı.
Nəhayət yetişdi toyun zamanı.
Təbrik eyləyirdi hamı Elxanı.
Oğlanın sevinci aşıb-daşırdı.
Hər yerdə sevincək o, dolaşırdı.
Mərcanın ürəyi necə əsirdi?
Elxanı görməyə çox tələsirdi.
Həyətdə böyük bir çadır qurdular.
Çadıra min cürə bəzək vurdular.
Hər cürə musiqi, mahnı çalındı.
Olduqca gözəl bir məclis alındı.
Cavanlar nə qədər rəqs elədilər.
Bir damcı yoruldum heç demədilər.
Gecənin yarısı toy sona yetdi.
Qonağın hamısı evinə getdi.
Gecəni yuxuya getmədi Pəri.

Çoxuydu ananın evdə işləri.
Salaydı hər yeri gərək sahmana.
Sabaha hazırlıq edirdi ana.
Çünki səhər onda köçürdü Mərcan.
Getdikcə anada artdı həyəcan.
O, gördü qurtardı bütün işləri.
Hər yeri tər-təmiz eylədi Pəri.
Səhər tezdən onlar erkən oyandı.
Hamı hazırlanıb hazır dayandı.
Aradan keçmişdi bir xeyli zaman.
Oğlan evi gəldi deyildiyi an.
Həyətdə çaldılar, hamı oynadı.
Qaynar bir qazan tək həyət qaynadı.
Sonunda vağzalı çalındı yenə.
Mərcana dedilər uğurlar sənə.
Bu qızı adamlar təbrik etdilər.
Elxangil Mərcanı alıb getdilər.
Onlar da həyətdə çadır qurmuşdu.
Mağarı bəzəyib, bəzək vurmuşdu.
Qonaqlar başladı axın etməyə.
Dəsdəynən hamısı toya getməyə.
Günorta başladı oğlanın toyu.
Çoxuydu Elxanın köməyi , hoyu.
Cavanlar hamısı qulluq edirdi.

Hər işin dalınnan qaçıb gedirdi.
Məclisi çox gözəl verdilər yola.
Pullar xərclənirdi sağa, gah sola.
Bir gözəl ailə quruldu indi.
Bu işə olduqca hamı sevindı.

*****

Evlilik əvvəlcə cox xoş keçirdi.
Mərcan da yaxşını, pisi seçirdı.
Hamıynan o, evdə xoş dolanırdı.
Onlara özü tək çox inanırdı.
Elxanın atası vəfat etmişdi.
İllərdi dünyadan köçüb getmışdi.
Bacısı çoxdandı getmişdir ərə.
Burnunu soxurdu ancaq hər yerə.
Qaynana onlarla bir yaşıyırdı.
Evin hər yükünü o, daşıyırdı.
İxtiyar həmişə öz əlindəydi.
Acı söz hər zaman düz dilindəydi.
Getdikcə iç üzü çıxırdı çölə.
Hikkədən az qala bu saat ölə.
Həmişə Mərcanı salırdı dara.
Günləri getdikcə olmuşdu qara.
Gördüyü xoş günün ömrü az oldu.
Bütün arzuları qönçə tək soldu.
Qaynana bütün gün çox deyinirdi.

Yaxşı nə vardısa o, geyinirdi.
Özünə həmişə paltar alardı.
Mərcanı çalışıb gözdən salardı.
Gəlinə bir dənə çöp də almırdı.
Ancaq heç kefindən özü qalmırdı.
Mərcan mat qalmışdı onun işinə.
Ağzını açanda vurur dişinə.
Bəs nədən dəyişdi indi bu Turan?
Əvvəllər sevirdi Mərcanı hər an.
Gəlin fikirləşib fikir edirdi,
Xəyalı uzağa uçub gedirdi.
Bilmirdi nə idi onun günahı?
Heç nədə yoxuydu axı tamahı.
Bəs nədən gəlinə kin bəsləyirdi?
Onu çağıranda pis səsləyirdi.
Sanki heç görməyə yoxuydu gözü.
Bəs nədən almışdı oğluna özü?
Ananın yanında lalıydı Elxan.
Ana nə desəydi olurdu o an.
Bir dəfə dillənib demirdi, ana,
Mərcan ki, qohumdu hər şey bir yana.
Adamın üstündə olar Allahı.
Axı bu yazığın nədir günahı?

Nə verib sən ona ala bilmirsən?
Heç zaman özündə günah görmürsən.

*****

Pəri mat qalmışdı öz baldızına.
Nə üçün pis rəftar edir qızına?
Heç nəyin üstünü əvvəl vurmadı.
Sonunda ürəyi onun durmadı.
Gəldi o, Turanın evə yanına.
Gizilti düşmüşdü sanki canına.
Gördü ki, Mərcanın solubdu rəngi.
Qalmayıb əvvəlki ruhu, ahəngi.
Pərinin daha da qaraldı qanı.
Bildi ki, qızının ağrıyır canı.
Ananın başına dünya dar oldu.
O, özü bulud tək boşaldı , doldu.
Əvvəlcə qızından hal- əhval tutdu.
Hər şeyi biləndə acını uddu.
Sevincdən ananın parladı gözü.
Unutdu arvada deyəsi sözü.
Turanı eylədi tezcə xəbərdar.
Söylədi: gəlninin bil, uşağı var.
Hamilə qalıbdı mənim Mərcanım.
Onlara qurbandı özümün canım.
Dünyaya gələcək bizim nəvəmiz.
Gözümüz dolusu onu görək biz.

Turana demədi daha başqa söz.
Mərcana söylədi: qızım, sən də döz.
Bu yaman günlərin ömrü az olur.
Yerinə xoşbəxtlik, səadət dolur.
Keçəcək bunların hamsı keçəcək.
Xoş günlər özləri səni seçəcək.
Günlər yavaş-yavaş keçib gedirdi.
Mərcana bibisi zülüm edirdi.
Qoymurdu bircə an dincini alsın.
Həm yatıb dincəlsin o, rahat qalsın.
Deyirdi: ay gəlin, iş görməlisən.
Sən özün işləri tam bilməlisən.
İşləmək xeyirdir sənin canına.
Nə üçün mən gəlim axı yanına?
Getdikcə gəlinin qarnı böyüdü.
Halı pis olurdu, qusub öyüdü.
Qaynana qoymurdu getsin həkimə.
Deyirdi, lazım döy getmək heç kimə.
Otur sən evində gör öz işini.
İncitmə nə məni, nə də kişini.
Hamilə olubsan gəl çıx başıma.
Məndən söz danışma sən yoldaşına.
Hər şeyi həll edən burda mənəm mən.
Qanundan kənara çıxammazsan sən.

*****

Bunların hamsını görürdü Pəri.
Təsəlli verirdi ona öz əri.
Deyirdi bacımın xətrinə dəymə.
Qohumluq telini heç zaman əymə.
Aparmır həkimə, sən apar özün.
Yığılsın bir yolluq söhbətin-sözün.
Mərcanı onlardan bir gün alarsan.
Aparıb həkimə özün salarsan.
İndi də deyəcəm sənə düzünü.
Bacımın görmüşəm mən hər üzünü.
Bilsə bu işləri dünya dağılar.
O ki, var qışqırıb yaman bağırar.
Sonra da düşəcək araya dava.
Pozular o evdə tez abu -hava.
Biz bunu ağılnan eyləyək, görək.
Bu işi bir kimsə bilməsin gərək.
Gəl gedək deyək ki, pasport alırıq.
Onunçün həkimə onu salırıq.
Öyrənmək lazımdı qan qurupunu.
Həkimə aparmaq lazımdı bunu.
Həm alaq doğurdan sənədlərini,
Yoxladaq ağrıyan hər yerlərini.
Bu sözlər Pərinin batdı başına.
Ər-arvad mindilər onlar maşına.

İcazə aldılar onlar Mərcana.
Həkimə apardı ata və ana.
Pərinin tez özü düşdü qabağa.
Yoxlatdı qızını başdan ayağa.
Öyrənib bildilər qız olacaqdır.
Səs-küyü aləmə lap dolacaqdır.
Mərcanı gətirib evə qoydular.
Turanın nazından onlar doydular.
Heç kimə söyləmə dedi anası.
Kəsilməz Turanın yoxsa davası.
Aradan keçmişdi azca bir zaman.
Elxanın bacısı orda olan an,
Mərcan da sevincək söylədi ona.
Bu sozlər ağzından çatmamış sona,
Hər şeyi öyrəndi davakar ana.
Elə bil burada qopmuşdu tufan.
Aləmi dağıtdı sanki bu Turan.
Mərcan şok olaraq yerində qaldı.
Turandan olmazın sözünü aldı.
Həzm edə bilmirdi həmin sözləri.
Çıxdı kəlləsinə onun gözləri.
Bibiyə bir kəlmə o, demədi söz.
Sanki Pəri ona deyirdi ki, döz.
Sakitcə başını aşağı saldı.

O, peşman olaraq yerində qaldı.
Söylədi: kimdi ki, bu anan Pəri?
Səninlə dolaşır o, həkimləri?
Yaxşı olardı ki, bu Pəri getsin,
Özünün evində ağalıq etsin.
Aləmi bu Turan dağıtdı, yıxdı.
Qızdan səs çıxmadı, daşdan səs çıxdı....

*****

Günlər yavaş-yavaş su kimi axdı.
Yetişdı uşağın doğulma vaxtı.
Tutmuşdu Mərcanın artıq sancısı.
Getdikcə artırdı ağrı-acısı.
Gördü ki, tərpənmir yerindən Turan .
Həkimə aparmaq istəmir bu an.
Ağrısı getdikcə artdığı zaman,
Xəlvətcə Pərini çağırdı Mərcan.
Söylədi: ay ana, özünü yetir.
Bu saat gəl məni həkimə götür.
Ağrıdan ölürəm qalmayıb heyim.
Bilmirəm dərdimi mən kimə deyim?
Elə ki, qurtardı Mərcan sözünü,
Anası yetirdi ora özünü .
Pəriylə görüşüb, söylədi Turan.
Burda da heç həkim tapılmır bu an.
Həkimə aparmaq heç lazım deyil.

Evə tibb bacısı çağırmışam bil.
Hardasa bir azdan gəlib çıxacaq.
Mərcana evdəcə özü baxacaq.
Əsəbdən Pərinin bərəldi gözü.
Bu işə mat qaldı indi də özü.
Bu nədir, ay bacı, nə deyirsən sən?
Məəttəl qalmışam inan sənə mən.
De hansı zamanda yaşayırıq biz?
Nədən öz evində doğsun gəlniniz?
Əgər bir şey olsa evdə Mərcana,
Nə cavab verərsən onda Elxana?
Mən yerdən yığmadım onun canını.
Düzlərə səpəsən indi qanını.
Evdə heç doğuşa yoxdu icazə.
Özündən çıxartma indi möcüzə.
Mən evdə doğmağa qoymaram onu.
Qorxuram pis olar bu işin sonu.
Zəng vurdu tələsik Pəri ərinə.
Söylədi: getmə gəl indi dərinə.
Heç nəyi soruşma, heç sual etmə.
İndi heç bir yerə özün də getmə.
Bu saat özünü sən bura yetir.
Mərcanın vaxtıdır həkimə götür.
Kişi tez anladı olub- keçəni.

Boş yerə çağırmır bu arvad məni.
Kişi tez -tələsik çıxdı qapıdan.
Özünü onlara yetirdi o an.
Gördü ki, danışır yenə bacısı.
Artıbdı Mərcanın ağrı, acısı.
Vecinə almayır bacı heç kəsi.
Aləmlə bir olub bu saat səsi.
Bu gəlin qapıdan çıxammaz bu an.
Evində doğacaq deyirdi Mərcan.
Pəri də deyirdi, bizi dolama.
Birdən bir şey olar mənim balama.
İndi ki, iş çatdı gəldi bu yerə.
Yerinə otursun deyirəm hərə.
Mən hələ keçmədim onun başından.
Bibisən, sən utan hələ yaşından.
Uşaq tək mənasız söz danışırsan.
Yalandan odlanıb, lap alışırsan.
Qızımı mən evdə qoyan deyiləm.
Sənin boş sözünə nə də əyiləm.
Bayaqdan onlara baxırdı Elxan.
Nəhayət işlərə qarışdı son an.
Ay ana, bu nədir, nə deyirsən sən?
Lazımdır, həkimə apararam mən.
Ay bala, de kimdən artıqdı Mərcan.
Gəlinlər evində doğurlar hər an.

Onlar tək qoy bu da doğsun evində.
Maşının xarabdı , axı sənin də.
Heç yoxdu bizdə də bilirsən imkan.
Onunçün evində doğacaq Mərcan.
Ay ana, gül kimi işləyir maşın.
Maşından çıxmayır heç sənın başın.
Sonunda Mərcanı evdən aldılar.
Aparıb həkimə onlar saldılar.
Gözəl qız uşağı gəldi dünyaya.
Bənzədi günəşə, o gözəl aya.
İki saat qaldılar xəstəxanada.
Onlarla birlikdə oldu ana da.
Sonradan yenə də o, bilə-bilə,
Hamının yanında gəlmişdi dilə.
Artıq qucağına alıb uşağı.
Düşün qabağıma başı aşağı.
Evə getməyinin çatıb zamanı.
Çıxartman çilədən daha adamı.
Burda qalmayıbdır artıq işimiz.
Evdə olmalıyıq biz hər birimiz.
Həkimi söylədi: ay gözəl xanım,
Aparma xəstəni sən mənim canım.
Qoy gəlsin hələ bir onlar özünə.
Sən Allah, qulaq as həkim sözünə.

Bircə gün qalsınlar xəstəxanada.
Özünə gəlsin bir doğan ana da.
Burdan siz onları alıb gedərsiz.
Narahat olsalar de nə edərsiz?
Burda biz hər cürə yardım edərik.
Bir xəta yaşansa risqə gedərik.
Turan dediyini deyib də durdu.
Əsəblə əlini masaya vurdu.
Heç kimə mən hələ açmadım ağız.
Iazımsa dilimdən verərəm kağız.
Nəhayət Turanın dediyi oldu.
Bütün istəkləri yerinə doldu.
Yenə öz dediyi kimi də etdi.
Mərcanı uşaqla götürüb getdi...

*****

Bu uşaq özünnən sevinc gətirdi.
Qoxusu elə bil sanki ətirdi.
Onun xoş qoxusu dolmuşdu evə.
Mərcan böyüdürdü çox sevə-sevə.
Bu qızın adını qoydular Humay.
Elə bil günəşdir, ya da ki, bir ay.
Ağappaq o, gözəl sanki qarıydı.
Yaxşı ki, bu evdə Humay varıydı.
Hamının başını uşaq qatırdı.
Hamı kədərini onnan atırdı.

Elxan da meylini ona salmışdı.
Həmişə qızından ləzzət almışdı.
İşdən çıxan kimi qaçırdı evə.
Oynadırdı onu o, sevə-sevə.
Turan da sevirdi bu nəvəsini.
Gizlədə bilmirdi öz həvəsini.
Qızı çox sevirdi, əzizləyirdi.
Onu çimizdirib təmizləyirdi.
Beşiyə qoyan tək o, ağlayırdı.
Gözündən sel kimi yaş çağlayırdı.
Turan tez qaçırdı onun yanına.
Sanki od düşürdü şirin canına.
Həmişə beşikdən tezcə alırdı.
Ayağı üstündə layla çalırdı.
Nə qədər böyüyüb o, yaşa doldu.
Bunlara bu uşaq adətkar oldu.
Həmişə gəzirdi nənə yanında.
Nənəyə bağlılıq vardı canında.
Yeməyi nənəsi yedizdirərdi.
Üstündən cayını içizdirərdi.
Son vaxtlar vermirdi onu Mərcana.
Kənardan baxırdı qızına ana.
İstəyirdi onun tutsun əlindən.
Eşitsin bir ana sözü dilindən.

Həsrətlə baxırdı Mərcan Humaya.
İstərdi sacını açıb daraya.
Oxşamaq gəlirdi içindən onu.
Bilmirdi bu işin nə olar sonu.
Qaynana Mərcanı yaxın qoymurdu.
Pislikdən heç zaman özü doymurdu.
Deyirdi sən yeri gör öz işini.
Mən yola salaram sənin kişini.
Evləri yığışdır, süpür həyəti.
Uşaqla heç işin olmasın qəti.
Toyuğa, cücəyə baxarsan özün.
İnəyin üstündə qoy olsun gözün.
Uşaqla hər yeri gəzirdi özü.
Gəlinin üstündə olurdu gözü.
Humayı Mərcana yaxın qoymurdu.
Özü heç uşaqdan ancaq doymurdu.
Aləmi qatırdı həmişə arvad.
Bütün hər bir şeyi edirdi bərbad.
Uşaq alışmışdı həmin Turana.
Kənarda qalmışdı əlacsız ana.
Hərdən Pərigilə Mərcan gedirdi.
Turandan hey giley -güzar edirdi.
Bilmirəm ay ana, nədir günahım?
Bir gün bu bibini tutacaq ahım.
O, niyə ayırır uşağı məndən?

Qızıma baxıram həmişə gendən.
Uşaq heç yaxın da gəlməyir mənə.
Xəlvətcə yanına gedirəm yenə.
Bilmirəm bibimin nədir məqsədi?
Öləndə ortada qalar cəsədi.
Çünki o, həmişə batır günaha.
Bu da xoş getməyir heç vaxt allaha.
Məndən nə istəyir, bibimin özü?
Götürmür heç məni o evdə gözü.
Elə hey deyir ki, işləri gör sən.
Uşağa baxaram hər zaman da mən.
Gəlin yox, qulluqçu gətirib məni.
O, əfəl yerinə qoyur hey səni.
Utanmır heç zaman öz qardaşından.
Ağzına nə gəldi deyir başından.
Söz deyə bilməyir heç ona Elxan.
Ona da söylənir elə həmin an.
Bilmirəm axırı necə olacaq?
Nə zaman insafa özü dolacaq?
Əlindən lap günüm olubdu qara.
Başımı götürüm mən gedim hara?
Baxıram o yana, bir də bu yana.
Birdən az qalıram qayıdam, ana.
Humayın dərdindən orda qalıram.

Hər şeyi içimə vallah, salıram.
Mən gəlsəm Humayı o, mənə verməz.
Uşaqsız mənim də ürəyim dözməz.
Bibimin mənimlə bu davasında,
Qalmışam od ilə su arasında.
Gecə də, gündüz də hey çalışıram.
Əsəbdən yanıram, lap alışıram.
Yenə də o, razı qalmayır məndən.
Nə edim, bax indi soruşum səndən?
Qızını  sonadək dinlərdi Pəri.
Mərcanda qalardı ala gözləri.
Həmişə yüz ölcüb, bir götürərdi.
Dərindən ah çəkib, köks ötürərdi.
Basardı Mərcanı ana bağrına.
Hər bir şey gedərdi onun ağrına.
Çırpınardı hər an onun ürəyi.
Sanki dağılırdı dərdi kürəyi.
Öpüb Mərcanını sığallayırdı.
Həmişə gizlicə o, ağlayırdı.
Deyirdi səbr elə, bir az döz bala.
Çalış ki, heç kimdən sən qalma dala.
Var sənin çox gözəl evin- eşiyin.
İçində uşaqlı qəşəng beşiyin.
Nə olar, nənədir baxır, qoy baxsın.
Qəlbinə qoy onun bir rəhim axsın.

Sən onu dəyişə bilməzsən inan.
Özünə fikir ver özün hər zaman.
Cavansan yenə də uşaq olacaq.
Onun da qəlbinə insaf dolacaq.
İnan ki, gələcək elə bir zaman.
Bəlkə də doğurdan olacaq peşman.
Evində iş görən qulluqçu deyil.
Evinə salarsan, ay qızım meyil.
İş görən ölməyir heç vaxt dünyada.
İş üçün sən ağız açma gəl yada.
Sən cavan gəlinsən gör öz işini.
Yola sal həmişə özün kişini.

****

İkinci bir uşaq doğuldu yenə.
Bunda da oyunlar çıxartdı nənə.
Tərsliyi tuturdu yenə Turanın.
Arada yanırdı canı Mərcanın.
Bunun da adını qoydular Günay.
Mərcana olmuşdu bu ən gözəl pay.
Turan heç bu qıza yaxın gəlmədi.
O, necə böyüyür nənə bilmədi.
Pərinin çoxuydu evdə işləri.
Tər-təmiz edərdi bütün yerləri.
Günlərin birində gördü ki, Pəri,

Qapıda qadınla danışır əri.
Tələsik qapıdan çıxdı eyvana.
Boylandı o yana, bir də bu yana.
Bu qadın heç tanış gəlmədi ona.
Diqqətlə baxdı o, geydiyi dona.
Geymindən bu qadın çox imkanlıdı.
Anladı, bildi ki, adlı-sanlıdı.
Əri gəlib dedi: çağırır səni.
Ay kişi, kimdir ki, axtarır məni?
Nə bilim, ay Pəri, soruş özündən.
Sozlüyə oxşayır o, üz -gözündən.
Qadın gözləyirdi çöldə Pərini.
O, yerə dikmişdi düz gözlərini.
Qadın salam verib durdu kənarda .
Söylədi: ay bacı, qalmışam darda.
Səninlə çox vacib bir söhbətim var.
Oturub bir yerdə danışmaq olar?
Gəl keçək biz evə, söhbətini et.
Ay bacı, sonra da rahatca cıx get.
Yox gedə bilmərəm evinə, xanım.
Gəl parkda oturaq, sən mənim canım.
Sürücü bu saat aparar bizi.
Biz rahat danışaq qoy sözümüzü
Təccüblə baxırdı, Pəri xanıma.
Üşütmə düşmüşdü onun canına.

Heç yerdə görmədim ay bacı, səni.
Qorxuya salırsan sən vallah, məni.
Burdaca de mənə onda sözünü.
Çox pis hiss elədim bu an özümü.
De kimsən, sən məndən nə istəyirsən?
Əlimdən nə gəlir, nə eyləyim mən?
Arvadın əsirdi əli, ayağı.
Titrədi o, zərif, incə dodağı.
Deyirəm, ay Pəri, mən dönə- dönə.
Məndən heç bir ziyan toxunmaz sənə.
Unutdum adımı söyləmədim mən.
Diqqətlə dinlə gəl onda məni sən.
Mən özüm həkiməm, adım da Nurlan.
Güc ilə gəlmişəm yanına inan.
Bilmirəm nə deyim, gəlməyir üzüm.
Utana- utana gəlmişəm özüm.
Mənim bir qızım var adı Yasəmən.
Yəqin ki, adını eşidibsən sən.
Pərvizlə görüşür xeyli zamandı.
Oğlunun sözünə bu qız inandı.
Üşütmə düşübdü mənim canıma.
Bax ona görə də gəldim yanına.
Hamilə qalıbdı bu qız Pərvizdən.
Bir xahiş edirəm indi mən sizdən.

Biabır eyləmən ay Pəri, məni.
Evinə gətir gəl sən Yasəməni.
Vallah, çox ayıbdır eldən-obadan.
Hamilə qalmayıb o, da havadan.
Bu səhvi birlikdə onlar ediblər.
Bilmədən irəli xeyli gediblər.
Onsuz da sevirlər biri - birini.
Evinə gətir gəl sən də gəlini.
Çox dərin fikirə getmişdi Pəri.
Bulanlıq görürdü artıq gözləri.
Onun da artmışdı çox həyəcanı.
Təşvişə düşmüşdü doğurdan canı.
Dedi ki, sən fikir eyləmə, xanım.
Bu işə çox yandı mənim də canım.
Rast ki, var arada sevgi söhbəti,
Bu işi pozmaram mən heç vaxt qəti.
Elçilik edərəm adətlə özüm.
Bütün hər bir şeyə gərək mən dözüm.
Dım-dım halvası döy axı evlənmək.
Lazımdır bu işi bir evdə demək.
Mən sizə əvvəlcə xəbər edərəm.
Sonra da adətlə elçi gedərəm.
Nurlanın sevincdən yaşardı gözü.
Pəriyə razılıq eylədi özü.
Çox sağ ol, naümüd qoymadın məni.

Evdə gözləyəcəm qonaqla səni.
Özünü saxlaya bilmədi Nurlan.
Pərinin boynuna sarıldı o an.
Sevincək üz tutdu arvad maşına.
Məhəl də qoymadı axan yaşına.
Donaraq yerinə yapışdı Pəri.
Seyr edib baxırdı ona öz əri.
Tələsik tez kişi gəldi yanına.
Bir maraq çökmüşdü onun canına.
Ay arvad, kimiydi bu gələn xanım?
Bayaqdan burdaca qalıbdı çanım.
Pəri hər bir şeyi söylədi ona.
Ay kişi, toy edək bu çatsın sona.

*****

Pəri də, kişi də fikirə getdi.
Pərviz bu işləri çox bərbad etdi.
Biabır eylədi oğlan lap bizi.
Mən belə bilməzdim heç vaxt Pərvizi.
Dodağı altından söyləndi Pəri.
Ona qulaq asıb dilləndi əri.
Heç fikir eyləmə sən də, ay arvad.
Heç bir şey olmayıb indi də bərbad.
Bəxtini yazan da beləcə yazıb.
Pərvizin önündə bir quyu qazıb.

Büdrəyib quyuya düşüb bu oğlan.
Səhfini anlayır bu saat inan.
Quyudan kəndirlə dartaq Pərvizi.
Qoyma qınasınlar el -oba bizi.
Onunçün qızgilə elçi gedərik.
Sonra da onlara bir toy edərik.
Bununla bağlanar həmin məsələ.
Heç kimsə bilməyir bir kəlmə hələ.
Pəri həmin qıza tez elçi getdi.
Sonra da toy üçün tədarük etdi.
Qızgilin evinə yol saldı Pəri.
Yoluna qoydu o, bütün işləri.
Yasəmən bu evin gəlini oldu.
Bütün arzuları yerinə doldu.

****

Yasəmən oxuyub olmuşdu həkim.
Xətrinə dəymirdi bu evdə heç kim.
Heç kimin yoxuydu onunla işi.
Maraqlı deyildi nə də keçmişi.
Kefi nə istəsə onu edirdi.
Özü istəyəndə işə gedirdi.
Görürdü həmişə iş görür Pəri.
Onunla birlikdə işləyir əri.
Onlar saxlayırlar çoxlu mal-qara.
Heç kimsə gəzməyir burda avara.

Əkirlər sahədə çox kartof, soğan.
Sahədə olurlar onlar çox zaman.
Yasəmən belə şey heç görməmişdi.
O, nə iş görmüşdü, nə bilməmişdi.
Hər bir şey önünə hazır gəlirdi.
Bu həyat qəlbini sanki dəlirdi.
Üzdə heç kimsəyə deməyirdi söz.
Elə bil kim isə deyirdi ki, döz.
Güc-bəla özünü ələ alırdı.
Hamının yanında şirin salırdı.
Nəyi istəyəndə görürdü özü.
Xoşuydu hamıya söhbəti-sözü.
Nəhayət yetişdi doğum zamanı.
Həkimə götürdü onlar ananı.
Gözəl qız uşağı gəldi cahana.
Nə qədər sevindi buna da ana.
Uşağın yaşına çox az qalmışdı.
Hamının qəlbinə o, yol salmışdı.
Günlərin birində gördü ki, Pəri.
Sükuta qərq olub bütün yerləri.
Uşağın gəlmirdi heç yerdən səsi.
Təşvişə saldı bu evdə hər kəsi.
Gəlini səslədi hündürdən Pəri.
Hər yerdə axtardı onu gözləri.

Hardadı görəsən indi Yasəmən?
Ay Pərviz, özünə bir zəng elə sən.
Gəlinə nə qədər zəng etdi oğlan.
Gəlindən bir xəbər almadı o an.
Uşaqdan qorxurdu evdə də hamı.
Bu yoxluq qorxutdu bütün adamı.
Bəlkə bir iş gəlib onun başına.
Çox az bir zaman var qızın yaşına.
Xəbərsiz getməzdi axı Yasəmən.
Zəng edim, Nurlanla qoy danışım mən.
Hərə tez çəkildi evdə bir yana.
Pəri zəng eylədi həmən Nurlana.
Nurlandan soruşdu o, Yasəməni.
Yoxluğu narahat eyləyir məni.
Duruxdu, Nurlanın gəlmədi səsi.
Elə bil tutuldu sanki nəfəsi.
Bilmədi nə desin bu an Pəriyə.
Az qaldı utancdan indi əriyə.
Bizdədir, narahat olma , ay Pəri.
Yalandan axtarma bütün yerləri.
Uşağı götürüb gəlib Yasəmən.
Deyir ki, onlara dönəmmərəm mən.
Kömürdən qaradır üzüm yanında.
Bilmirəm nələr var bunun canında.
Deyir ki, bəyənmir daha Pərvizi.

Görmək istəməyir, nə də ki, sizi.
Pəri şok olmuşdu yerində qaldı.
Sifəti min cürə rəngləri aldı.
Axı nə sözlərdir söyləyirsən sən.?
Doğurdan söyləyir bunu Yasəmən?
Nə pislik etmişik biz Yasəmənə?
Nədən bu sözləri söyləyir mənə?
Hamı çox istəyir evdə xətrini.
Bu niyə heç kimin bilmir qədrini?
Nə deyib hamsını hazır etmişik.
Bir kəlmə sözünnən hara getmişik.
O, kimdən küsübdü, niyə gedibdi?
Bütün hər işləri bərbad edibdi.
Qoy bir az yaşasın o, evinizdə.
Səbirlə gözləyək indi də biz də.
Dəstəyi yerinə qoymuşdu Pəri.
Anlaya bilmirdi həmən sözləri.
Pərvizin heç nədən yoxdu xəbəri.
Təccübdən ağara qaldı gözləri.
Axı heç olmayıb söhbəti-sözü.
Xəbərsiz gedibdi bu gəlin özü.
Səbirlə gözlədi açılsın səhər.
Güc ilə özünə gəldi bir təhər.
Təlatüm düşmüşdü onun canına.

Bir başa o, getdi qızın yanına.
Çox xoş qarşıladı Yasəmən onu.
Dedi : evliliyin gəlibdi sonu.
Sizlərə budur ki, sonuncu sözüm,
Oraya dönəsi deyiləm özüm.
Sənin gözəlliyin aldatdı məni.
Heç yaxşı tanıya bilmədim səni.
Bizim səviyyəmiz heç uyğun deyil.
Onunçün gəlmişəm, doğrusunu bil.
Dönəsi deyiləm heç zaman sizə.
Bir daha dalımca gəlməyin bizə.
Olduqca qaraldı Pərvizin qanı.
Elə bil od tutub yanırdı canı.
Gəlinin sözləri tutmuşdu onu.
Bildi evliliyin gəlibdi sonu.
Pərviz ordan çıxıb dönmədi geri.
Bir gün yenə ora getmişdi Pəri.
Fikir götürmüşdü artıq Pərini.
Tuta bilməyirdi əsəblərini.
Son dəfə deyirəm, ay qızım sənə.
Diqqətlə qulaq as indi də mənə.
Özümə görədir mənim imkanım.
Bu işə olduqca çox yanır canım.
Arada gül kimi var bir övladın.
Yuvanı qoruyar, saxlayar qadın.

Heç kimsə döyməyib, söyməyib səni.
Naümüd qaytarma gəl burdan məni.
Ağlını top elə, sən yığ başına.
Gəl gedək evinə, öz yoldaşına.
Yasəmən turşutdu lap üz-gözünü.
Demişəm mən sizə sözün düzünü.
Heç cürə , heç xozum gəlmədi sizdən.
Mən xəbər göndərdım sizə Pərvizdən.
Mən sizə dönəsi deyiləm inan.
Dalımca sən bizə gəlmə heç zaman.
Bu sözlər ox olub Pəriyə dəydi.
Arvadın qəddini nə qədər əydi.
O çıxan o evdən çıxmışdı Pəri.
Gəlin axtarırdı yenə gözləri...

****

Pərvizin yoxuydu ali təhsili.
O, yola verirdi ayları , ili.
Allahı vermişdi ona yaraşıq.
Məktəbə olmadı meyli bir qaşıq.
Təhsilnən yoxuydu onun arası.
Həyətdə çıxırdı hər an davası.
Varıydı çox gözəl qabiliyyəti.
Qır- qızıl düzəltmək oldu adəti.
Bir zərgər yanında köməkçi oldu.

Sənətin sirləri qəlbinə doldu.
Getdikcə bu oğlan püxtələşirdi.
Ustanın yanında hey əlləşirdi.
Zamanla bu oğlan məhşurlaşırdı.
Şöhrəti hər yana aşır, daşırdı.
Günlərin birində bayram qabağı.
Sındı Yasəmənin qızıl qolbağı.
Götürüb qolbağı getdi zərgərə.
Gördü ki, işilə məşğuldu hərə.
Yasəmən boylandı o yan, bu yana.
Gözləri sataşdı orda oğlana.
Pərvizin özüydü həmin bu oğlan.
Ayağa qalxdı o, elə həmin an.
Pərviz Yasəməndən qolbağı aldı.
Düzəltdi, o, qızı tez yola saldı.
Tanışlıq o zaman orda olmuşdu.
Ordakı məhəbbət indi solmuşdu.
Pərvizin qaməti aldatdı onu.
Artıq evliliyin gəlmişdi sonu.
Bu işə son verdi Yasəmən özü.
Çünki varlılarda qalırdı gözü.
Onlar kasıbdılar dedi Yasəmən.
Uyuşa bilmirəm heç onlara mən.
Atası-anası yaraşmır bizə.
Demişəm bunları evdə Pərvizə.

Kasıbnan heç zaman olmayib aram.
Yaxşı ki, dünyada mən özüm varam.
Dünyaya bir dəfə gəlir hər insan.
Xoşbəxt yaşamağa haqqı var hər an.
Onlarla ömrümü çürüdüm nədən?
Onunçün bu işə son vermişəm mən.
Onların heç nədə yoxdu günahı.
Çox kasıb yaradıb gözəl allahı.
Son dəfə minnətə gəlmişdi Pəri.
Gəlindən eşitdi həmən sözləri.
Dedi : gözəl qızım, mən deyim sən bil.
Kasıblıq heç zaman ayıblıq deyil.
Hərəyə bir tale yazıb yaradan.
Bu işi qurtardıq biz də bu andan.
Bir daha buraya qayıtmaram mən.
Sevdiyin həyatı indi yaşa sən...

*****

Pərvizin canını aldı qəm , kədər.
Fikirli dolandı, gəzdi bir qədər.
Varlanmaq eşqinə düşmüşdü Pərviz.
Nədən varlılardan geri qalaq biz?
İstəyirəm elə eyləyəm ki, mən,
Varlanım, peşİman olsun Yasəmən.
Kasıb olduğumçün o, məni atdı.

Sanki ölülərin içinə qatdı.
Varıydı Pərvizin bir iş yoldaşı.
Hər şeydən çox yaxşı çıxırdı başı.
Yanırdı Pərvizin halına hər an.
Deyirdi düzələr bu şeylər inan.
Bir gün o, Pərvizin gəldi yanına.
Söylədi: fikir ver indi canına.
Səninlə birgədir burda qardaşın.
Heç fikir eyləmə ağrıyar başın.
Al bunu çəkginən budur siqaret.
Qoy kefin açılsın, bir az hərlən get.
Əslində min dərdin dərmanıdı bu.
Çəkəndə göl olur bircə damla su.
Qaralmış bu kefin indi qalxacaq.
Gözündə ildırım, şimşək çaxacaq.
Özünü göylərdə hiss edəcəksən.
Hər yerə kef ilə sən gedəcəksən.
Dovşanlar şir olar bunu çəkəndə.
Səninçün gətirdim bunları mən də.
Qızlara nə gəlib, qızmı qəhətdi?
Boşanan adamda bu pis çəhətdi.
Fikrini eləmə sən Yasəmənin.
Cavansan, indi nə yaşın var sənin?
Haraya istəsən sənlə gedərəm.
Sən kimi göstərsən tanış edərəm.

Qazancın yolunu göstərrəm sənə.
Bircə sən diqqətlə fikir ver mənə.
Dünya beş günlükdü kefini elə.
Hər bir iş gedəcək yoluyla belə.
Pərviz bu fikirdən dəli olmuşdu.
İndi də bulud tək yaman dolmuşdu.
Bir himə bənd idi durub ağlasın.
Düşündü bu işi tamam bağlasın.
Unutmaq istədi olub- keçəni.
Söz verdi unutsun o, Yasəməni.
Əlini oğlana uzatdı Pərviz.
Söylədi : bu işə son qoyarıq biz.
Oğlan tez yandırdı o siqareti.
Tapşırdı yarımçıq sən atma qəti.
Sonadək çəkərsən, görərsən özün,
Hər şeyi çox gözəl görəcək gözün.
Pərviz tez papirosu oğlandan aldı.
Çəkəndə bu işə özü mat qaldı.
Əhvalı dəyişdi, oldu mehriban.
Elə bil deyildi bayaqkı oğlan.
Bu dərdlər Pərvizin çıxdı yadından.
Doymadı papirosun gözəl dadından.
Özünü göylərdə hiss eləyirdi.
Bu sirri kimsəyə o, deməyirdi.

Pərvizin yanına dostu gedirdi.
Həmişə papirosa qonaq edirdi.
Aradan keçmişdi bir xeyli zaman.
İşə gəlməyirdi həmin o, oğlan.
Pərvizin getdikcə dəyişdi halı.
Tamam pis olmuşdu onun əhvalı.
Başından şiddətli ağrılar qalxdı.
Ağrıdan başına bir papaq taxdı.
Üşütmə düşmüşdü onun canına.
Təlatüm çökmüşdü sanki qanına.
Özünü olduqca pis hiss edirdi.
O başa, bu başa gəlib-gedirdi.
Artıq sıxılırdı onun ürəyi.
Düşündü lazımdı dostun köməyi.
Oğlana zəng etdi tələsik Pərviz.
Söylədi: bu saat gəl görüşək biz.
Oğlan anlayırdı olub- keçəni.
Bilirdi, nə üçün çağırır yəni.
Pərvizdən soruşdu: nə olub qardaş?
Yanına gələrəm bu saat bir baş.
Səsində var sənin bir azca təlaş.
Əvvəlcə dərdini de yavaş-yavaş.
Nədənsə narahat oldu ürəyim.
Həmişə olubsan mənim köməyim.
Bu saat yetirrəm özümü sənə.

De görüm, qardaşım, nə qulluq mənə?
Pərviz tez anlatdı olub -keçəni.
Dedi ki, bu başım öldürür məni.
Deyirəm mən sənə indi sözümü.
Heç aça bilmirəm, vallah gözümü.
Qırılır sümüyüm, ağrıyır canım.
Vallah, it qanına dönübdü qanım.
Bir qədər düşündü, duruxdu Kamil.
Pərvizə söyləyib dedi: indi bil.
Siqaret pulladı , əziz qardaşım.
Bu işdə ağarıb mənim də başım.
Mən alıb gətirrəm bu saat sənə.
Pulunu sən gərək verəsən mənə.
Kamil anlayırdı olub keçəni.
Düşündü mən tora salmışam səni.
Olduqca sevindi o, ürəyində.
Yüngüllük hiss etdi öz kürəyində.
Yağlı bir balığı tora salmışam.
Çox gözəl, əla bir sonuc almışam.
Susuz bir balığa dönübdü Pərviz.
Hər şeyi yoluna qoyaq indi biz.

*****

Aylar dolanırdı, gəlirdi illər.
Növbəynən keçirdi bir-bir fəsillər.

Elə ki, çəkirdi nəşəni canı,
O saat alırdı Pərviz dərmanı.
Gah nəşə çəkirdi, gah həb alırdı.
Canının qeydinə yaman qalırdı.
Pərinin yoxuydu bundan xəbəri.
O, yola verirdi bütün işləri.
Günlərin birində evdəydi Pəri.
Gördü ki, bağçada işləyir əri.
Pəri tez kişinin gəldi yanına.
Narahat hiss çökdü onun canına.
Sübhanı görəndə bir az duruxdu.
O başa, bu başa yaman vurnuxdu.
Təccüblə Pəriyə baxırdı kişi.
Yarımcıq qoydu o, gördüyü işi.
Sən sözlü adama oxşadın Pəri.
Bayaqdan gedirsən irəli -geri.
De görüm nə olub, ay Pəri yenə?
Təzə nə xəbər var sən söylə mənə.
Pəri gülümsəyib dedi, ay kişi.
Qalıbdı Pərvizin evlənmək işi.
Deyirəm bibimin var bir nəvəsi.
Pərvizin heç nəyə yoxdu həvəsi.
Gəl indi Saraya biz elçi gedək.
Sonra da onların toyunu edək.
Subay ha qalası deyil ki, Pərviz.

Sonunda bu işi etməliyik biz.
Diqqətlə dinlədi Pərini Sübhan.
Bir qədər fikirə getdi həmən an.
Bəs onlar verərmi qızı Pərvizə?
Nə deyər görərsən doğrudan bizə?
Pərviz evli olub, bu qız da uşaq.
Bu işi sən öyrən hər şeydən qabaq.
İndi heç qalmayıb mənim inamım.
Qabaqca bir öyrən sən mənim canım.
Qızı verməsələr pis olarıq biz .
Özünə gəlməyib heç hələ Pərviz.
Nəhayət qız gilə elçi getdilər.
Sonunda onları razı etdilər.
Dedilər toy etdik Pərvizə qabaq.
Siz qıza toy edin, biz də yığıncaq.
Axır ki, işlərin hamsı düzəldi.
Pərinin evinə bu gəlin gəldi.
Saranın yoxuydu heç bir savadı.
Məktəbdə labarant gedirdi adı.
Elə ki, evləndi o, gəldi ərə.
Pərviz qoymadı ki, çıxsın bir yerə.
Söylədi: qoy evdə otursun, ana.
Nə işdir gedəcək o yan, bu yana.
Mənə nə lazımdır Saranın pulu?

Evində otursun qız üzü sulu.
O, təzə gəlindir, çöldə nə işi?
Hər yerdə doludur, hər cürə kişi.

*****

İşdən çıxıb evdə oturdu Sara.
Elə ki, düşürdü qaynana dara.
O saat olurdu gəlin yanında.
Çox gözəl xarakter vardı canında.
Gətirdi dünyaya Sara bir oğlan.
Bu evdə yarandı gözəl bir dövran.
Yaddan çıxdı artıq bütün qəm, kədər.
Pərinin əməyi getmədi hədər.
Hər bir şey düşmüşdü artıq yoluna.
Sanki güc gəlmişdi onun qoluna.
Gecə də, gündüz də o, çalışırdı.
Hər çətin bir işə tez alışırdı.
Bir gün işdən evə gələndə Pəri.
Gördü ki, narahat gəzişir əri.
Soruşdu: ay kişi, nə olub sənə?
Sən Allah, düzünü söylə gəl mənə.
Kədərlə dillənib dedi ki, Sübhan.
Pərviz xəstələnib evdədir bu an.
Gah gedir tələsik ayaqyoluna.
Elə bil nə isə vurur qoluna.
Otaqda o yana, bu yana keçir.

Bilmirəm nə olub, elə su içir.
Elə ki, üşütmə tutur Pərvizi.
Qar kimi ağappaq olur bənizi.
Səhərdən dolanır gəlin başına.
Heç məhəl qoymayır o, yoldaşına.
Deyirəm bir həkim çağıraq, Pəri.
Nə günə düşübdü onun gözləri.
Əməlli açmayır uşaq gözünü.
Yaman pis hiss edir yazıq özünü.
Pərinin üzünə çökdü qəm, kədər.
Bu uşaq əziyyət çəkir nə qədər.
Mən onun ovaram tez kürəyini.
Əvvəlcə qoy verim çay, çörəyini.
Uşağı bir yaxşı bankalayım mən.
Sonra da bir həkim çağırarsan sən.
Çəkərik bu saat ona bir əncam.
Yəqin ki, Pərvizim olub sətəlcəm.
Anası oğlunun keçdi yanına.
Gördü ki, üşütmə düşüb canına.
Mat qaldı oğlunun halına Pəri.
Gördü ki, soğulub sanki gözləri.
Atası Pərvizə həkim çağırdı.
Baxdı ki, oğlunun halı ağırdı.
Hər şeyi nəzərdən keçirdi həkim.

Söylədi: narahat olmasın heç kim.
Beş- altı sistem də vuraq qoluna.
Hər şeyi qoyarıq indi yoluna.
Özünə heç fikir verməyib Pərviz.
Soyuqdan heç qalmaz bircə damcı iz.
Pəri əl qatmışdı yaman özünə.
O, əməl edirdi həkim sözünə.
Həkim deyənlərin hamsını etdi.
Pərvizin yolunda o, əldən getdi.
Düzələ bilmədi oğlanın halı.
Elə pis olurdu hər an əhvalı.
Pərinin bir qorxu düşdü canına.
Getdi o, həkimin yenə yanına.
Söylədi: ay həkim, qorxuram yaman.
Gözümə getməyir heç yuxu inan.
Çürüyər uşağın böyrəyi birdən.
Bilmərik gec olar sonra qəfildən.
Elə hey yol salıb ayaqyoluna.
Nə qədər sistemlər getdi qoluna.
Qorxuram özü də tir-tir əsəndə.
Özünə gəlir o, ağrı kəsəndə.
Həkim cavab verib dedi Pəriyə.
Boylanıb baxma sən indi geriyə.
Çox yaxşı olacaq artıq bu Pərviz.
Bununçün edirik tədavini biz.

Düşüncə içində dönürdü Pəri,
Pərvizin dostunu gördü gözləri.
Uşaqlar yığışıb söhbət edirdi.
Pəri də o yoldan keçib gedirdi.
Gördülər arvadın heç yoxdu halı.
Bildilər uzundur bu işin dalı.
Əvvəlcə Pərvizi xəbər aldılar.
Sonra da Pərini şoka saldılar.
Dedilər Pərzizin yaxşı oğlandı.
Əfsuslar olsun ki, o , narkamandı.
Bu arvad yerinə yapışdı qaldı.
Elə bil başına Allah daş saldı.
Bir qədər yazığın çıxmadı səsi.
Batmışdı, çıxmırdı onun nəfəsi.
Əlini o, vurdu birdən dizinə.
Uşaqlar təccüblə baxdı üzünə.
Ay xala, sən bunu bilmirdin özün?
Haraya baxırdı axı bu gözün?...

*****

Bilmirdi nə etsin, neyləsin Pəri?
Çuxura düşmüşdü onun gözləri.
Pərviz bir yanında, Mərcan bir yanda.
Sakitlik olarmı onun canında.
Hər gündə gəlirdi bir qara xəbər.

Bilmirdi neynəsin heç bu bəxtəfər.
Mərcanın olmuşdu günləri qara.
Bilmirdi o, getsin indi də hara?
Hər gündə artırdı evində şiddət.
Onlardan alırdı nə qədər töhmət.
Yoxuydu Mərcanın səsi səmiri.
Bu da əridirdi sanki dəmiri.
Durmadı Pərinin ana ürəyi.
Hədsiz istəyirdi onu görməyi.
Axırda üz tutdu onun yanına.
Təlatüm düşmüşdü yenə canına.
Nəhayət onlara yetişdi Pəri.
Mərcanı gəzirdi onun gözləri.
Turandan soruşdu, yoxdumu Mərcan?
Görünmür gözümə bu evdə, bu an.
Bu Mərcan, nəyinə gərəkdi, Pəri?
Özünün nə qədər olur işləri.
Kim bişirəcək ki, onun aşını?
Sən gəlib bu qızın qatma başını.
Bu nədir deyirsən, ay Turan mənə.
Axı neynəyib ki, Mərcanım sənə?
Bişirsin yenə də bu qız aşını.
Mətbəxdən çıxartsın bir az başını.
Onunçün gəlmişəm buraya özüm.
Bu qədər hicrana mən necə dözüm?

Sən nələr edirsən bax, bu yaşında?
Yoxsa bir işmi var onun başında?
Nəvəsi dil açıb söylədi , nənə,
Yerini deyəcəm indi mən sənə.
Çoxdandır bu evdə yaşamır anam.
Hər şeyi yazığa etdilər haram.
Sənin gəldiyini bilməyir özü.
Yollarda qalıbdı səninçün gözü.
Zəng edə bilməyir heç cürə sənə.
Tövlədə yaşayır özü də yenə.
Alıblar əlindən telefonunu.
Necə olacaqdı bilmir sonunu.
Pərini elə bil ildırım vurdu.
Başının saçları lap biz-biz durdu.
Birbaşa evdən o, tövləyə qaçdı.
Mərcanı görəndə ürəyi sancdı.
Qızının üstünə atdı özünü.
Ağlayıb, qışqırıb dedi sözünü.
Bu nədir , ay bala, nə olub sənə?
Bunları bəs niyə demədin mənə.
Körpə bir uşaq da bax qucağında,
Yatırsan tövlənin bir bucağında.
Qoyublar buraya qırıq çarpayı.
Yeməyi verirlər bir tula payı.

Sizləri atıblar küncə-bucağa.
Yazığı gəlmirmi onun uşağa?
Bu dünya malında yoxdu tamahın.
De görüm, nədir ki, axı günahın?
Bunları nə üçün edirsən qəbul?
Mən gəlin vermişəm, verməmişəm qul.
Sən nədən bunlara düşmüsən əsir?
Atanın bir sözü daşı da kəsir.
Qoyarmı bu yerdə balası qalsın.
Bu saat zəng edim bizləri alsın.
Üzünü çevirdi sonra Turana,
Söylədi, olubsan özün bir ana.
Nədir bu başıma açırsan oyun?
Evində gəlindi, o, deyil qoyun.
De görüm, bir nədir onun günahı?
Tutacaq düz səni onların ahı.
Bu hansı zəmanə, gör nə hünərdi?
Bəs əri hardadı, axı nə ərdi?
Yoxdurmu heç onun dili, ağızı?
Töylədə saxlaylr arvadı, qızı.
Alanda ölürdü onun dərdindən.
Nə oldu tövləyə tulladı birdən?
Pəri tez onları aldı yanına.
Üz tutdu özünün düz ünvanına.
Mərcana baxdıqca alışdı , yandı.

Özünü o, təhqir olunmuş sandı.
Gətirib hamsını tez çimizdirdi.
Doyunca yedirib, həm içizdirdi.
Qaçıb tez tükandan əyin- baş aldı.
Sonra da çox dərin xəyala daldı.
Diqqətlə baxırdı qızın üzünə.
Arada vururdu tez-tez dizinə.
Nə olub, ay qızım, lalmı olubsan?
Bulud tək qaralıb yaman dolmusan.
Deyirəm, mən sənə çox dönə-dönə.
O evə ayağın dəyməsin yenə.
De görüm bir sənin nədir günahın?
Paltarda, gəzməkdə yoxdu tamahın.
Bax niyə bu günə salırlar səni?
Sənin bu mallığın yandırır məni.
Ac-susuz bütün gün sən iş görürsən.
Axşamlar yorulub, vallah ölürsən.
Bilirəm, ağırdır kəndin də işi.
Evində var axı sənin bir kişi.
O, özü bu evdə bəs ola-ola,
Nədən heç işləri qoymayır yola?
Çəkilib durubdu kənarda Elxan.
Aləmi dağıdır Turan da hər an.
Dəyişib onların fikri ,amalı.

Hardan tapacaqlar sənin tək malı?
Yüz sözün birinə vermirsən cavab.
Bunlardan qazana bilməzsən savab.
Sabahdan ərizə ver məhkəməyə.
Heyif sərf etdiyin o boş əməyə.
Boşan gəl bir yolluq sən evimizə.
Həmişə zülm edib hər ikisi bizə.
Əlində iki qız bax ola-ola,
Zordumu, ay qızım, vermirlər yola.
Yapışıb yalandan orda durursan.
Ömrünə, gününə balta vurursan.
Görürsən var mənim düz əlli yaşım.
Heç zaman götürməz bu züımü başım.
Vallah, qız hər şeyi atıb gedərəm.
Mən nəyi söyləsəm, onu edərəm.
Mərcan yerə baxıb bərk ağlayırdı.
Gözündən bulaq tək yaş çağıayırdı.
Çox sözü söyləyə bilmirəm sənə.
Boşansam qızları verməzlər mənə.
Dünya bir yanadır, qızılar bir yana.
Onlarsız həyatı neynərəm, ana?
Onlardan ayrı mən yaşayammaram.
Heç zaman bu yükü daşıyammaram.
Uşağın dərdindən orda qalmışam.
Elə bil özümü oda salmışam.

Həmişə görürəm öz işimi mən.
Axı nə istəyir bu arvad görən?
Elxanı ayırıb tamamən məndən.
Deyir ki, heç xoşum gəlməyir səndən.
O gün bir söz dedi mənə qaynana.
Söylədi, mən qisas alıram , ana.
Bu evdə gəlin yox, qulluqcusan sən.
Bəs niyə o, elə söyləyir görən?
Onların bizimlə nədir azarı?
Nə qədər çəkəcək bunun bazarı?
Pəri öz yerinə yapışıb qaldı.
Diqqətlə ətrafa bir nəzər saldı.
Bu nədir, ay qızım söyləyirsən sən?
Birinci dəfədir eşidirəm mən.
Nəyin qisasını alır bu arvad?
Bütün işimizi eylədi bərvad.
Vursun Allah elə onun özünü.
Doğruya alma sən onun sözünü.
Heç zaman olmayıb bundan xəbərim.
Nə desəm düz olmaz bu an sözlərim.
Onsuz da verməyir o, yola səni.
Bax ona görə də gəl eşit məni.
Hər gündə nə qədər qaralır qanın.
Boşan ki, bir yolluq qurtarsın canın.

Məhkəmə uşağı verəcək bizə.
Gətirrik onları öz evimizə.
Uşağa özünü eyləmə qurban.
Gözümüz üstündə olacaq hər an.

****

Günlər yavaş-yavaş ötüb gedirdi.
Mərcan bu işləri fikir edirdi.
Elə hey olurdu qanı da qara.
Bilmirdi neyləsin, o, getsin hara?
Anası bu evdə sağ ola-ola.
Gəlin heç vermirdi onları yola.
Onun qaş-qabağı yerlə gedirdi.
Hər şeyin üstündə acıq edirdi.
İmkan verməyirdi heç bir uşağa.
Keçsinlər otaqdan başqa otağa.
Hər şeyin üstündə dır-dır edirdi.
Həmişə onların üstə gedirdi.
Deyirdi girməsin kimsə otağa.
Əlini vurmasın bizim uşağa.
Bunların hamsını görürdü Mərcan.
Arada qalırdı orda da hər an.
Gözündən həmişə süzülürdü yaş.
Elə bil dəyirdi hey başına das.
Mərcanın üzünə baxırdı Pəri.
Bulud tək dolurdu onun gözləri.

O, dəli olmuşdu fikir əlindən.
Keçə bilməyirdi nə də gəlindən.
Pəri mat qalırdı özü-özünə.
Kin ilə baxırdı onun gözünə.
Arada söylənib deyirdi : Sara,
Uşaqlar bəs getsin de görüm hara?
Getməyə onların yoxdu ki, yeri.
Yanıram əsəbdən mən diri-diri.
Ayıra bilmirəm Mərcanı sizdən.
Heç zaman doymaram inan Pərvizdən.
Deyirəm həmişə mən dönə-dönə.
Sizin körpələr də əzizdi mənə.
Onlar həyatımdı , öz ürəyimdi.
Hamısı şipşirin bir mələyimdi.
Mərcanı sən gərək verəsən yola.
Heç yerə gedəmməz biz ola-ola.
Hələ ki, qonaqdı burda qalacaq.
Hər şeydən payını ordan alacaq.
Sonra da baxarıq görək nə olur?
Mərcanın özü də gül kimi solur.
Üzdə bir kəlmə də demirdi Sara.
Az qalırdı çəksin onları dara.

****

Günlərin birində bir axşam çağı,
Pəri təmizlədi bağçanı, bağı.
Xəyallar içində qərq oldu ana.
Düşünürdü qızı o, yana-yana.
Ey gözəl Allahım, gözəl yaradan!
Bəxtsizmi doğuldu Mərcan anadan?
Ovcumun içində böyütdüm onu.
Budurmu balamın budurmu sonu?
Gözəllik veribsən, var yaraşığı.
Olubdu evimin nuru, işığı.
Nədən bu taleyi balama yazdın?
Ömür yollarında çuxurlar qazdın.
Bir qanı tox olur, bir qarnı da ac.
İndi də gəlinə edirsən möhtac.
Bəs bu nə qisasdı, ondan alırlar.?
Onu haldan hala niyə salırlar?
Bir parça uşağın nədir günahı?
Tutacaq onları balamın ahı.
Gör necə tüstülər çıxır təpəmdən.
Yanıram, yanıram, odlanıram mən.
Həyətin qapısı açıldı o an.
Qapıda göründü Elxanla Turan.
Pəri tez-tələsik ayağa qalxdı.
Gözündə elə bil ildırım çaxdı.

Bir azca duruxdu, ordaca qaldı.
Güc ilə özünü o, ələ aldı.
Titrətmə gəlmişdi sanki canına.
Nəhayət onlarn gəldi yanına.
Onları keçirdi böyük otağa.
Sonra çay gətirdi qoydu qabağa.
Otağa dərin bir sükut çökmüşdü.
Sübhan qaş-qabağın yaman tökmüşdü.
Bıçaqla vursaydın çıxmazdı qanı.
Əsəbdən yarpaq tək əsirdi canı.
İlk dəfə Turanla gəldi üz-üzə.
Nəhayət başladı bu kişi sözə.
Hər şeyi çox gözəl bilirsən Turan.
Bir evdə böyüdük səninlə çoxdan.
Doğmaca öz anan böyütdü məni.
Özümə mən bacı bilirdim səni.
Ananın xətrinə verdim Mərcanı.
Bəs sənin vicdanın, insafın hanı?
Mərcana nə verib, ala bilmirsən?
Şərikli malmı var, düzgün bölmürsən?
Bir damcı hörmətim yoxmu yanında?
Haqqına girirsən hey Mərcanın da.
Qarnını ağrıdan nədir, ay bacı?
Yeməyimiz oldu zəhərdən acı.

Bu işdə Mərcanın varsa günahı.
Verər cəzasını gözəl allahı.
Bir loxma çörəyi vermirsən ona.
Yalandan girirsən sən min cür dona.
Mərcanı vermişik Elxana ərə.
Mən onu vermədım heç tövlələrə.
Tövlədə inəklə o, birgə yatır.
Gəlini tövləyə de kimlər atır?
Bəs necə qıydın sən körpə nəvənə?
Hansını birini söyləyim sənə?
Tamam mat qalmışam mən bu Elxana.
Bəs necə qıyır o, axı Mərcana?
O, sənə veribdi iki qız övlad.
Bu zülmü adama eyləməz heç yad.
Bir sual edirəm, bu an mən sizə,
De indi nə üçün gəlibsiz bizə?
İstəmirdin qızı sən niyə aldın?
Didərgin eyləyib çöllərə saldın.
Nə idi, ay oğul sənin məqsədin?
İndi cavabını verərsən yəqin.
Sakitcə dayanıb baxırdı Elxan.
Bilmirdi nə desin, danışsın bu an.
Kimsəyə heç aman vermirdi Turan.
Elə bil o, Turan deyildi , inan.
Eləcə quş kimi ötürdü dil-dil.

Arvada bir qüvvə gəldi elə bil.
Bilirəm, ay Sübhan qardaşsan mənə.
Qorxuram xətrinə dəyərəm yenə.
Bağışla sən bizi, səhvim çox olub.
Mənim bu ürəyım kədərlə dolub.
Bilirsən var mənim yüksək şəkərim.
Tamam korlanıbdı öz əsəblərim.
Evdə söz də olar, söhbət də olar.
Hər yerə sevinc də, kədər də dolar.
İzin ver Mərcanım dönsün evinə.
Heç kimsə dəyənməz daha kefinə.
Anladıq indi biz öz səhfimizi.
Əli boş qaytarma gəl burdan bizi.
Mərcanın var gözəl iki uşağı.
Dolandırma bizə aranı, dağı.
Hərənin ağzından çıxırdı bir söz.
Aləm qarışmışdı indi buna döz.
Kənardan oturub baxırdı Pəri.
Bir yerə zillənib qaldı gözləri.
İstədi əvvəlcə heç qarışmasın.
Bir kəlmə o, dinib, nə danışmasın.
Düşündü, oturub danışır Sübhan.
Artıq söz deməyə heç yoxdu aman.
Fikirlər içində baxırdı ana.

Düşündü fikrini desin Mərcana.
Görsün bu işlərə nə deyir Mərcan?
Qalacaqmı, yaxud gedəcək bu an?
Mərcan söylədi ki, dalaşma ana.
Qalmışam içimdən mən yana-yana.
Uşağa eylədim özümü qurban.
Onlarla evimə gedəcəm bu an.
Sən özün bu evdə bax ola-ola,
Gəlinin uşağı vermədi yola.
Olduqca narahat olurdu Sara.
Onları götürüm mən gedim hara?
Yenə öz atası, həm nənəsi var.
Mənçə çıxıb getsəm çox gözəl olar.
Pəri yerindəcə donub qalmışdı.
Mərcandan o, artıq cavab almışdı.
Mərcan uşağını yanına aldı,
Pəri də onları tez yola saldı...

*****

Qızcığaz çox böyük qəmlə, kədərlə,
Artıq barışırdı belə qədərlə.
Həmin şeylər yenə davam edirdi.
Elxan səhər tezdən çıxıb gedirdi.
O, gecə yarısı gəlirdi evə,
Dönürdü elə bil yaralı divə.
Yandakı otaqda təkcə qalırdı.

Xəyallar quraraq fikrə dalırdı.
Günlər bir birini qovub gedirdı.
Hər kəs oz yoluna davam edirdi.
Mərcanla birlikdə qalırdı Günay.
Turanla olurdu nəvəsi Humay.
Bütün hər bir işi görürdü Mərcan.
Ancaq göstərişi verirdi Turan.
Daha çox dəyişdi Elxanın özü.
Görmək istəmirdi Mərcanı gözü.
Onlar qoymayırdı artıq Mərcanı.
Dolanıb, fırlansın başqa bir yanı.
O, nə toy görürdü, nə də ki, nişan.
Çıxa bilməyirdi evdən bircə an.
Ayılıb gördü ki, bir zaman birdən,
Ayağı kəsilib ata evindən.
Aylarla görmürdü Mərcan Pərini.
Catdıra bilmirdi heç sözlərini.
Başı iş görməyə hədsiz qarışdı.
Mərcan bu həyata artıq alışdı.
İmkan verməyirdi heç zaman Turan.
Pəriyə zəng edib, danışsın Mərcan.
Xəlvətcə əlinə düşəndə imkan,
Pərini yığırdı elə həmin an.
Ana hey dil töküb deyirdi ona,

Bu işi gəl artıq verginən sona.
Bir halda arvadla danışmır kişi,
Bax orda arvadın olarmı işi?
Ay qızım, cıx daha gəl evimizə.
Başım qarışıbdı mənim Pərvizə.
Yaradan yazını belə yazıbdı.
Elxan öz yolunu artıq azıbdı.
Mərcanın başına bu söz batmırdı.
Yenə də evini bu qız atmırdı.
Mərcan söyləyirdi: deyirdi, ana,
Onsuzda qalmışam mən yana-yana.
Nə qədər danışsan, söyləsən də sən,
Qızları heç yetim qoyammaram mən.
Eybi yox, qoy ayrı yaşasın Elxan.
Bəs edir həniri qızlara hər an.
İstəmirəm qızlar ortada qalsın.
Kimdənsə tənəli bir sözlər alsın.
Qalmasın kiminsə künc-bucağında.
Böyüsün öz ata yurd, ocağında.
Uşaqlar ürəkli olur o zaman.
Onunçün dözürəm bunlara inan..

*****

Pərvizin sədası getdi hər yana.
Artıq Pəri qaldı lap yana-yana.
Hər gündə iynədən Pərviz vururdu.

Gözünün önündə nələr dururdu.
Artıq başlamışdı dava salmağa.
Özünə yer gəzdi xəlvət qalmağa.
Evdə yoldaşınnan dava edirdi.
Hara istəsəydi çıxıb gedirdi.
Heç kimə yerini demirdi özü.
Saraya deyirdi bütün pis sözü.
Gecələr gəlmirdi evə çox zaman.
Aləm qarışırdı evdə həmin an.
Hədsiz pis olurdu bu işə Pəri.
Yaş ilə dolurdu hər an gözləri.
Deyirdi:Saranı mən bədbəxt etdim.
Ona elciliyə çox nahaq getdim.
Bilsəydik narkaman olubdu Pərviz,
Belə bir oğula toy etməzdik biz.
Nə idi, ay Allah, gəldi başıma.
Rəhm elə gözümdən axan yaşıma.
Bu yoldan qayıtsın, sağalsın Pərviz.
Əvvəl ki, halına dönsün evimiz.
Bir gün işdən evə gələndə Pəri,
Təccübdən bərələ qaldı gözləri.
Yenə də aləmi oğlu qatmışdı.
Otağda hər nə var tutub satmışdı.
Sara ağlayırdı, edirdi tufan.

Ağzına gələni deyirdi o an.
Aləm qarışmışdı bu evdə yenə.
Pəri söylənirdi: nə olub sənə?
Sən evin içini niyə satmısan?
Aparıb elə bil çölə atmısan.
Hər gündə bir azca bu gedir dala.
Bir azdan satacaq məni az qala.
Heç nəyi almırdı oğlan vecinə.
Qoyaydın eləcə geyib- kecinə.
Həmişə iynəni tapıb alırdı.
Özünü nə günə , hala salırdı.
İynəni vuran tək olurdu aslan.
Hər yeri dağıdıb, qırırdı o an.
Satdığı şeyləri ana alırdı.
Aparıb evinə yenə salırdı.
Pərviznən bacara bilmədi ana.
Əsəbdən qalırdı o, yana- yana.
Əsəbdən Sübhanı iflic vurmuşdu.
Ölümlə üz-üzə qalıb, durmuşdu.
Nə qədər etdilər iynə, dərmanı.
Sağalmaq bilmədi kişinin canı.
Güc ilə gəzirdi əsa əlində.
Artıq düzəlmişdi işə gəlin də.
Pərvizin dalınca gəzirdi kişi.
Onu güdmək idi Sübhanın işi.

Pərviz öz yoluna davam edirdi.
Sübhanın əməyi hədər gedirdi.
Nə isə itirdi hər gün həyətdən.
Satırdı hamsını Pərviz qəfildən.
Pərvizə ev tikib, təmir edildi.
Nə qədər armatur, sement gedirdi.
Ata hər bir şeyi alıb yığırdı.
Günlərin birində görüb çığırdı.
Əsəbdən bu kişi tir-tir əsirdi.
Ürəyini xəncər sanki kəsirdi.
Baxdı ki, yox olub qum kisələri.
Quruda da qalıbdı onun əlləri.
Az qaldı kişini lap vursun infakt.
Heç bir şey qalmayıb ortadadır fakt.
Nə qədər danışdı, söyləndi kişi.
Yarımçıq qalmışdı ustanın işi.
Pərviz qumu satıb iynə almışdı.
Hər yerə əməli səs-küy salmışdı.
Dəmir turbalar da bir gün yox oldu.
Sübhanın səbiri artıq lap doldu.
Ay oğul, bu nədir, xarabdı başın?
Gör kimdir otduğun dostun, yoldaşın?
Oğurluq edərmi evindən kişi?
Fikirləş başıma açdığın işi.

Yazıqdır, ay bala, arvad, uşağın.
İynədi hər yerin, küncün, bucağın.
Həmişə bu sözü söyləyirəm mən.
Əlinlə özünə quyu qazma sən.
Ay oğul, cavansan gəl yaşa, yarat.
İynəni vurmağın daşını da at.
Mən xəstə kişiyəm, sən cavan oğlan.
Özün baxmalısan atana bu an.
İndi hər bir şeyin dönüb tərsinə.
Sənə mən baxıram, oğul, əksinə.
Bu evi tikmirəm axı dədəmə.
Nə qədər söyləyim belə eləmə?
Heç nəyi vecinə almırdı Pərviz.
Deyirdi hər şeyi etməlisiz siz...

*****

Bu Mərcan özünü pis hiss edirdi.
Həmişə ağrıdan şikat edirdi.
Günlərlə keçmirdi onun sancısı..
Getdikcə artırdı ağrı, açısı.
Bilmirdi dərdini o, desin kimə?
Kim ilə, nə cürə getsin həkimə.
Onu nə dindirib, danışdı əri.
Nə də ki , heç nədən oldu xəbəri.
Turana söylədi gəlin dərdini.
Xəbərdar etmədi Mərcan ərini.

Turan heç bu qıza qulaq asmadı.
Heç nəyin üstünü özü basmadı.
Nə həkim ? Otur sən olduğun yerdə.
Həkimdən söz demə heç mənə bir də.
Uşağın qaçırdıb bu gün yerinə.
Nə deyim, sənin tək əfəl gəlinə?
Bu saat gətir yu həmin döşəyi.
Təmizlə hər yeri evi, köşəyi.
Mərcan yazıq-yazıq baxdı Turana.
Döşəklik heç halım qalmayıb, ana.
Ağrının əlindən ölürəm özüm.
Məndə qalmayıbdı daha heç dözüm.
Aləmi götürdü Turanın səsi.
Qorxudan tutuldu qızın nəfəsi.
Əlacsız döşəyin yanına çökdü.
Sonra da döşəyin ağzını sökdü.
Yunları çıxardıb tasa doldurdu.
Şlankla üstünə suyu da vurdu.
Yunu ayaqladı, gah çəngələdi.
Üstündən nə qədər sular ələdi.
Setkanın üstünə yığdı o, yunu.
Suyunu süzməyə qoymuşdu bunu.
Turan əl çəkmədi onun yanından.
Qızın azalmırdı ağrı canından.

Deyirdi: təmiz yu, yaxşı çırp yunu.
Sənin öz uşağın batırıb bunu.
Mərcan deyirdi ki, ölürəm, ana.
Qoy qalsın bu yunlar indi bir yana.
Səni and verirəm gözəl Allaha.
Ağrıdan ölürəm qalsın sabaha.
Bilirəm, sən mənə inanmırsan heç.
Fikrindən bu dəfə heç olmasa keç.
Getdikcə pisləşir mənim əhvalım.
Dayana bilmirəm pozulur halım..
Fikir də vermirdi Turan Mərcana.
Boylanıb baxırdı o yan, bu yana.
Çırp qurtar bu yunu , deyirəm sənə.
Ağlına gələni söyləmə mənə.
Nəhayət bu işi qurtardı Mərcan.
Özünü yatağa çatdırdı o an.
Ağrıdan heç nəyi görmürdü gözü.
Çarəsiz yataqda qalmışdı özü...

*****

Günlərin birində yenə də Pəri,
Öyrəndi baş verən bütün işləri.
Bildi ki, nədənsə xəstədir Mərcan.
Həkimə getməyib bu qız heç zaman.
Tələsib tərsinə geydi donunu.
Bilmək istəyirdi bunun sonunu.

Qızına çatdırdı ana özünü.
Mərcanın ağzında qoydu sözünü.
Söylədi: bu saat dur hazırlaş sən.
Hər şeyi öyrənib, bilib gəldim mən.
Mərcan hazırlaşdı, geydi əynini.
Dolaba uzatdı sonda əlini.
Əyildi dolaba yenidən baxsın.
İstəyirdi tana, ya üzük taxsın.
Baxdı ki, bir dənə qızıl qalmayıb.
Axı, bu dolabdan heç nə almayıb.
Vurnuxdu o yana, bir də bu yana.
Kənardan təccüblə baxırdı ana.
Söylədi: baxıram bayaqdan sənə.
Nə olub, düzünü bir söylə mənə?
Baxıram səhərdən bütün hər yana.
Qızıllar yox olub dolabdan, ana.
Kim isə dəsinnən hamsını alıb.
Burda tək eləcə boş qutu qalıb.
Bu işə mat qaldı Pərinin özü.
Zillənib dolabda qalmışdı gözü.
Bir xeyli heç dinib, nə danışmadı.
Həmin bu yoxluqla heç barışmadı.
Ağlıma gəlməyir kimin işidir.
Bu evdə bir arvad, bir də kişindi.

İnana bilmirəm onlar götürər.
Ya da ki, kiməsə burdan ötürər.
Bəlkə də yerini sən səhv salmısan.
Nə vaxtsa qoyduğun yerdən almısan.
Top elə ağlını indi başına.
Dən vermə əvvəldən sən göz yaşına.
Mərcanın üşütmə düşdü canına.
Tələsik Turanın  qaçdı yanına.
Dolaba baxırdım gördüm ki, bir də,
Ay ana, qızıllar yoxdu yerində.
Turan çox acıqla baxdı Mərcana.
Qızılı sən itir, neynəsin ana?
Almışdım onları sənin özünə.
Aparıb soxubsan sən də gözünə.
Yalandan indi də heç şüvən salma.
Fırıldaq işindən geri də qalma.
Yəqin qızılları aparıb Pərviz.
Yalandan ortada qaldıq indi biz.
Onları almışdım mən sevə-sevə.
Qızılı almamış qayıtma evə.
Aləm qarışmışdı orda yenidən.
Mərcan ağlayırdı indi hündürdən.
Pərviz heç gəlməyib, ay ana bizə.
Şər atma yalandan burda Pərvizə.
Turan əsəbləşib çıxdı özündən.

Acığı gəldi lap qızın sözündən.
Nə olsun gəlməyib buraya Pərviz?
İndi də deyirsən, yalançıyıq biz?
Aparıb Pərvizə vermisən özün.
Söylə: bax bir buna nədi ki, sözün?
Sən bu nə oyundu gətdin başına?
Apardın qızılı öz qardaşına.
İynəni almağa yoxuydu pulu.
Bunu kim eyləyər, allahın qulu?
Mərcan ağlayaraq and-aman etdi.
Turan çox rahatca evinə getdi.
Pəri yerindəcə donub qalmışdı.
Turan bu arvadı şoka salmışdı.
Mərcana söyləyib dedi ki, Pəri,
Axtarıb eləmə heç bir yerləri.
Qızılı aparıb Turanın özü.
Yalandır dediyi bütün hər sözü.
Etibar eləmə heç vaxt, heç kimə.
Dur gedək özümüz indi həkimə.
Mərcanı anası saldı yanına.
Gizilti düşmüşdü onun canına.
Çünki o, bir sümük, bir də dəriydi.
Bu işə səbəbkar onun əriydi.
Bu qızın üzündə qan qalmamışdı.

Həyatdan heç zaman kam almamışdı.
Pərini bu qızın dərdi götürdü.
Dərindən ah çəkib, o, köks ötürdü.
Bütün həkimlərdən keçmişdi Mərcan.
Onu bürüyürdü artıq həyəcan.
Fikir eyləyirdi o, gündüz, gecə.
Görəsən çıxacaq cavablar necə?
Cavabı alanda mat qaldı Pəri.
Aləmi tor gördü onun gözləri.
Heç cürə özünə gələ bilmədi.
Təəccübdən yaxşı ki, hələ ölmədi.
Pərinin üzünə baxırdı həkim.
Bu dərdi çəkməsin söylədi heç kim.
Bu sözü mən necə söyləyim sənə?
Nə qədər ağırdır söyləmək mənə.
Verdiyim bu xəbər acıdır, acı.
Artıq gecikibsiz olduqca, bacı.
Heç nəyin Mərcana köməyi yoxdu.
Çünki şaxələnmə olduqca çoxdu.
Xərçəng xəstəsidir sənin Mərcanın.
Onunla bir keçsin dəqiqən, anın.
Bu qızın sayılı günləri qalıb.
Şişləri bədəndə dərin kök salıb.
Dözümlü, mətin ol , ay Pəri bacı.
Heç nəyin qızına yoxdu əlacı.

Pəri yerindəcə donub qalmışdı.
Üzündə göz yaşı cığır salmışdı.
Birdən hönkürərək möhkəm ağladı.
Onun ah naləsi ürək dağladı.
Bir addım ataraq gəldi qabağa.
O, düşdü tələsik tez əl-ayağa.
Yalvarıb həkimdən istədi aman.
Bircə gün görməyib söylədi Mərcan.
Kömək et, ay həkim mənim balama.
Gəl məni sən dağa, daşa dolama.
Şişləri kəs çıxart onun canından.
Təmizlə xərcəngi qızın qanından.
Ölüyə can verən bir həkimsən sən.
Hamıdan çox sənə inanıram mən.
Yerlərə baxaraq söylədi həkim.
Xərçəngi sağalda bilməyir heç kim.
Haraya getsən də bircə onu bil,
Qurtaran deyil ki, həmin bu zibil.
Ay həkim, bax budur sənə son sözüm.
İrana aparram mən onu özüm.
İranda işləyir gözəl həkimlər.
Onlara çatmayır vallah, heç kimlər.
Həkimin olmuşdu özü kor-peşman.
Əlacsız dayanıb baxırdı bu an.

Xəstənin önündə aciz qalmışdı.
Həkimi ümüdsüz hala salmışdı.
Bilirsən xərçəngin yoxdur əlacı.
Xərc çəkib heç yerə getmə , ay bacı.
Olsaydı əlimdə mənim əlacım,
Mərcanın dərmanı olardım, bacım.
Getməyə vardırsa sənin imkanın,
Apar rahatlansın ömürlük canın.
Özünə təsəlli verərsən yenə.
Yolun açıq olsun deyirəm sənə.
Pəri tez-tələsik sildi üzünü.
Bəs necə söyləsin işin düznü?
Bir azca su vurdu tez üz-gözünə.
O, gələ bilmirdi heç cür özünə.
Nəhayət gəldi o, qızın yanına.
Təlatüm düşmüşdü yaman canına.
Duruxub baxırdı əlacsız ana.
Bilmirdi nə desin indi Mərcana?
Nəhayət dillənib söylədi ana.
Ay qızım, gedirik sabah İrana.
Biz orda əvvəlcə alver edərik.
Sonra da həkimə çıxıb gedərik.
Ucuzluq baş alıb gedir İranda.
Sədası yayılıb bütün hər yanda.
Şükürlər olsun ki, bala Allaha.

Ciddi bir şey yoxdur səndə bil daha.
Tədavi etməyə var ehtiyacın.
Onunla kecəcək bu ağrı, acın.
Pəri yox olmuşdu bu yer üzündən.
Kədər tökülürdü sanki gözündən.
İçi yandırırdı onun özünü.
Gecələr yummurdu bir an gözünü.
Yalvarıb deyirdi gözəl, Allahım!
Özümü yandırır çəkdiyim ahım.
Mərcana gələnlər qoy gəlsin mənə.
Mən pənah gətirdim tək bircə sənə.
O, deyə bilmirdi heç nə Mərcana.
İçində qalmışdı lap yana-yana.
Allahın fağırı olan bu Mərcan.
Bir kəlmə nə dinib danışdı inan.
Nəhayət Mərcanla bu qəmli ana.
Günlərin birində gəldi İrana.
Söyləyə bilmirdi bunu heç kimə.
Nəhayət getdilər orda həkimə.
Bütün həkimlərdən keçdi bu Mərcan.
Həmin sonucları aldı həmən an.
Pərinin ümüdü puça dönmüşdü.
Gözündə bu həyat sanki sönmüşdü.
Ümüdü ox olub dəymişdi daşa.

O, yerə çökmüşdü orda bir başa.
Elə bil arvadın qırıldı beli.
Lal oldu, bir anda tutuldu dili.
Dayanıb Pəriyə baxırdı Mərcan.
Anlaya bilmirdi nə olub bu an.
Soruşdu, ay ana, nə oldu sənə?
Doğruyu de, danış bu saat mənə.
Qorxma sən , ay bala, heç nəyin yoxdu.
Özümün canımda problemim çoxdu.
Səninlə bərabər mən də yoxlanım.
Onsuz da ağrıyır mənim də canım.
Dərmanı almaqdır bizim işimiz.
Sonra da gedərik burdan ikimiz.
Catan tək eyləyək iynə, dərnanı.
Ağrıdan dağılır adamın canı.
İndi mən doğrunu söyləyim sənə.
Ciddi bir şey yoxdu dedilər mənə.
Evinə gətirdi Pəri Mərcanı.
Onunla keçirtdi bütün hər anı.
Getdikcə yanırdı Mərcanın canı.
Artıq qaralırdı ananın qanı...

*****

Günlər bir -birini qovub gedirdi.
Pəri heyy Mərcanın fikrin edirdi.
Yataq xəstəsinə çevrildi Mərcan.

Halı pisləşirdi onun anbaan.
Altı ay keçmişdi artıq aradan.
Heç xəbər yoxuydu əri Elxandan.
Turan da almırdı ondan heç xəbər.
Gəzirdi özüyçün xoşbəxt, bəxtəfər.
Qızlar da gəlmirdi onun yanına.
Mərcanın pisikmək çökdü canına.
Bu qızın yollarda qaldı gözləri.
Hədsiz pis olurdu buna da Pəri.
Arada Turana ismarınc etdi.
Sonra da xəlvətcə onlara getdi.
Söylədi: ay Turan, insafın olsun.
Bur az da qəlbinə mərhəmət dolsun.
Ölüm döşəyində yatır Mərcanım.
Onunla bərabər məhv oldu canım.
Gətir qoy görüşsün öz uşağınnan.
Əcəl tək yapışdın düz boğazından.
Xərçəngə dönərək çökdün canına.
Zəhər tək dolanıb girdin qanına.
Öləndə it kimi verəcəksən can.
Axı nə eylədi sənə bu Mərcan?
Bilməsin xahişə gəlmişəm özüm.
Qalmayıb qızımda nə taqət, dözüm.
Heç zaman xoş getməz bu da allaha.

Gətir qoy uşağı o, görsün daha.
Elə ki, gün keçdi, açıldı səhər.
Qızlarla gəlmişdi Turan bir təhər.
Səssizcə dayanıb, durub baxırdı.
Mərcanın gözündən yaşlar axırdı.
Qızları bağrına basmışdı Mərcan.
Ayrıla bilmirdi onlardan bir an.
Arası kəsmədən sığallaylrdı.
Hönkürə-hönkürə o, ağlayırdı.
Qızlar sarılmışdı onun boynuna.
Onlar da düşmüşdü nənə oynuna.
Duz kimi yaladı onlar Mərcanı.
Daha da yanırdı Mərcanın canı.
Xəstə də olsaydı öz anaları,
Doymaq bilməyirdi bu balaları.
Turanın bir damcı gəlmirdi səsi.
Sanki tıxanmışdı onun nəfəsi.
Kənardan dayanıb ancaq baxırdı.
Pərinin gözündən leysan axırdı.
O, baxa bilmirdi bu mənzərəyə.
Elə bil düşmüşdü dərin dərəyə.
Sanki çabalayıb orda qalmışdı.
Üzündə qırışlar şırım salmışdı.
Elə bil vurdular tam kürəyindən.
Ağrılar qalxmışdı düz ürəyindən.

Güç ilə alırdı Pəri nəfəsi.
Artıq görməyirdi sanki heç kəsi.
Əsəbdən görmürdü artıq gözləri.
Tıxandı ağzında bütün sözləri.
Güc ilə topladı ana özünü.
Sonra da dillənib dedi sözünü.
İnşallah , ay Mərcan tez sağalarsan.
Onları qoynuna yenə alarsan.
Mərcan gülümsəyib dedi, ay ana,
Dünya bir yanadı, qızlar bir yana.
Həmişə deyirəm mən dönə-dönə,
Sağalıb evimə gedəcəm yenə.
Qızlardan ayrı mən qala bilmərəm.
Onların xətrinə heç vaxt ölmərəm...

*****

Günlər bir-birindən ağır olurdu.
Mərcan çiçək kimi hər gün solurdu.
Ağrılar getdikcə artırdı yaman.
Özünə o, gələ bilmirdi inan.
Elə ki, açırdı Mərcan gözünü,
Pəriyə deyirdi o an sözünü.
Deyirdi : ay ana, ürəyim əsir.
Evimə getməyə yaman tələsir.
Mən nə vaxt gedəcəm evimə, ana?

Həsrətdən az qala ürəyim yana.
Mənə çox əzizdir odum -ocağım.
Nə qədər gözəldir küncüm-bucağım.
Torpağın qoxusu gəlir burnuma.
Bu qoxu çıxacaq mənim sonuma.
Bir ovuc torpaq ver öz həyərimdən.
Doyunca qoxlayim o torpağı mən.
Bir xahiş eyləyim, ay ana sənə.
Elxana bir xəbər göndər sən yenə.
Nə olar, son dəfə gəlsin yanıma.
Ümüdüm gəlməyir daha canıma.
Sözüm var, ay ana Elxana mənim.
Xəstəlik kəsilib deyəsən qənim.
Mərcanı bağrına tez basdı Pəri.
Yaş ilə dolmuşdu onun gözləri.
Ay qızım, min dəfə deyirəm sənə.
Qoy sənə gələnlər gəlsinlər mənə.
Xəstəlik yaranıb adamlar üçün.
Bu cürə danışmaq bəs axı neyçün?
Hamı xəstələnir, ay mənim balam.
Bütün ağrıları kaş səndən alam.
Nəhayət yenə də Pərinin özü,
Tutdu öz qızına verdiyi sözü.
Üzündə varıydı onun qəm, kədər.
Yaradan yazmışdı belə bir qədər.

Turanın evinə üz tutdu Pəri.
Elxanı axtardı orda gözləri.
Onun qarşısına çıxmışdı Turan.
Sözünə başladı Pəri həmən an.
Son dəfə gəlmişəm bu qapıya mən.
Sonuncu arzuya əməl eylə sən.
Onsuzda etdiyin şeyləri etdin.
Sonuncu pisliyə qədər də getdin.
Sən məni yandırdın lap diri-diri.
Qazacam həyətdə bir ovuc yeri.
O, torpaq istəyib bir ovuc məndən .
Gəlmişəm torpağı alam mən səndən.
Torpaq qəhət deyil mənim başıma.
Gör nələr çıxartdı Allah qarşıma.
Həyətim doludu torpaqla, daşla.
O, burdan istəyir ağılla, başla.
Torpaqdan alacaq evin ətrini.
Elxanın istəyir yenə xətrini.
Bir ildir gəlməyir onun yanına.
Azarı o, saldı onun canına.
İsmarıc eyləyib Elxana özü.
Bilmirəm, nə isə ona var sözü.
Nə qədər dağ çəkdin sən o, Mərcana.
Evindən çıxmadı bir addım yana.

Uşağın dərdindən burda qul oldu.
Ərlikən gəlin yox, ancaq dul oldu.
Deyirəm mən sənə sözün düzünü.
Son dəfə qoy gəlsin görsün üzünü.
Cibindən bir bıçaq çıxartdı Pəri.
Qazıdı bıçaqla bir ovuc yeri.
Torpaqdan götürüb bükdü kağıza.
Çatdırdı torpağı istəyən qıza.
Çatantək kağızı tez açdı Mərcan.
Doyunca qoxladı elə həmin an.
Sonra da üzünü tutdu Pəriyə,
O, sanki boylandı bir az geryiyə.
Çox sağ ol, ay ana qalmadı arzum.
Yadıgar qalacaq düz iki qızım.
Məndən əmanətdi qızlarım sənə.
Çəkdiyin zəhməti halal et mənə.
Həmişə üstündə qoy olsun gözün.
Kənardan nəzarət edərsən özün.
Turan heç onları vermədi mənə.
Bilirəm verməzlər heç zaman sənə.
Evin qapısını açdılar birdən.
Elxanla Turan da gəldi qəfildən.
Onlar salamlaşıb keçdi içəri.
Nəzərdən keçirdi bütün yerləri.
Mərcanın üzündə sevinc varıydı.

Ürəyi əsirdi, yeri darıydı.
And -aman eyləyib dedi ki, Mərcan .
İtən qızılları görmədim inan.
Çağırdım, ay Elxan yanıma səni.
Dedim ki, günahkar görmə sən məni.
Oturub öz anan sənin yanında.
Bu nisgil qalmasın mənim canımda.
Deyirəm mən sənə sözün düzünü.
İndi gör ananın gerçək üzünü.
Mənim qızıllardan yoxdu xəbərim.
Yalan yox doğrudur mənim sözlərim.
Təklikdə sözüm var , ay Elxan sənə.
Nə deyir desinlər fərq etmir mənə.
Sakitcə dayanıb baxırdı hamı.
Yandırdı bu hallar bütün adamı.
Bəlkə bir sözü var ölüm qabağı.
Hamı tərk eylədi o an otağı.
Tək Turan çıxmadı bircə otaqdan.
Kədərlə baxırdı Mərcan yataqdan.
Qoymadı ərinə desin sözünü.
O, haqlı bilirdi sanki özünü.
Elxanla bərabər orda oturdu.
Oğlu duran kimi, Turan da durdu.
Sanki qara tikan koluydu arvad.

Yenə də işləri eylədi bərbad.
İmkan vermədi ki, deyə sözünü.
Çəkmədi onlardan bir an gözünü.
Elxanın çıxmadı bircə an səsi.
Tıxanıb qalmışdı sanki nəfəsi.
Dillənib demədi bir kəlmə, ana.
Ortadan çəkil sən bir az o yana.
Sındırma Mərcanın indi özünü.
Nə deyir, qoy desin bu qız sözünü.
Lal -dinməz çıxdılar onlar otaqdan.
Kədərlə baxırdı Mərcan yataqdan...

*****

Fikirli, fikirli gəzirdi Pəri.
Mərcana sataşdı onun gözləri.
Gördü ki, gəlməyir qızının səsi.
Qorxudan kəsildi sanki nəfəsi.
Uzaqdan səsləndi, onu cağırdı.
Gördü tərpənməyir, qorxub bağırdı.
Özünü Mərcanın üstünə atdı.
Qışqırıb, ağlayıb aləmi qatdı.
Barına basmışdı ana Mərcanı.
Çoxdan yox olmuşdu qızının canı.
Mərcan səs vermirdi onun səsinə.
Başını qoymuşdu düz sinəsinə.
Pəri sığalladı onun telini.

Əlinə aldı o, qızın əlini.
Gördü ki, əlinə nəisə alıb.
O, ölən məqamda ovcunda qalıb.
Gördü ki, torpaqdı əlində qalan.
Qışqırıb ağladı, oy ölsün anan!
Nə xeyir gördün sən həmin məkanda?
Torpaqdan yapışdın öldüyün anda.
Ordan sənə qalan bu torpaq oldu.
Bütün xoş günlərin torpağa doldu.
Evinin iyini torpaqdan aldın.
Öləndə ovcunda torpaqla qaldın.
Yandırdı, yandırdı ölümün məni.
Heç cürə yaşada bilmədim səni.
Mərcanın ölümü kəndə yayıldı.
Pəri ağlamaqdan artıq bayıldı.
Bütün kənd dəfində iştirak etdi.
Nəhayət gələnlər evinə getdi.
Kəndin qınağından qorxmuşdu Turan.
Elxanla gəlmədi dəfnə həmən an.
Bütün kənd onları çox qınayırdı.
Mərcanı tanıyan hey ağlayırdı.
Pərinin bu yasa qarışdı başı.
Qurumaq bilmirdi gözündə yaşı.

****

Mərcanın heç qırxı gəlməmiş başa,
Söz-söhbət yayıldı qohum, qardaşa.
Günlərin birində bir axşam çağı.
Adamla dolubdu evin qabağı.
Turan süfrə açıb biş-düş edirmiş.
Adamlar onlara gəlib gedirmiş.
Kefsiz oturubmuş həyətdə Humay.
Onunla birlikdə ordaymış Günay.
Böyük yük maşını gəlib dayanıb.
Görənlər maşına tərəf boylanıb.
Elə həmin zaman baxıblar birdən,
Elxanın maşını gəlib qəfildən.
Qızlar tez qaçıblar onun yanına.
Görəndə od düşüb qızın canına.
Maşının önündə görüb qadını.
Elxandan soruşub onun adını.
Bu kimdir, ay ata gəlibdir bizə?
Nədən gətiribsən düz evimizə?
Kimdir qucağında oturan oğlan?
Nədən gətiribsən buraya bu an?
Bu nə qab-qacaqdı, nə mebellərdi?
Sevincək görmədim səni illərdi.
Heç anam minmədi bax bu maşına.
Arvadla oğlanı yığdın başına.

Sən verdin anama illərlə əzab.
Gətirə bilmədi bu işlərə tab.
Artıq yox olubdu anam həyatda.
Ancaq xatirələr qalacaq yadda.
Anama gün verib, işıq vermədin.
Onunla danışıb, nə də gülmədin.
Deməli kənarda evlənibsən sən.
Səni bağışlaya bilmərəm heç mən.
Qaytar bu qadını görməsin gözüm.
Yoxsa mən sürüyüb qovaram özüm.
Sözümün heç biri deyil bayağı.
Bu evə dəyəmməz qadın ayağı.
Anamı istəyir ürəyim mənim.
Həmişə axtarır onu gözlərim.
Görmək istəmirəm burda qadını.
Sən çəkə bilməzsən onun adını.
Humayın gözündən leysan axırdı.
Elxanın üzünə dim-dik baxırdı.
Aləmi uçurub dağıtdı Humay.
Boynunu bükərək baxırdı Günay.
Elxan yerindəcə donub qalmışdı.
Qızından çox böyük təpki almışdı.
Aləmlə biriydi Humayın səsi.
Az qaldı tıxansın onun nəfəsi.

Bir kəlmə söylədı: bala, ağlama.
Mənim ürəyimi sən də dağlama.
İstəyirsən inan, ya inanma sən.
Bunları heç dəqiq tanımıram mən.
İndi bir qulaq as, dediyim sözə.
Kirayə qalmağa gəliblər bizə.
Humay dinləmədi onun sözünü.
Söylədi : öldürrəm indi özümü.
Demişəm sözümün hamsını bayaq.
Bir qadın basammaz buraya ayaq.
Bu saat rədd olsun bizim həyətdən.
Bu evdə qalmağın istəmirəm mən.
Nə Elxan dilləndi, nə də ki, Turan.
Onları həyətdən çıxartdı Elxan.
Həmin bu söhbəti eşitdi Pəri.
Yaş ilə yenidən doldu gözləri.
Deməli kənarda evlənib Elxan.
İllərdi beləcə keçibdi dövran.
Pəri eşitdi ki, oğulla ana,
Bir cümə veribdi evdə Mərcana.
Atası ucaltdı ona baş daşı.
Qurumaq bilmirdi gözünün yaşı.
Daşı da özü tək gözəl olmuşdu.
Ətrafı çiçəklə, güllə dolmuşdu.
Hər gündə evindən çıxırdı kişi.

Məzarlığa getmək olurdu işi.
Silirdi o, daşı təmizləyirdi.
Yenə də Mərcanı əzizləyirdi.

*****

Aradan keçmişdi bir xeyli zaman.
Qarşılaşdı bir gün Pəriylə Turan.
Onların çəpləşdi yolda sözləri.
Az qaldı dalaşsın indi özləri.
Turana söyləyib dedi ki, Pəri,
Zülümlə ötürdük keçən illəri.
Düzünü söylə sən mənə bu andan.
Kimin qisasını aldın Mərcandan?
Nə idi günahsız qızın günahı?
Tutacaqdır səni Mərcanın ahı.
Bir qədər duruxdu, dilləndi Turan.
Bacımın öcünü aldım o, qızdan.
Varıydı çox gözəl böyük bir bacım.
Onun ölməsiylə başladı acım.
Qaynatan bacımla nişanlanlanmışdı.
Onlar bir-birinə çox inanmışdı.
Nəhayət yetişdi toyun zamanı.
Yadımdan çıxmayır toyun o anı.
Toydan bir gün qabaq xına yaxdılar.
Aralıq qarışdı, bir də baxdılar,

Gördülər toy olan həmin o, oğlan,
Sənin qaynananla qaçıbdı o an.
Mərcanın nənəsi oğlanı aldı.
Bacımın əlləri xınalı qaldı.
Onda da bacımın yatdı ürəyi.
Heç nəyin olmadı ona köməyi.
Həmin o nigahdan doğuldu Sübhan.
Çox xoşbəxt oldular onlar həmən an.
Bacımın ahı da onları tutdu.
Əzrayıl onları birlikdə uddu.
O zaman ortada qalmışdı Sübhan.
Heç cürə olmadı ona bir baxan.
Anamın dözmədi yenə ürəyi.
Düşmənin oğlunun oldu gərəyi.
Sübhanı böyütdü toy etdi ona.
Mən də o qisası yetirdim sona.
Bir evdə böyüdüm bu Sübhanla mən.
Bacı yox, mən oldum mehriban düşmən.
Nə qədər kiçikdim mən o bacımdan.
Qurtara bilmirdim həmin acımdan.
Topladım illərnən yığdım gücümü.
Nəhayət sizlərdən aldım öcümü.
Pəri yerindəcə donub qalmışdı.
Verdiyi suala cavab almışdı.
Heç nədən yoxuydu onun xəbəri.

Bu işin kökünü bilmirdi əri.
Həmişə Turanı bilirdi bacı.
Turan tək indi də o yedi acı.
Uzağa apardı fikir Pərini.
Kədərlə silirdi o, gözlərini.
Gör nəyin qurbanı olmuşdu Mərcan?
O, kimə şikayət eyləsin bu an?
Bu həyat Pəriyə tələ qurmuşdu.
Pərini gör harda, necə vurmuşdu.
Fikirdən ayrılıb gəldi özünə.
Heç Turan dəymədi burda gözünə.
Çoxdan tərk etmişdi o, bu məkanı.
Əzabdan yanırdı Pərinin canı.
Boylandı o yana, bir də bu yana.
Çarəsiz qalmışdı bu yazıq ana.
Qışqırıb ucadan çəkdi bir nərə.
Kəsilmiş ağac tək yıxıldı yerə...

*****

Pərinin Mərcana qarışdı başı.
Qurumaq bilmirdi gözünün yaşı.
Pərvizdən olmurdu çox vaxt xəbəri.
Pərvizin varıydı şəxsi işləri.
Varıydı bədəndə çox ağrı, acı.
Pula da olurdu lap ehtiyacı.

Hər gündə özünə iynə vururdu.
Sonra da elə bil çox qudururdu.
Başlayıb evində salırdı dava.
Sanki çatmayırdı Pəvizə hava.
Saranı görən tək o, dalaşırdı.
Əsəbi başından aşıb- daşırdı.
Artıq üç uşağı gəldi cahana.
Uşaq nə yaraşır bu narkamana?
Dünyadan yoxuydu onun xəbəri.
Özüçün hərlənir bütün yerləri.
O, heç bilməyir ki, onlar nə yeyir?
Nə haqda danışır, kimə nə deyir?
Bütün ehtiyacı ödəyir Pəri.
Pərvizin üzündə qalır gözləri.
Bir yandan yazığı gəlir gəlinə.
Həmişə pul, para verir əlinə.
Özünü günahkar bilirdi ana.
Hamı bir yanaydı, Pərviz bir yana.
İndi sən Allahın bir bax işinə.
Pərviz hər bir şeyi vurub dişinə.
Hamıya canını verən bir oğlan,
Dəyişib olubdu davakar insan.
Hər şeyi etmişdi iynəyə qurban.
Dörd divar qalmışdı evində inan.
Evdə hər bir şeyi xəlvət satmışdı.

Yarı qiymətinə çölə atmışdı.
Nə masa var idi yemək yeməyə,
Nə qiymət qoymurdu heç bir əməyə.
Çarpayı yoxuydu evdə yatmağa.
Xalça qalmamışdı yerə atmağa.
Quru döşəmədə yatırdı hamı.
Dəli eyləyirdi bu da adamı.
Evdə nə vardısa satırdı Pərviz.
Qalmadı evində bir dənə serviz.
Bir gecə onlara getmişdi Pəri.
Evin bu halını görəndən bəri,
Çıxmışdı kəlləyə onun gözləri.
Çünki o, boş gördü bütün yerləri.
Baxdı ki, bürünüb uşaq yorğana,
Fırlanır yerində o yan, bu yana.
Quru döşəmədə yatırlar yerdə.
Durub o, oğluna boylandı bir də.
İstədi nələrsə desin Pərvizə.
Söyləsin bu nədir, yaşatdın bizə?
Pərvizə baxanda yerində qaldı.
Bütün o sözləri içinə saldı.
Heç nəyin fərqində deyildi Pərviz
Pərinin saçları dururdu biz-biz.
Ay Allah, bu nədi gəldi başıma.

İndi nə deyəcəm qonu-qonşuma
Başım çox qarışdı mənim Mərcana.
Nə deyim mən indi belə oğlana?
Allahım, dağ çəkdin düz ürəyimə.
Heç bir şey gəlmədi heç köməyimə.
Mərcanı əlimdən aldın apardın.
Sanki ürəyimi dibdən qopardın.
İndi də bu günə saldın Pərvizi.
Sən tamam dağıtdın ailəmizi.
Göz verib, heç işıq vermədin mənə.
Nə deyim, nə deyim, allahım sənə?
Nə günlə böyütdüm qızı, oğlanı.
Mərcan tək Pərvizin məhv olur canı.
Övlad yox, sən mənə dərd veribsən, dərd.
Mən oğul böyütdüm ağıllı və mərt.
İndi gör Pərvizin düşdüyü halı.
Görən nə olacaq işlərin dalı?
Yoxdur heç xəbəri bu ev, eşikdən.
Ləzzət də almayır gözəl beşikdən.
Günlərin birində mən ölsəm əgər.
Bütün bu zərbələr uşağa dəyər.
Canı uşaqların yanında qaldı.
Sonra gedib borca çarpayı aldı.
Getdikcə davanın artırdı sayı.
Zəhərə dönmüşdü hamının payı.

İş gəlib o yerə çatmışdı artıq,
Bir şey qalmamışdı bu evdə satlıq.
Günlərin birində gördülər birdən,
Maşın da yox oldu evdə qəfildən.
İynəni almağa olmayıb pulu,
Verdi maşını da allahın qulu.
O, su qiymətinə maşını satdı.
Elə bil maşını çöləcə atdı.
Bir hissə pulunu əvvəl almışdı.
Alıcı Pərvizə borclu qalmışdı.
Sonra da vermədi qalan hissəni.
Söylədi: narahat eyləmə məni.
Mən pulun hamsını vermişəm sənə.
Səndən zəng gəlməsin bir daha mənə.
Polisə verərəm o saat səni.
Deyərəm vermişəm, şərləyir məni.
Onsuz da heç kimsə sənə inanmaz.
Axı narkamandan heç adam olmaz.
Son zaman düşəndə çətinə, dara,
Köməyə gələrdi Pəri ya Sara.
Artıq keçməyirdi Sübhanın sözü.
Bunu anlayırdı Pərvizin özü.

*****

Bu dəfə söylənib dedi ki, Pəri,
Zibilə döndərib Pərviz işləri.
Nə qədər hamıyla eyləyim dava.
Zəhərə dönübdü aldığım hava.
Onsuz da o pulun nə xeyri bizə?
Hamısı gedəcək yenə Pərvizə.
Cəhənnəm olsun qoy onun maşını.
Bəlaya salmasın bir də başını.
Bezmişəm mən bunun vallah, əlindən.
Qurtara bilmirəm qızın dilindən.
Həmişə olmuşam gözü kölgəli.
Pərvizin əlindən oldum ölməli.
Günlərin birində yenə də Pəri.
Gəlib dolanırdı bütün yerləri.
İçəri girəndə mat qaldı özü.
Sanki kor olmuşdu görmürdü gözü.
Baxdı ki, çarpayı yenə yox olub.
Qəm , kədər bu evə bir daha dolub.
Döşəmə üstündə yatırlar yenə.
Pərviz çarpayını çıxardıb tinə.
Gizlicə gecəynən onu satıbdı.
İynəsini vurub , indi yatıbdı.
Heç nədən yoxdu ki, onun xəbəri.
Pulunu verməyib hələ heç Pəri..

****

Dərin fikirlərə qərq oldu qadın.
Artıq unutmuşdu özünün adın.
O, qoya bilmirdi yoluna işi.
Bir yandan evdə də xəstəydi kişi.
Yararsız bir hala gəlmişdi Sübhan.
Güc ilə gəzirdi həyətdə hər an.
Uşağa nəzarət güclə edirdi.
Ancaq əsa ilə gəlib, gedirdi.
İynəyə pul lazım olduğu zaman,
Oğurluq etməzdi Pərviz kənardan.
Nə olsa evindən alıb-satırdı.
Suyu qiymətinə çölə atırdı.
Artıq çox çətinlik çəkirdi Pərviz.
Bir az belə getsə qalardı evsiz.
Daha işləmirdi Pərvizin başı.
Bunu hiss edirdi onun yoldaşı.
Sanki boğazına yığıldı canı.
Nə qədər qaralar adamın qanı?
Fikir aparırdı gəlini hər an.
Görürdü qalmayıb Pərvizdə vicdan.
Hər gündə davalar davam edirdi.
Yenə də haraya Pəri gedirdi.
Bir axşam yenə də qopmuşdu dava.

Zəhərə dönmüşdü bu evdə hava.
Özünü buraya yetirdi Pəri.
Gördü dağılıbdı bütün yerləri.
Hər yerə gedirdi Pərvizin səsi.
Vecinə almırdı burda heç kəsi.
Deyirdi: rədd olun bu saat evdən.
Satacam evimi bir gün qəfildən.
Bilirsən, var pula çox ehtiyacım.
Qalmayıb heç cürə mənim əlacım.
Nəhayət dillənib, söylədi Pəri,
Neynəyir, bu yazıq sənin tək əri?
Evi sat yeginən evin pulunu.
Çöləmi ataq bu allah qulunu?
İlk öncə boşansın qoy Sara səndən.
Satlığa qoyarıq evi yenidən.
Bir qədər üstündən pul verər sənə,
Bu gəlin özünə ev alar yenə.
Nə qədər dərindir açdığın yara.
Bir gəlin, üc uşaq bəs getsin hara?

******

Elə ki, gün kecdi, açıldı səhər.
Yuxudan oyandı Pəri bir təhər.
Boynundan elə bil asılmışdı daş.
Getdi məhkəməyə gəlinlə bir baş.
Onlar boşanmaya verdi ərizə.

Dedilər vəkilə yardım et bizə.
Sonunda məhkəmə verdi bir qərar.
Qanuni olaraq lap ayrıldılar.
Günlərin birində bu ev satıldı.
Aləm yenə orda tamam qatıldı.
Sara qardaşları olan məhlədən,
Təzə bir ev aldı artıq yenidən.
Uşaqlarla Sara köçüb getdilər.
Bir yolluq Pərvizi tam tərk etdilər.
Pəri çox düşündü indi nə etsin?
Bu Pərviz bax indi haraya getsin?
Deyirdi mən onu evə almaram.
Heç zaman onunla birgə qalmaram.
Zülümlə düzəltdim bu ev -eşiyi.
Sonunda iflic də vurdu kişiyi.
İndi də buranı qırıb, talasın.
İllərlə işlə ki, bir qab alasan.
Bir aya hər şeyi yox eləyəcək.
O, gördüm sözünü heç deməyəcək.
Məhlənin sonunda bir ev tikdilər.
Nə qədər ağacı yıxıb, sökdülər.
Bu evin varıydı hər şəraiti.
Heç nəyə ehtiyac yoxuydu qəti.
Pərviz ustalara kömək edirdi.
Hər bir iş sürətlə, gözəl gedirdi.
Evin tikintisi yetişdi başa.
Pərvizə dedilər köç burda yaşa.

Orda yaşamağa başladı oğlan.
Gəlirdi yanına hər gün narkaman.
Onlar özlərinə növbə qururdu.
Hamısı yığılıb iynə vururdu.
Onların xətrinə dəymirdi polis.
Deyirdi kef edir özüyçün xalis.
Onlardan pul alıb çıxıb gedirdi.
Bu işlər beləcə davam edirdi.

******

Günlərin birində eşitdi Pəri.
Kənd ilə bir olan belə xəbəri.
Dedilər Turangil kəndi tərk edib.
Kirayə ev tutub, şəhərə gedib.
Kəndin tənəsinə dözməyib Turan.
Çoxdan tərk eyləyib çıxıbdı ordan.
Heç kimsə onlara salam vermirdi.
Hal-əhval eyləyib bir söz demirdi.
Elxanın üzünə baxan yoxuydu.
Tənəli söz deyən yaman çoxuydu.
Tələbə adını qızlar almışdı.
Pərinin yanına bir yol salmışdı.
Onlara cer-cehiz alırdı Pəri.
Qızları gəzirdi hər an gözləri.
Onların eşqiylə o, yaşayırdı.
Hər şeyi onlara tez daşıyırdı.
Bilirdi Pərvizin yoxdu axırı.
Çünki bu qazanın çıxıb paxırı.

Birdən alışırdı, yanırdı Pəri.
Toz, duman görürdü bütün yerləri.
Deyirdi: Allahım, nə etdim sənə?
Göstərdin dünyanın zülmünü mənə.
Zülümlə böyütdüm qızı, oğlanı.
Salamat olmadı onların canı.
Yerində qalıbdı düz iki oğlan.
Yaxşı ki, onlara veribsən sağ can.
Mərcanla, Pərvizdən yarımadım mən.
Bu iki oğlumu xoşbəxt eylə sən.
Dözməyir bunlara ana ürəyi.
Çatlayır, dağılır onun kürəyi.
Ananın ürəyi yumruğa bənzər.
Bütün dərd-azarlar ürəyi əzər.
Evlada ən sadiq anadır, ana.
Dünya bir yanadır övlad bir yana.
Övladı yolunda ana qoyar baş.
İstəməz onlara dəysin xırda daş.
Ana bağışlayan, əhv eləyəndir.
Səadət, xoşbəxtlik heyy diləyəndir.
Övladla ağlayan, övladla gülən,
Onlarla dirilən, onlarla ölən,
Həmin o, insanlar anadır, ana!
Dünya bir yanadır, onlar bir yana.

# *OĞRU QADIN!*



Getdikcə artırdı küləyin səsi.
Qorxuya salırdı bu səs hər kəsi.
Uğultu yayıldı bütün hər yana.
Nigaran olurdu getdikcə ana.
Heç nədən yoxuydu ancaq xəbəri.
Xəyalı gəzirdi bütün yerləri.
Nədən darıxırdı bilmirdi özü.
Bir yerə dikilib qalırdı gözü.
Tamam buz olmuşdu əli, ayağı.
Soyuqluq basırdı sanki otağı.
Bir yerdə tutmurdu ana bir qərar.
Deyirdi elə bil bir bəd xəbər var.
Birdən də istilik basırdı onu.
Çıxardıb əynindən atdırdı donu.
Elə bil evləri ona oldu dar.
Deyirdi görəsən nə olub, nə var?
Darıxıb arada yola çıxırdı.
Sanki bir məngənə onu sıxırdı.
Boylanıb baxırdı o yan, bu yana.
Bilmirdi nə etsin indi bu ana?
Bir az o, vurnuxdu, keçdi otağa.

Narahat olmuşdu, girdi yatağa.
Otaqda sakitlik höküm edirdi.
Ananın gözünə yuxu gedirdi.
Birdən bir çatıltı səsləri gəldi.
Qadının qəlbini sanki səs dəldi.
Sıçrayıb yataqdan qalxdı ayağa.
Özünü tez atdı böyük otağa.
Mat qaldı gördüyü bu mənzərəyə.
Hər bir şey dağılıb düzə, dərəyə.
Servantda salamat qab qalmamışdı.
Heç zaman müfdə o, qab almamışdı.
Hamsında varıydı bolca əməyi.
Hər biri olmuşdu onun gərəyi.
Bu qablar olmuşdu yer ilə yeksan.
Görəndə dəhşətə gəlirdi insan.
Seyran tez boylandı o yan, bu yana.
Təlatüm gəlmişdi qəfil bu cana.
Anlaya bilmədi olub keçəni.
Düşündü qaramı basıbdı məni?
Quruyub yerində qalmışdı arvad.
Hər tərəf dağılıb olmuşdu bərbad.
Servanta boylandı qadın bu zaman.
Gördü ki, taxtalar qırılıb yaman.
Qabın ağırlığı qırmışdı onu.
Bununla qabların gəlmişdi sonu.

Əvvəlcə bilmədi neynəsin özü.
Bərələ qalmışdı təccübdən gözü.
Bir xeyli donaraq yerində qaldı.
Nəhayət özünü o, ələ aldı.
Gördü ki, onsuz da olan olubdu.
Hər tərəf qırılmış qabla dolubdu.
Zibil kisəsini əlinə aldı.
Qırılmış qabları kisəyə saldı.
Bütün qırıntını o, yığdı bir -bir.
Allahdan gəlmişdi ona bir səbir.
Düşündü, heç nəyə heyfi gəlmədi.
Ay Allah, yaxşı ki, adam ölmədi.
Bu dünya malları burda qalacaq.
Heç kimsə yenidən doğulmayacaq.
Dərd-azar qoy gəlsin qaba-qaşığa.
Zülmətlik bələnsin hər an işığa.

*****

Elə ki, gün çıxdı açıldı səhər.
Yuxudan oyandı Seyran bir təhər.
Boylandı o yana, bir də bu yana.
İstədi yuxudan artıq oyana.
Gördü ki, sıxılır yenə ürəyi.
Doğranır xəncərlə sanki kürəyi.
Könülsüz olaraq qalxdı yataqdan.

Yır-yığış eyləyib çıxdı otaqdan.
Mətbəxdə özünə bir süfrə açdı.
Nədənsə iştahı elə bil qaçdı.
Tək bircə istəkan çaycığaz içdi.
Dolabdan əyninə bir paltar seçdi.
Tez bir əl gəzdirdi o, üz- gözünə.
Boylanıb güzgüdə baxdı özünə.
Saçını darayıb yığdı başına.
Çox kefsiz baxırdı o, göz-qaşına.
Həyətə boylanıb gördü ki, bu an.
Qapıda gözləyir sürücü oğlan.
Duruxub boylandı o, sağa, sola.
Hər yeri bağlayıb düzəldi yola.
Qapını tez açdı sürücü Sərdar.
Söylədi: ay həkim, vaxta çox az var.
Səhərdən məni də eyləyiblər dəng.
Həkimlər dalbadal vururdular zəng.
Nədənsə zəng çatmır , ay həkim sənə.
Onlar da onunçün zəng edib mənə.
Dedilər çox ağır bir xəstəmiz var.
Həkim tez çatmasa xəstə məhv olar.
Bilinmir nəçidir, ya da ki, kimdir?
Dərdinin əlacı bircə həkimdir.
Vəziyyət çox pisdir, olduqca ağır,
Köməyə dedilər həkimi çağır.

Əməlyat olmağa var ehtiyacı.
Ölümlə əlləşir, vəziyyət acı.
Quruyub yerimə yapışmışam mən.
Bıçaqla vurulmuş bu oğlan dünən.
On səkkiz zərbənin olmuş qurbanı.
Təslim olmamışdı əcələ canı.
Üstündən maşınla keçiblər o an.
Mözüzə olubdu, ölməyib oğlan.
Gec gəlsəz dedilər çıxacaq canı.
Çünki çox itirib bu yazıq qanı.

*****

Dərin bir xəyala dalmışdı Seyran.
Ürəyi şiddətlə vururdu o an.
Maşın çox sürətlə uçub gedirdi.
Sərdar dayanmadan söhbət edirdi.
Nəhayət çatdılar onlar məkana.
Tez xalat verdilər orda Seyrana.
Həkim cəld xəstənin getdi yanına.
Görəndə vəlvələ düşdü canına.
Xəstənin üz-gözü batmışdı qana.
Su kimi axmışdı bu qan hər yana.
Soruşdu bu kimdir, nə olub buna?
Elə bil həyatı çatacaq sona.
Nə günə qoyublar bunun özünü.

Az qala çıxarda bıçaq gözünü.
Vəhşiyə dönübdü sanki insanlar.
Adamdan bu cürə heyif alarlar?
Nədənsə çox qanım çəkdi xəstəni.
Elə bil ovsuna saldı bu məni.
Bütün cərrahları tez çağırın siz.
Vaxt keçir başlayaq işimizə biz.
Dedilər bilmirik kimdi bu oğlan.
Təcili yardımla gəlibdi bu an.
Tanıya bilmədik bunun özünü.
Nə günə salıblar gör üz-gözünü.
Üstündə yoxuydu bir dənə sənət.
İtibdi sənətlər davada əlbət.
Yolun kənarında görüblər onu.
Üstündə olmayıb heç telefonu.
Yerini zəng edib söylədi bir qız.
Dedi ki, burda var bir oğlan yalqız.
Üz-gözü batıbdı tamamən qana.
Su kimi qan axır ondan hər yana.
Təcili yardımı tez göndərdik biz.
Ona nə lazımsa kömək edin siz.
Seyran xəbər etdi öz yoldaşına.
Tələsik o, keçdi işin başına.
Xəstənin bağlıydı tamam üz-gözü.
Ölü tək qalmışdı yazığın özü.

On səkkiz bıçaqla yaralanmışdı.
Qatildən nə qədər zərbə almışdı.
Bıçağı sancmışlar düz boğazına.
Kəsiyi çatmışdı onun ağzına.
Bıçaq sifətinə şırım salmışdı.
Ucu da qırılıb orda qalmışdı.
Olduqca çox çəkdi həkimin işi.
Çim suya batmışdı orda hər kişi.
Elə ki, otaqdan çıxırdı Seyran,
Kəsilmiş ağac tək yıxıldı o an.
Hamının olduqca qaraldı qanı.
Ağrıdan yanırdı Seyranın canı.
Dedilər yəqin ki, yorulub həkim.
Amma bilmirdi ki, nə olub heç kim.
Aradan keçmişdi bir xeyli zaman,
Özünə gəlməyə başladı Seyran.
Elə ki, bu həkim gəldi özünə,
Dünya pis göründü onun gözünə.
Fırlandı başına dünya bir anlıq.
Bütün aləm oldu sanki qaranlıq.
Gözündən sel kimi yaşlar axırdı.
Əlacsız adam tək Seyran baxırdı.
Nəhayət güc ilə gəldi özünə.
Yavaşca başladı həkim sözünə.

Güc ilə tutmuşam orda özümü.
Gərək kor edəydi Allah gözümü.
Bu mənim oğlumdu, bu Elmanımdı.
Özümün həyatım, həm də canımdı.
Axşam çatmayırdı sankı nəfəsim.
Batmışdı, çıxmırdı elə bil səsim.
Deməli, bu mənə olurmuş ayan.
Sanki deyirdilər yatma, dur oyan.
Bu gecə çəkmişəm it zülümü mən.
Nə günah eyləyib bu balam görən?
Gecəni gözümlə diri açmışam.
Hər şeydən xəbərsiz işə qaçmışam.
Nə idi Allahım, mənim günahım?
Qoy tutsun qatili tezliklə ahım.
Kim salmış balamı bu hala görən?
Dişimlə didərəm, tapsam onu mən.
Elə bil yuxudan birdən oyandım.
Balamın xətrinə güclə dayandım.
Polisə üz tutub söylədi ki, siz,
Qatili təcili verməlisiniz.
Siz dua edin ki, balam sağalsın.
Balamın öcünü allahım alsın....

****

Aləm bir-birinə yaman qarışdı.
Seyranın ürəyi yandı, alışdı.

Əri də eşitdi işdə xəbəri.
Təccübdən bərələ qaldı gözləri.
Gecə növbəsində qalmışdı kişi.
Həkimlik olmuşdu onun da işi.
Yaxşı tanıyırdı hamı Mərdanı.
Xəstənin yanında qalırdı canı.
Elə ki, bu kişi xəbəri aldı,
Özünü Elmanın yanına saldı.
Gördü ki, oğlunun gəlir nəfəsi.
Suala tuturdu orda hər kəsi.
O, mətəl qalmışdı olub-keçənə.
Deyirdi düzünü söyləyin mənə.
Bilmək istəyirəm kimdi düşmənim?
Nədən bu gündədir uşağım mənim?
Heç kimin xətrinə dəyməmişəm mən.
Bəs nədir başıma axı bu gələn?
Bıçaqla ediblər lap deşik-deşik.
Maşınla vurublar sonra üstəlik.
Allahım, kim edib bu işi görən?
Dişimlə didərəm tapıb onu mən.
Oğlunun üzündə qalmışdı gözü.
Hər şeyə nəzarət edirdi özü.
Aradan keçmişdi bir xeyli zaman.
Elmanla birlikdə qalırdı Seyran.

Özünə gəlirdi o, yavaş-yavaş.
Ananın gözündən tökülürdü yaş.
İstəyirdi oğlu açsın gözünü.
Onlara söyləsin sözün düzünü.
İstəyirdi bilsin olub -keçəni.
Soruşsun kim qoyub bu günə səni?

*****

Seyranın altmışa çatmışdı yaşı.
Mərdanla olmuşdu qrup yoldaşı.
Tələbə olanda toy etmişdilər.
Hər yerə, həmişə bir getmişdilər.
Xoşbəxtlik üz verdi ata, anaya.
Əkiz oğlanları gəldi dünyaya.
Bərabər böyüdü Elmanla Telman.
Gözdən qoymadılar onları bir an.
Həmişə çüt geyib, çüt gəzərdilər.
Hər şeyi dağıdıb, gah düzərdilər.
Hədsiz oxşayırdı Elmanla Telman.
Ayırmaq olmurdu onları inan.
Baxıçı götürdü onlara Seyran.
Gözdən qoymurdular uşağı bir an.
Ananın yoxuydu gecə, gündüzü.
Evdən çox o, işdə olurdu düzü.
Qonşusu bir qadın gətirdi ona.
Dedi ki, iş gəzir özünə Sona.

Bir xeyli zamandı xəstədi əri.
Nə desən görəcək bütün işləri.
Hər şeyə var onun çox ehtiyacı..
İşin yüngülləşər sənin də bacı.
Nəhayət Sonanı işə aldılar.
İşləri qaydaya birgə saldılar.
Uşaqlar meylini saldı Sonaya.
Əziyyət vermədi daha anaya.
Qadın səhər gəlib, axşam gedirdi.
Nə iş var hamsını o, həll edirdi.
Ayları, illəri yola saldılar.
Həmişə Sonayla birgə qaldılar.
Evin bir adamı olmuşdu Sona.
Etibar olurdu hər bir şey ona.
Bir gün işdən evə gəldiyi zaman,
Qoz, fındıq ləpəsi almışdı Mərdan.
Həmin ləpələri Seyran qovurdu.
Onun qabığını yaxşı sovurdu.
Ləpəni keçirdi sonra maşından.
Pesoğa qataraq yığdı həmin an.
İki üç kiloluq banka dolmuşdu.
Artıq bişirməyə hazır olmuşdu.
Bayramda paxlava edir el-oba.
Apar qoy bunları sən də dolaba.

Seyran bu içliyi ona ötürdü.
Sona da ləpəni alıb götürdü.
Aradan keçmişdi bir xeyli zaman.
Təmizlik gedirdi evdə həmin an.
Buraya toplandı qohum, əqraba.
Bayram keçirirdi bütün el-oba.
Hərə bir iş üçün gəlib- gedirdi.
Hamı bir- birinə yardım edirdi.
Elə ki, düşəcək axşam, qaranlıq.
Bu evdə olacaq böyük qonaqlıq.
Sonanı çağırıb dedi ki, Seyran,
Həmən o içliyi gətir sən bu an.
Paxlava bişirək indi özümüz.
Axşam da yeyərik, doyar gözümüz.
Qoy çıxsın bu evdən şirni ətiri.
Hamının əzizdi mənə xətiri.
İstərəm süfrədə hər şey bol olsun.
Bu gözəl qoxular aləmə dolsun.
Sona tərk eylədi tezcə otağı.
Açıb həm bağladı çöldə qapağı.
Sakitcə həyətdə bir az dolandı.
Otağa gələrək səssiz dayandı.
Seyran çox təccüblə baxırdı ona.
İçlik harda qaldı dedi , ay Sona?
Sona boylanırdı o yan, bu yana.

Alçaq bir səs ilə dedi Seyrana,
İçliyi dolabda tapammadım mən.
Kiməsə veribsən yəqin özün sən.
Qadın əsəbləşib dedi ki, ona,
Mən nə vaxt verdim sən görmədin Sona?
Bəs bu nə sözlərdir deyirsən mənə?
Get bir də dolaba təzdən bax yenə.
Bu zaman həyətdən səsləndi Mərdan.
Mən özüm baxaram, bu saat, bu an.
Aləmlə bir olub evdə səsiniz.
Özgə vaxt gəlməyir heç nəfəsiniz.
Deməyə qalmayıb heç sizə sözüm.
Bu saat gətirib verərəm özüm.
Heç kimsə dillənib demədi bir söz.
Mərdanın yanağı olmuşdu lap köz.
Sonra da həyətdən səsləndi kişi,
Bir yaxşı fikirləş gördüyün işi.
Nə ləpə, nə içlik, heç nə də yoxdu.
Dolabda olduqca boş banka çoxdu.
Seyran lap hirsləndi, çıxdı özündən.
Əsəbdən od çıxdı sanki gözündən.
Bu saat taparam içliyi özüm.
Bax onda olacaq sizlərə sözüm.
Nə qədər əfəlsiz, nə deyim sizə?

Az qalır dolabda o girsin gözə.
Acıqlı-acıqlı çıxdı eşiyə.
Baxdı gah dolaba, gah da kişiyə.
Yerində duruxdu, mat qaldı Seyran.
İnana bilmədi gözünə o an.
Allahım, bu nədi, bu nə mözüzə?
Ləpələr hardadı, özün de bizə?
İkimiz olmuşuq burda , ay Sona.
Neylədin ləpəni, nə oldu ona?.
Sona çox acıqla baxdı Seyrana.
Söylənib, boylandı o yan, bu yana.
Nə ləpə ? Heç nədən yoxdu xəbərim .
Dəyməyib onlara mənim əllərim.
Qapıda ustalar işləyən zaman.
Yəqin ki, çay ilə içiblər inan.
Ay Sona , sözünə bir fikir ver sən.
Yaxşı bax, dəliyə oxşayıram mən?
İndi ki, belədi düz deyirəm mən.
Ləpənin hamsını götürmüsən sən.
Ayıbdı səninçün, kəsmişik çörək.
Bu evdən bir çöp də itməsin gərək.
Evimi mən sənə ümüd edirəm.
Hər gündə arxayın işə gedirəm.
Hər şeyə cavabdeh sənin özünsən.
Sən mənim sözümdən nə inciyirsən?

Onları aparıb qoymusan hara?
Bu saat ləpəni tap gətir bura.
De görüm, onunla artacaq haran?
Əgər o ləpəylə sağalsa yaran,
Deyərdin , mən özüm verərdim o an.
İndi də bu günə düşməzdin inan.
Sona hey deyirdi yoxdu xəbərim.
Onlara dəyməyib mənim əllərim.
Seyranın bu işə qanı qaraldı.
Sərdarı göndərib paxlava aldı.
Hərə öz işinə davam edirdi.
Çox gözəl hazırlıq artıq gedirdi.
Onlar qonaqlığı verdilər yola.
Sona fırlanırdı sağa, gah sola.
Yoxuydu dunyada arvadın halı.
Qan-irin olmuşdu tamam əhvalı.
Heç yaxın gəlmədi orda yeməyə.
Güc ilə gedirdi işə köməyə.
Kənardan bunları görürdü Seyran.
Yazığı gəlirdi Sonaya inan.
Dözmədi yenə də onun ürəyi.
Çağırıb dedi ki, gəl ye yeməyi.
Xətrinə dəydimsə bağışla məni.
Üzmək istəməzdim yalandan səni.

Çünki gözlərimlə görməmişəm mən.
Bəlkə də bu işi etməmisən sən.
İstəmirəm batam mən də günaha.
Möhlət ver sən mənə bu gün, sabaha.
Bilirsən, hər yerdə var kameramız.
Diqqətlə baxarıq indi hamımız.
Hər bir şey o zaman aydın olacaq.
Bizim qəlbimizə düzlük dolacaq.
İstəmirəm batam, vallah günaha.
Nə cavab verərəm sonra Allaha?
Seyran eynəyini gündə taxırdı.
Diqqətlə, anbaan lentə baxırdı.
Aradan keçmişdi artıq yeddi gün.
Kamera hər şeyi göstərdi düzgün.
O, lenti seyr edib baxdığı zaman,
Gözünə inana bilmədi inan.
Seyranı elə bil ildırım vurdu.
Bilmədi ayağa o, necə durdu?
İnana bilmirdi artıq gözünə.
Gördü ki, düz çıxıb ancaq sözünə.
Dolabda təmizlik eyləyən zaman,
Bankadan torbaya töküb həmən an.
Torbanı qoyubdu sonra kənara.
Bu işdən keçibdi bir xeyli ara.
Elə ki, gəlibdi getmək zamanı.

Alıbdı əlinə həmin torbanı.
Gedəndə boylanıb gah sağa, sola.
Sonra o, arxayın düzəlib yola.
İnana bilmirdi Seyran gözünə.
Nə qədər pis oldu özü-özünə.
Ay Allah, bu nədir, nə görür gözüm?
Şükür ki, günaha batmadım özüm.
Deməli, mən ona şər atmamışam.
Aranı yalandan heç qatmamışam.
Bəlkədə bu evdən çox şey aparıb.
Əlinə nə gəlib burdan qoparıb.
Mən evi həvalə etmişəm buna.
Hər seyin kökünə çıxıbdı Sona.
İlan vuran yatdı, yatmadı Seyran.
Sabahı lap oyaq açmışdı inan.
O, işə getməmiş gəlirdi Sona.
Hər şeyi o, təhfil verirdi ona.
Gələndə çevirdi ona üzünü.
Sonra da söylədi işin düzünü.
Bu nədir başıma gətirdin oyun?
Elə bil səninçün olmuşam qoyun.
Ləpəni aparıb rahat gəzirsən.
Qaş-qabaq edərək məni əzirsən.
Vicdan əzabıyla dolanıram mən.

Günahsız adam tək fırlanırsan sən.
Diqqətlə bax bircə mənim gözümə.
İndi nə deyirsən özün-özünə?
Oğurluq eyləmək itə yaraşır.
Səbrim tükənibdi, qəlbimi aşır.
Çıx işdən bir yolluq get evinizə.
Bir daha üz tutub qayıtma bizə.
Əsəbdən dayana bilmirdi Seyran.
Getdikcə coşurdu elə anbaan.
Elə bil bu Sona lal, kar olmuşdu.
Ağlayan bulud tək sanki dolmuşdu.
Daşdan səs çıxırdı, ondan çıxmırdı.
Bəlkədə olanlar onu sıxmırdı..

*****

Seyranın tutmuşdu tərsliyi yaman.
Əsəbdən çıxırdı başından duman.
Deyirdi, çıx işdən get evinizə.
Bir daha sən dönmə bu gündən bizə.
Həvalə eylədim evi, eşiyi.
Vecinə almadı evdə kişiyi.
Heç nədən çəkinmir, nə də utanmır.
Etdiyin hörmətin birini qanmır.
Bax, ləpə nədir ki, salırsan tamah.
Nə qədər lazımdır gətirim sabah.
Mənim də evimə haram qatırsan.

Hər şeyi aparıb yəqin satırsan.
Vermişəm belə bir qərarı özüm.
Sonaya bax budur indi son sözüm.
Bu gündən azadsan, özünə iş tap.
İndi də başqa bir məkanı çal, çap.
Artıq gecə keçdi, açıldı səhər.
Yuxudan oyandı Sona bir təhər.
Diqqətlə baxdı bir əvvəl özünə.
Dünya dar göründü onun gözünə.
Ay allah, nə edim , keç günahımdan.
Məni məhrum eylə sən tamahımdan.
İşdən çıxsam əgər nə olar halım?
O saat pozular bütün əhvalım .
Belə bir işi mən hardan tapacam.
Mən yazıq nə qədər işsiz qalacam.
Gərək mən uyduram ona bir yalan.
Sevinci köməyə çağırım o an.
Sevincə Seyranın vardı hörməti.
Onun heç sözündən o, çıxmaz qəti.
Sevinc aparıbdı bu işə məni.
İndi də minnətə göndərim yəni.
Arvadı çağırıb aldı yanına.
Aparıb Seyranın saldı canına.
Seyrana dil töküb yalvardı Sevinc.

Bir daha götürməz dayanacaq dinc.
Qoy lənət eyləsin şeytana Allah!
Bir çöp də götürməz bu gündən vallah.
Götürdü gördü ki, açıldı üstü.
İndi də başından lap çıxır tüstü.
Bilirəm, çilədən çıxardır səni.
Zibilə atmışam deyir ləpəni.
Bir daha bir çöpə əl atmaram mən.
Deyir ki, son dəfə zamin dur gəl sən.
Sevinc əl qatmışdı yaman özünə.
Baxırdı Seyranın dim- dik gözünə.
Yazıqdı qoy yenə işləsin, bacı.
Evdə vəziyyəti acıdı-acı.
Verdiyin çorəklə, pulla dolanır.
Bu külbaş səhvini özü də qanır.
Seyran qulaq asdı tamam Sevincə.
Nifrət eyləyirəm dedi o, gicə.
Bax necə atıbdı axı ləpəni?
Dəli yerinəmi qoyubdu məni?
Ləpəyə vermişik düz bir ətək pul.
Bunu kim eyləyər, huldur o, bir hul.
Bilmirəm, nə sözdür , söyləyirsən sən?
Diqqətlə qulaq as, nə deyirəm mən.
Qalmayıb Sonaya daha güvənim.
Evimdən itərsə başqa şeylərim,

Kimdən soruşacam, axtarım harda?
Həmişə qoyacaq o, məni darda.
Bəlkə itəcəkdi qızılım, pulum.
Harda axtaracam, mən hardan bulum?
Onda deyəcəkdi atmışam Sona?
O zaman nə deyim, axı mən ona?
Ürəyi istəyən şeyi atacaq.
Sonra da aləmi tamam qatacaq.
Kim verib Sonaya bu ixtiyarı?
Dağıtsın evimdən dövləti, varı.
Elmanla,Telman da öyrənib ona.
Girməsin bu evdə o, min cür dona.
Tət desin bir azca pis tamahına.
Bizi batırmasın öz günahına.
Keçirəm bu dəfə günahından mən.
Minnətə gəlibsən çünki yenə sən.
İllərdir bu evdə sən də işlədin.
Halal çörəyini rahat dişlədin.
Olmadı arada bir söhbət, bir söz.
Dözəcəm, çünki sən deyirsən ki, döz.
Bir daha oğurluq etməsin Sona.
Çox baha gələcək axırda ona.

****

Sonanın varıydı tək bir övladı.
Şamil qoyulmuşdu onun da adı.
Qapqara saçlıydı oğlanın başı.
Olduqca gözəldi kirpiyi, qaşı.
Böyüyüb ağıllı oğlan olmuşdu.
Yetginlik yaşına gəlib dolmuşdu.
Çox dəcəl bir oğlan olmuşdu Şamil.
Məktəbi qurtardı güclə ötən il.
O, ali məktəbə daxil olmadı.
Arzusu yerinə gəlib dolmadı.
Qəbul imtahanı verdiyi zaman,
Tanış oldu orda bir qızla oğlan.
Ordaca o, qızdan tez nömrə aldı.
Nömrəni özündə yaddaşa saldı.
Ordan başlamışdı tanışlıqları.
Birləşmək istədi tale yolları.
Tanışlıq getdikcə döndü sevgiyə.
Sanki bir almanı böldü ikiyə.
Bir üzü qız oldu, bir üzü oğlan.
Birlikdə dolanıb gəzdilər hər an.
Bu sevgi getdikcə alovlanırdı.
Onlar bu sevgiyə çox inanırdı.
Günlərin birində elçi getdilər.
Bunlara kiçik bir nişan etdilər.

Olmadı onların gecə-gündüzü.
Birlikdə gəzirdi çox zaman düzü.
Bazarlıq edərdi həmişə Sona.
Hər bir şey aparıb gedərdi ona.
Gəlinə nə qədər qızıl almışdı.
Tanıyıb, bilənlər mətəl qalmışdı.
Hamı soruşurdu bu hardan alır?
Gəlinin çiyninə bir-bir şal salır.
Həmişə çox gözəl geydirir onu.
Heç kimdə olmayır aldığı donu.
Gəlinin önündə o, düz dururdu.
Getdikcə qız evi lap qudururdu.
Tələblər getdikcə hədsiz artırdı.
Hər şeyi onlardan qızgil dartırdı.
Günlərin birində gördü ki, Sona.
Şamili oxşayır sözü olana.
Nədənsə çəkinir, söyləyə bilmir.
Sus düşüb, danışıb nə də ki, dinmir.
Durmadı Sonanın ana ürəyi.
Yanıb alışırdı onun kürəyi.
Nəhayət oğluna dedi: ay bala,
Nə fikir edirsən mən ola-ola?
Görürəm ürəyin söz ilə dolub.
De görüm bir mənə, axı nə olub?

Çox bikef dəyirsən mənim gözümə.
Sirrini sən söylə indi özümə.
Şamil yerə baxdı, beləcə qaldı.
Başını bir qədər aşağı saldı.
Alçaq bir səs ilə dedi: ay ana,
Boylanıb baxıram indi hər yana.
Bilmirəm nə deyim, axı mən sənə?
Yəqin ki, acığın tutacaq mənə.
Gəlinə verdiyin qızılları sən,
Bir daha üstündə görməyəcəksən.
Bizim qızılları onlar satıbdı.
Qudalar gizlicə bizə atıbdı.
Onların varıymış borcu, sələmi.
Ən rahat variant budur, eləmi?
Onlarla bir deyil, biləsən əlim.
Bu işdən olmayıb mənim xəbərim.
Anası deyir ki, yoxuydu pulum.
Yaxşı ki, sizinlə olmuşuq qohum.
O borc da mənimdi, qız da mənimdi.
Nə olsun sizinçün bu qız gəlindi.
Əzabla böyütdüm, özüm saxladım.
Bax, ona görə də borcu bağladım.
Bir də ki, ay oğul , deyim biləsən.
İstəyir yıxılıb, vallah öləsən.
Pul yoxdur, qaytaran deyiləm sənə.

Ay Şamil, heç zaman üz vurma mənə.
İstəsən bu işi heç anan bilməz.
Biləndə nə olar, bilsə də ölməz.
Məcburam yoxuydu vallah, əlacım.
Sənin bu anan da qoy olsun bacım.
Sona mat qalmışdı, dondu yerində.
Kəlməsi quruyub qaldı dilində.
Nə sözdür bunları söyləyirsən sən?
Qızıla bir ətək pul vermişəm mən.
Hamsını zülümlə, güclə almışam.
Özümü nə qədər borca salmışam.
Atan yeyib, içib rahat gəzibdi.
Üstəlik həmişə məni əzibdi.
Həm evi, həm səni saxladım özüm.
Nə deyim bunlara qalmadı sözüm?
İllərdi onlara çalışmışam mən?
Bu işə bəs indi nə deyirsən sən?
And olsun allaha lap alovlandım.
Ürəyim alışdı, alovda yandım.
Boğuldum, çatmayır bir damcı havam.
Sənnən yox, qudaynan olacaq davam.
Deyəsən doğurdan Sevda qudurub.
Nə cürət eyləyib qarşımda durub?
Evinə gedəndə heç saymır məni.

İndi də əlində oynadır , sənı?
Zərbəni gör mənə o, hardan vurub?
Özünə sərf edən bir plan qurub.
Deyirəm, nə üçün o, naz- qoz edir.
Bizə də əlacsız o, gəlib -gedir.
Toydan söz salanda aradan çıxır.
Hər şeyi yalandan üstümə yıxır.
Qızılı onlara verən deyiləm.
Bu Sevda kimdir ki, ona əyiləm?
Dünyanı başına eyləyərəm dar.
Bu qədər qudurmuş görən harda var?

****

Boylanıb Sonaya baxırdı Şamil.
Söylədi: ay ana, indi eşit, bil.
Olduqca sevirəm mən Fəridəni!
Yolumdan döndərə bilməzsən məni.
Düz deyir, yazığın heç yoxdur pulu.
Onda bəs neynəsin allahın qulu?
Bir dənə qızıl da lazımım deyil.
Mən qızı alacam, sən də onu bil!.
Mənimçün Fəridə qızıldı özü.
Heç kimin buna da olammaz sözü.
Qızılı mənimçün almamısan sən?
Onu da onlara bağışladım mən.
Yığışdır ay ana, sən bu söhbəti.

Ömründə bir daha açma gəl qəti.
Özünə heç gələ bilmirdi Sona.
Təsir etməyirdi hər bir söz ona.
Elə dediyini deyib dururdu.
Az qala özünü yerə vururdu.
Ömründə bir qəpik qazanmamısan.
Heç zaman doğruya inanmamısan.
Sənin nə vecinə qoy pulum batsın.
Hərə bir yol ilə səni aldatsın.
Zəhmətlə bu pulu qazansan əgər,
Hamı bir-birinə bu saat dəyər.
Zəhmətin keçməyib sənin pullara.
Sən ömrü boyunca oldun avara.
İndi də bilərsən ay bala, özün.
Deməli, sən dedin daha son sözün.
Bilirsən, mənə də deyərlər Sona.
Bu saat bir gəliş gələrəm ona.
Qızıllar lazımdır mənim özümə.
Aləmi soxaram onun gözünə.

****

Gözünün yaşını o, silə-silə,
Üz tutdu bir başa düz Sevda gilə.
Qapıda özünü o, ələ aldı.
Tələsik , bir təhər içəri saldı.

Fəridə çıxmışdı tam qabağına.
Apardı Sevdanın lap otağına.
Sevda uzanmışdı orda divanda.
İçəri girdilər onlar bu anda.
Artıq bilirdilər gələcək Sona.
Sevda yer göstərdi masada ona.
Nə günə düşmüşdü bu arvad hələ.
O, zorla alırdı özünü ələ.
Güc ilə kətili çəkib oturdu.
Əlini qəfildən masaya vurdu.
Şamildən eşitdim bu xəbəri mən.
De görüm, qızılı neyləmisən sən?
Əvvala qoy deyim , həm də biləsən.
Onları səninçün almamışdım mən.
Nə günlə işləyib almışam onu.
Budur zəhmətimin indi də sonu.
Qızılı gətir ki, qoy görsün gözüm.
Aləmi qataram bu saat özüm.
Sevda gülümsəyib dedi: ay bacı,
Sənin də bu dilin acıdır, acı.
Qapıdan girməmiş danışırsan sən.
Səninlə heç quda deyiləmmi mən?
Bir çay iç, az danış, sən gəl özünə.
İnanma heç kimin vallah, sözünə.
Qızıla varıydı çox ehtiyacım.

Sənə ərk eylədim mən də, ay bacım.
Mən sənin önündə borclu qalacam?
İşləyib hamsını vallah, alacam.
Düzəldim əvvəlcə əl -ayağımı.
Hazırla bunların sən otağını.
Toy edib birlikdə yığaq bir yerə.
Lazımı köməklik eyləsin hərə.
Evlə bir olubdu səsin-səmirin.
Çoxlu su aparar sənin xəmirin.
Qabaqda var bizim çox zamanımız.
Qırılıb itməsin qoy inamımız.
Evindən qoy gəlsin nəvənin səsi.
Qəlbini isitsin gözəl nəfəsi.
Qızıl -zad o zaman yaddan çıxacaq.
Sevgisi qəlbinə su tək axacaq.
And içib mən sənə bax verirəm söz.
Darıxma, bu işə gəl bir azca döz.
Sevdaya baxırdı Sona kədərlə.
Artıq barışırdı zalım qədərlə.
Söylədi: sən burda danışma nağıl.
Nədə ki, gəl mənə heç qoyma ağıl.
Onların hamsını bilərəm özüm.
Qaytar qızılları, budur son sözüm.
Oğlumun xətrinə gözləyəcəm mən.

Hər şeyi yerbəyer eyləyərsən sən.
Sözünü söyləyib ayağa durdu.
Otaqdan çıxaraq qapını vurdu...

****

Aradan keçmişdi bir xeyli zaman.
Bilmirdi neynəsin bu Sona inan.
Heç nəyi vecinə almırdı quda.
Az qalırdı hələ onu da uda.
Gəlinin dalınnan gedirdi Sona.
Əlinə keçənnən alırdı ona.
Seyranın evində hər an, hər zaman.
Gizlicə hər şeyi bölürdü inan.
Pendiri, həm yağı, həm qəndi, çayı.
Gəlinin olurdu ən əziz payı.
Şoraba, mürəbbə, cem götürərdi.
Hamsını xəlvəti tez ötürərdi.
Gizlicə hər şeyə o , əl atırdı.
Çox şeyi aparıb çöldə satırdı.
Yenidən o pula nəsə alırdı.
Gəlinin dalınnan hey yol salırdı.
Seyranın olmurdu bundan xəbəri.
Sonanın doymurdu heç vaxt gözləri.
Bəzən anlasa da bunları Seyran,
Üzünə vurmurdu heç zaman inan.
Üstəlik pul verib, pay da qoyurdu.

Sona da arxayın onu soyurdu.
Artırdı Sevdanın hey tələbləri,
Heç zaman doymurdu onun gözləri.
İsmarınc edərdi Şamildən ona.
Deyərdi gəlinə pul göndər, Sona.
Fəridə nasazdı həkimə gedir.
Ağrılar bu qızı narahat edir.
Dərmana verməyə pulu da yoxdu.
Ağrıyır, ağrısı olduqca çoxdu.
Vay elə gündən ki, yox desin Sona.
Şamil üz göstərər o saat ona.
Deyərdi, ayıbdır ay ana, bizə.
Onlarla gəlirik hər an üz-üzə.
Pul yoxdur sözünü anlamıram mən.
İstəsən bu saat pul taparsan sən.
Özgə vaxt deyirsən mənim qızımdı.
Gəlini alanda baxmaq lazımdı.
Ana da düşürdü dərdə, azara.
Hər gün yol salırdı dükan, bazara.
Seyranın adınnan nisyə mal aldı.
Həmişə dükana o, borclu qaldı.
Elə ki, heç yerdən tapmayırdı pul,
Gəzirdi hər yerdə elə bil ki, hul.
Heç ağlı  olmurdu onun özündə.

Dünya puç olurdu sanki gözündə.
Sonaya zəng vurub deyirdi Şamıl,
Pulları hazırla, gələcəyəm bil.
Qurtarıb özümün iynə, dərmanım.
Bilirsən iynəsiz dözməyir canım.
Mən sənə xoşluqla deyirəm, ana.
Sən məni eyləyə bilməzsən yana.
Deyirəm çirmələ gəl qollarını.
Mənimçün hazırla tez pullarını.
Seyranın evindən xəlvət pul götür.
Hamsını oğlunun cibinə ötür.
Gəlsəm mən pul üçün işinə əgər,
Aləm bir-birinə o saat dəyər.
Şamil gizli-gizli çəkirdi nəşə.
Bunu eyləmişdi özünə peşə.
Sonanın yoxuydu bundan xəbəri.
Nəşəni satırdı özünün əri.
Qonşu uşaqlara qoşuldu oğlan.
Onlarla birlikdə olurdu çox an.
Gündə o, çıxırdı min bir hoqqadan.
Qorxmurdu şillədən, nə də toqqadan.
Avara -avara gəzir, dolanır.
Şamilin oduna Sona da yanır.
Atası yanında düzəltdi işə.
Seçmişdi əslində gözəl bir peşə.

Taksidə sürücü işləyirdilər.
Qayda -qanunları gözləyirdilər.

****

Qohumluq beləcə davam edirdi.
Fəridə onlara gəlib- gedirdi.
Qızıldan yoxuydu hələ bir xəbər.
Qız alıb olmuşdu sanki bəxtəfər.
Gəlinin yelinə uçurdu ana.
Özünü vururdu o yan- bu yana.
Artıq alışırdı olub -keçənlə.
Dağlara bürünən dumanla, çənlə.
Bütün əzablara o, qatlanırdı.
Sevincdən ürəyi bərk atlanırdı.
Sevirdi oğlunun hər an boyunu.
İstəyirdı onun görsün toyunu.
Onların yoxuydu başqa övladı.
Dadmaq istəyirdi, həmin o dadı.
Şamilin öz kefi, öz damağında.
İynəni vururdu tez otağında.
Yığırdı hamını evdə başına.
Məclislər qururdu dost, yoldaşına.
Yerinə atası çıxırdı işə.
Artıq bu çevrildi tamam vərdişə.
Məclislər qatırdı onun başını.

Arada vururdu hərdən maşını.
Bir gün işdən evə tez gəldi Sona.
Qapını heç kimsə açmadı ona.
Sonunda açarla qapını açdı.
Gözündə elə bil qığılcım saçdı.
O, mətəl qalmışdı özü-özünə.
İnana bilmədi ancaq gözünə.
Özünü itirdi arvad bir anlıq.
Gördü ki, ev olub tamam qaranlıq.
Baxdı ki, evində aləm qarışıb.
İynələr vurulub, mumlar alışıb.
Hərə bir tərəfdə uyuyub qalıb.
Kimisi çox dərin xəyala dalıb.
Bəzisi gülürdü özü- özünə.
Sonanın ildırım çaxdı gözünə.
Dəhşətlə baxırdı yazıq otağa.
Bir addım irəli getdi qabağa.
Birinci yandırdı evdə çırağı.
Nəzərdən keçirdi bir də otağı.
Qurudu boğazı, təpidi dili.
Əsəbdən əsirdi ananın əli.
Bir qorxu düşmüşdü sanki qanına.
Titrəmə gəlirdi birdən canına.
Elə bil yatmışdı, tamam oyandı.
Şamilin önündə gəlib dayandı.

Oğlanın yoxuydu baxacaq halı.
Artıq bərbad idi, çoxdan əhvalı.
Qışqırıb hay- həşir salmışdı Sona.
Key kimi baxırdı Şamil də ona.
Kimdi bu uşaqlar evə almısan?
Özünü gör necə günə salmısan?
Onların bax burda de nədir işi?
Adını qoyubsan özündə kişi.
Siz də tez rədd olun, görməsin gözüm.
Heç yoxdur sizlərə bir kəlmə sözüm.
Bura ayağınız dəyməsin daha.
Sizi tapşırıram göydə Allaha.
Sona tez qapının yanında durdu.
Qəzəblə qapıya bir təpik vurdu.
Taqqıltı yayıldı bütün hər yana.
Vəlvələ düşmüşdü orda hər cana.
Uşaqlar güc ilə toparlandılar.
Birvəbir cərgəylə sıralandılar.
Onların ayağı tir-tir əsirdi.
Həyətə çıxmaqçün çox tələsirdi.
Getdikcə başları dumanlanırdı.
Özünü göylərdə kral sanırdı.
Bir-bir tərk etdilər onlar məkanı.
Odlarda yanırdı ananın canı.

O, indi anladı olub - keçəni.
Söylədi: bu halın yandırır məni.
Qorxduğum bu şeylər gəldi başıma.
Nə deyim qudaya, bax qardaşıma?
Mən sənə deyirəm, indi eşit, bil.
Qızı verməyəcək sənə Sevdagil.
Atanın əlindən doymuşam cana.
Dünya bir yanadır, atan bir yana.
Lap gedib oxşadın onun özünə.
Sənin tək oğlu da girsin gözünə.
Mən yaman razıydım onun özündən.
Zəhmətim qoy gəlsin iki gözündən.
Nəşədən çəkəcək, iynə vuracaq.
Hamıynan dalaşıb lap quduracaq.
Heç zaman olmayır evdən xəbəri.
Sona eyləyəcək bütün işləri.
Saldı öz gününə yəqin ki, səni.
Zülümə qoydunuz yenə də məni.
Çatdıra bilmirəm mən sizə pulu.
Yoluna düzəl gəl sən üzü sulu.
Bu yola düşənlər tapmayır xeyir.
Narkotik sonunda ürəyi yeyir.
Heç nəyin olmayır ona əlacı.
Günümüz olacaq oldukca acı.
Narkaman adamdan aralı dayan.

Ondan xeyir tapan olmayıb inan.
Evimin yeganə övladısan sən.
Çox zülüm çəkmişəm bu dünyada mən.
Dediyim sözləri sən saxla yadda.
Anan -zad deyiləm yoxsa bu adda.
Hələ ki, gec deyil qayıt pis yoldan.
Əl çək o xaşxaşdan, nəşədən, koldan.
Qaynanan eşidib bilərsə işi,
Sənə qız verərmi ağıllı kişi?
Məhv etmə , ay oğul indi özünü.
Allah kor edibdi sanki gözünü.
Axı kim tapıbdı bu işdən xeyir?
Vallah, ürəyimi şübhələr yeyir.
Mən sizə görəcə olmuşam oğru.
Yalana çevrilib dilimdə doğru.
Seyrana həmişə gəlirəm kələk.
Məndən baş açmayır o zalım fələk.
Evində hər şeyə haram qatmışam.
Qabını, paltarı gizli satmışam.
Pul edib gətirib vermişəm sənə.
Budurmu etdiyin yaxşılıq mənə?
Sonanın gözündən yaş süzülürdü.
Muncuq tək yanaqda sıx düzülürdü.
O, gələ bilmirdi heç cür özünə.

Diqqətlə baxırdı oğlu gözünə.
Coşduqca coşurdu arvad elə bil.
Nəhayət dillənib danışdı Şamil.
Bu nədir ay ana , deyirsən mənə?
Axı mən neynədim, de görüm yenə?
Fürsətdir de mənə ürək sözünü.
İdeal qadın tək göstər özünü.
Dediyin sözlərin çatmır başıma.
Mən uşaq deyiləm bir bax yaşıma.
Anladım, deyirsən pisdir narkaman.
Hamı mənə deyir nəçidir anan?
Atam narkamandı , sən it oğrusu.
Lap dəqiq bilirəm budu doğrusu.
Sizdən olan daha bəs kim olacaq?
Yadlarda ideal oğlan qalacaq?
Sən özün hər gündə işə gedirsən.
Ağlına gələni orda edirsən.
İllərdi o evdə kəsirsən çörək.
Düzdürmü əməlin indi de görək?
Nə gözəl sözlərdir deyirsən mənə?
Oğurluq eyləmək yaraşır sənə?
Dilin var hələ bir sən danışırsan.
Getdikcə qızışıb, lap alışırsan.
Donub yerindəcə qalmışdı Sona.
Təsir etməyirdi heç bir söz ona.

Şamılın üzündə qaldı gözləri.
Qılınc tək kəsirdi onun sözləri.
Ağlına gəlməzdi aldığı cavab.
Oğlu soruşurdu anadan hesab.
Yaman pis bir yerdə axşamlamışdı.
Oğlunun önündə donub qalmışdı.
Ondan gözləmirdi o, bu sözləri.
Oğluna dikilib qaldı gözləri.

******

Sona öz işinə gəlib -gedirdi.
Oğlunun fikrini gizli edirdi.
Heç kimə dərdini açıb-bükmürdü.
Nə dinib danışır, nə də gülmürdü.
Həmişə o işdə hərlənən zaman,
Fikiri Şamildə olurdu inan.
Sonaya hər zaman deyirdi Seyran,
Narahat oluram həmişə, hər an.
Baxıram açılmır heç qaş-qabağın.
Dəyməyir yerlərə sanki ayağın.
Elə bil uçursan, yerdə deyilsən.
Dərdini danışıb, bəlkə deyəsən.
Halından sıxılır, vallah ürəyim.
Bəlkə dəyəcəkdi sənə köməyim.
Edərəm əlimdən gələn yardımı.

Mənə ehtıyacın, işin vardımı?
Bilirəm, çətindir ekizə baxmaq.
Uşağın hərəsi bir cürə axmaq.
Çox olur iş-gücün evdə həmişə.
Sən özün gedirsən bütün hər işə.
Elə bil artıbdı dərdin, kədərin.
Allahdan yazılıb belə qədərin.
Dərdini heç kimə demədi Sona.
Guya ki, heç bir şey olmayıb ona.
Qarnından axırdı, çox qara qanlar.
Dərdini tək özü bilər və anlar.
Qızıllar çıxmışdı artıq yadından.
Nifrət eyləyirdi Sevda adından.
Hər şeydə günahkar görürdü onu.
Dumanlı qalırdı işlərin sonu.
Utanmaq bilmirdi o, heç yaşından.
Nə çıxsa çıxırdı onun başından.
Gördü ki, onların pulu azalır.
Toya da kəsilən vaxta az qalır.
Bütün o, hər şeyi lap bilə- bilə,
İstəmirdi verə qızı Şamilə.
İmkanlı adamda qalırdı gözü.
Pozacam deyirdi bu işi özü.
Son vaxtlar demirdi qızın yerini.
Qabağa verirdi evdə ərini.

Ay kişi, onların yoxdu imkanı.
Yerdən yığılmayıb qızımın canı.
Rastıma gələrsə imkanlı oğlan,
O saat verərəm, qızımı inan.
Onsuz qızılları satıb yemişik.
Lazımı sözləri daha demişik.
Kor deyil hələ ki, görür gözlərim.
Boş yerə getməyir heç vaxt sözlərim.
Qızımı mən ona verən deyiləm.
Nə böyük adamdı ona əyiləm?
Şamilin bəllidir hər şey gözündən.
Heç xoşum gəlməyir onun özündən.
Hər zaman baxırsan gözləri axır.
Narkaman adam tək eləcə baxır.
Deyirlər atası nəşədən satır.
Arada həm çəkir, aləmi qatır.
Az qalır partlasın indi ürəyim.
Allahım qoy özü olsunköməyim.
Əslində tapmışam sakit bir oğlan.
Bal kimi yaraşır qızıma inan.
Qızımı verəcəm xəlvəti ona.
Çatacaq hər bir şey gül kimi sona.

*****

Fəridə baxırdı ana sözünə.
Çox fikir verirdi hər an özünə.
Bəzənib Şamillə gəzirdi qoşa.
Getdikcə xəyalı dönürdü daşa.
Onsuz da kasıbdı onların özü.
Varlıda qalmışdı qızın da gözü.
Son vaxtlar Şamildən gen dolanırdı.
Sevdanın sözünə çox inanırdı.
Anası nə desə ona baxırdı.
Sonanı yandırıb yaman yaxırdı.
Gəzirdi Fəridə başı havalı.
Olmuşdu hamısı tamam davalı.
Getdikcə soyuqluq davam edirdi.
Sona əl çəkmirdi, yenə gedirdi.
Bilmirdi nə etsin, girsin nə dona?
Nə cürə yaxşılıq eyləsin ona.
Sonanın özüylə yenə də Seyran,
İçliyi düzəldib qoydu bir qazan.
Düşündü yenə də özü-özünə,
Mətbəxdə qoy dəysin hər an gözünə.
Nə vaxtsa əlləri boş olan zaman,
Paxlava bişirər yenə həmin an.
Mətbəxdə açanda hər an dolabı,
Gözünün önündə görürdü qabı.

Ağlına gəlmirdi onun heç zaman,
İçlik yox olacaq yenə də inan.
Bir zaman boş olub evdə qalan an.
Baxdı ki, boş qalıb yenə də qazan.
Bu dəfə fərqliydi ancaq qazanı.
Seyran şok olmuşdu gördüyü anı.
Tamam boş deyildi indi bu qazan.
İçlikdən qalmışdı iki istəkan.
Seyran mat qalmışdı özü-özünə.
İnana bilmədi yenə gözünə.
Qazanı əlində quruyub qaldı.
İçinə yenidən bir nəzər saldı.
Tox tutdu bir azca yenə özünü.
Tələsik o, yumdu, açdı gözünü.
Əlinnən yoxladı yenə ləpəni.
Görən nə yerinə qoyur bu məni?
Döndü o, Sonanın baxdı üzünə.
Sözünü söylədi ona düzünə.
Ay Sona, hardadı ləpələr yenə?
Bu dəfə sən nağıl söyləmə mənə.
Sona tez boylandı o yan, bu yana.
Başını uzatdı azca qazana.
Görmürsən ay xanım, orda içliyi?
Sən Allah , gəl burax sən də bicliyi.

Nə itsə at elə mənim boynuma.
Hər dəfə gəlirəm sənin oynuna.
Vallah, mən nə deyim, görməyir gözün?
Yəqin bişiribsən nə vaxtsa özün.
Seyranın təpidi dili, dodağı.
Qaranlıq gördü o, bir an otağı.
Nə zaman bişirdim ləpələri mən?
Hər gündə burdasan heç görmədin sən?
Ləpənin manyakı olubsan deyən.
Düzələn deyilsən daha mən bilən.
Adamda üz gərək bunları etsin.
Haraya qədər bu əməlin getsin.
Sevinçin xətrinə saxladım səni.
Daha cin atına mindirmə məni.
Bu saat tərk elə sən bu məkanı.
Əl çəkmir işindən oğrunun canı.
Həyatda belə şey görməmişəm mən.
Etdiyin səhvləri bir də edəsən.
Manyakın sən elə əsil özüsən.
Evimin söhbəti, həm də sözüsən.
O yana, bu yana Sona vurnuxdu.
Seyrana boylanıb bir az duruxdu.
Hər şeyi çox gözəl bilirsən özün.
Aləmlə bir oldu söhbətin , sözün.
Məni heç tanıya bilməmisən sən.

Boynuma alıram öz səhfimi mən.
Əvvəlki ləpəni zibilə atdım.
Bax ona görə də aləmi qatdım.
Doğurdan heç bundan yoxdu xəbərim.
Dəyməyib ləpəyə mənim əllərim.
Bəlkə bu içliyi aparıb Sevinc.
Buraya gələndə dayanmayır dinc.
Seyran mat qalmışdı onun sözünə.
Nifrətlə baxırdı bülöv üzünə.
Söylədi: heç sənə qalmayıb sözüm.
Butün bu işlərə mən necə dözüm?
Sevincin sözünnən burda qalmısan.
Artıq ayağına yer də almısan.
İndi də sən ona deyirsən oğru?
Səncə bax nə qədər olar bu doğru?
Söhbətin bu şirin yerində birdən,
Seyrana zəng gəldi işdən qəfildən.
Dedilər çox ağır xəstə gəlibdi.
Budunu küt alət yaman dəlibdi.
Əməlyat olmağa var ehtiyacı.
Getdikcə çoxalır həm ağrı, acı.
Od kimi geyinib tez çıxdı Seyran.
Hər şeyi unutdu elə həmin an.
Seyranın işində qarışdı başı.

Yadından çıxmışdı qohum-qardaşı.
Ləpə heç düşmədi onun yadına.
Ancaq bu Sonanın çatdı dadına.
Ləpənin itməsi örtülü qaldı.
Seyranın qəlbinə o da xal saldı.
Aradan keçmişdi azca bir zaman.
Qonaqlıq edirdi evində Seyran.
Sevinc də onlara gəlib- gedirdi.
Qanaqlıq olanda kömək edirdi.
İcazə almışdı həmin gün Sona.
İşim var demişdi bir günlük ona.
Halı hal deyildi yenə Sonanın.
Yox idi dünyada sanki inanın.
Sevincdən soruşdu Seyran Sonanı.
Əməlli görmürəm mən bu insanı.
Yazığım gəlir lap vallah , özünə.
İnana bilmirəm heç bir sözünə.
Bu evdə işlıyir nə olub ona?
Nə günə düşübdü bu yazıq Sona?
Sevinc də dedi ki, ay həkim, vallah,
Sonanın özündə lap çoxdur günah.
Qız evi soğan tək onu soydular.
İndi də ortada , düzdə qoydular.
Yedirtdi onlara təmiz özünü.
Tutmayır qız evi indi sözünü.

Sonanın özünün çoxdur bicliyi.
Sizdən götürdüyü bütün içliyi,
Heç yerə atmayıb, danışır yalan.
Kənddə bir qadına verib həmən an.
Paxlava bişirdib, xonça bağlayıb.
Gəlinə aparıb, orda ağlayıb.
Qız evi baxmayıb çünki üzünə.
Hər şeyi deyiblər tamam düzünə.
Mən özüm getmişdim onun özünnən.
Oğurluq ləpəsi gəldi gözünnən.
Sən demə qudası xəbər göndərib.
Nişanın üstünü alta döndərib.
Zəng edib deyib ki, gəlməyin bizə.
Qızımı verəsi deyiləm sizə.
Deyirlər qoşulub qız gedib ərə.
Ağzına gələni danışır hərə.
Yalandan bu külbaş dəstə bağladı.
Orda da o ki, var xəlvət ağladı.
Salmışdı yanına on nəfər arvad.
Məclis çox pis oldu, hər şey də bərbad.
Nə qədər xərc çəkib yemək almışdı.
Hamısı xonçada bağlı qalmışdı.
Heç su da vermədi onlar qonağa.
Yalandan doluşduq biz də otağa.

Sona gil özləri çay dəmlədilər.
Qızın adamları heç gəlmədilər.
Sonanın hirsindən getdi ürəyi.
Tamam puç olmuşdu onun əməyi.
Heç yaxın gələn də olmadı ona.
Dediyin deyərək dururdu Sona.
Vaxtında edəcəm dedi toyumu.
Biyabır eyləmə mənim soyumu.
Bu toy baş tutacaq deyirəm özüm.
Bax budur sizlərə mənim son sözüm.
Mən xəbər vermişəm dosta- tanışa.
Gəlinim gələcək evə bu qışa.
Anası söylədi : nə deyirsən sən?
Yerinə gedəsi deyiləm ki, mən.
Mənim toy etməyə pulum da yoxdu.
Alacaq şeylərim onsuz da çoxdu.
Mən çox tərs adamam söylədi Sona.
Özüm toy edəcəm , oğlumla ona.
Var mənim özümün qabım, qacağım.
Başımı soxmağa isti ocağım.
Sənin bir çöpün də lazımım deyil.
Bu toyu edəcəm sən də onu bil.
Sevdanı mindirdi o, cin atına.
Qaldırdı göylərin yeddi qatına.
Söylədi : bu nədir, nə deyirsən sən?

Qız yoxdur, bu toyu necə edirsən?
Get elə toyunu bilərsən özün.
Bax budur sənə də mənim son sözüm.
Sevinc danışdıqca baxırdı Seyran.
Elə bil bir yuxu görürdü inan.
Bəs nədən vermirlər bu qızı ona?
Nə düşüb , əl çəkmir ondan da Sona?
Şamili bilirlər, deyir amandı,
Ölsə də verməərəm, o , narkamandı.
Getsin lap anqırsın, tapsın tayını.
Neynirəm onun tək kasıb ayını?
Bu qızı yerlərdən yığmamışam mən.
Onu da aparıb bədbəxt edəsən.
Var qızın özünün başqa adamı.
Bizlərdə tanıyır onu da hamı.
Onları görməyə heç yoxdu gözüm.
Demişəm, bu işi pozacam özüm.
Ölsə də verməərəm qızımı ona.
İstəyir özünü öldürsün Sona.
Bax ona görə də qaradır qanı.
Cürbəcür planlar qurur hey canı.
Seyran mat qalmışdı olub- keçənə.
Dedi ki, ləpələr yox olub yenə.
And- aman eyləyir yenə də qadın.

Sevinc bilər deyir ləpənin dadın.
Çünki bu ləpəni Sevinc götürüb.
Bişirib, qarnına çoxdan ötürüb.
Bilirdim, bunları söyləyir yalan .
Heç ona görə də demədim o an.
Yalanla aldada bilməz o, məni.
İllərdir mən özüm tanıdım səni.
Bilirəm, bu işlər onun işidir.
Guya ki, oğlu da yaman kişidir.
Bir evdə vardısa iki narkaman,
Çoxdan məhv olubdu ailə inan.
Nə desən onlardan gözləmək olar.
Ağılı buyursa bu evə dolar.
Pul üçün öldürər lap adamları.
Bir damcı adama yanmaz canları.
Heç nəyin üstünü vurmaram özüm.
Üstündə olacaq hər an da gözüm.
İşçi tapım onu azıdacam mən.
Hər şeyi o zaman görəcəksən sən.
Bu nədir caladın , ay Sevinc mənə?
Nə deyim doğurdan indi də sənə?
Uşağı qoyuram bunun yanında.
Bunların nələr var gör bir canında?
İstəsə o, evdən çox şey götürər.
Adamı öldürər xətər yetirər...

****

Sonanın canını dərd, azar aldı.
Bu dərd ürəyində dərin iz saldı.
Yoxuydu gecəsi , nə də gündüzü.
Hambal tək işləyib gəzirdi düzü.
Həmişə paltarı olurdu nimdaş.
Kədərlə gəzirdi, gözlərində yaş.
Ağzında yox idi bir dənə dişi.
Bir qəpik vermirdi evə də kişi.
Hər şeyin pulunu verirdi Sona.
Heç qiymət verən də yox idi ona.
Çox vaxtda küsürdü, gedirdi əri.
Olmurdu evindən onun xəbəri.
Aylarnan qalırdı o, bacısıyla.
Sona uğraşırdı öz acısıyla.
Avara , avara Şamil gəzirdi.
Hər şeyi dağıdıb, evdə əzirdi.
İynədən vururdu, çəkirdi nəşə.
İşləyib getmirdi heç yerdə işə.
Pul üçün anaya hey vururdu zəng.
Həmişə Sonanı eyləyirdi dəng.
Yanırdı Şamilə hər an ürəyi.
Hər zaman dəyirdi ona köməyi.
Bir gün işdən evə getdiyi zaman.

Dəhşətə gəlmişdi bu arvad inan.
Mat qaldı gördüyü bu mənzərəyə.
Hər bir şey düşmüşdü düzə, dərəyə.
Aləm qarışmışdı bu evdə yenə.
Dayanıb durmurdu oğlunda çənə.
Susmaq bilməyirdi ,o, danışırdı.
Hər sözə, söhbətə çox qarışırdı.
Deyəsən bu yazıq olubdu dəli.
Kiminlə danışır indi deməli?
Sevda məhv eylədi mənim balamı.
Hər gündə bu yazıq gedir dalamı?
Pisikdi bu balam eldə, obada.
Ürəyi yanıbdı sanki tavada.
Yazığın sıçradı ağlı başına.
Bu tale yazıldı cavan yaşına.
İndi də danışır özü-özünə.
Mən necə baxacam onun gözünə?
Gecələr yatmayır, o, düz- əməlli.
Olmadı bu sevgi dərin təməlli.
Balamı yandırıb yaman yaxıbdı.
Təndirə atıbdı, şişə taxıbdı.
İndi gör nə günə qalıbdı Şamil.
Dəli tək danışır, sanki elə bil.
Mən bunun altından necə çıxacam?
Dünyanı Sevdanın üstə yıxacam.

Həyatda var mənim tək bir övladım.
İmkan vermədilər bu dadı dadım.
Açarla qapını tələsik açdı.
Gözündə elə bil ildırım saçdı.
İnana bilmədi orda gözünə.
Dizləri baxmırdı onun sözünə.
Əsməcə tutmuşdu əl-ayağını.
Güc ilə sıxdı o, tez dodağını.
Sonanın başına dünya darıydı.
Şamilin yanında bir qız varıydı.
Üzünü əsəblə tutdu Şamilə.
Söylənib yenə də o, gəldi dilə.
Bu kimdir yanına yenə almısan?
Gizlicə gətirib evə salmısan?
Özünün gül kimi bir nişanlın var.
Bunları eşitsə onda nə olar?
Yumubdu elə bil Allah gözünü.
Nə günə qoyubsan indi özünü.
Bax ona görə də qız gəlmir sənə.
Zülümün hamsı da tam dəyir mənə.
Ağzını sən açıb bir kəlmə demə.
Bu saat bu qızı burdan rədd elə.
Ayağı dəyməsin bir də bu evə.
Səni böyütmüşəm mən sevə-sevə.

İt-qurdu bu evə niyə alırsan?
Üstəlik xəlvəti onnan qalırsan.
Kül qoyum mən sənin o boş başına.
Nə deyim bəs indi dost-yoldaşına?
Qışqırıb səsini qaldırdı Şamil.
Sevda heç verməsin bir dəfəlik bil.
Sevdanın qızından guya ki, yoxdur.
Qızdan çox nə var ki, hər yerdə çoxdur.
Olmasın Fəridə bunu alaram.
Mən kimi istəsəm evə salaram.
Rədd elə nədir ki, almışam onu.
Bax budur Sevdanın qudurmuş sonu.
Bu qız da heç burdan çıxası deyil.
Ac qulaqlarını bunu esit, bil.
İndi də bu qıza üz tutdu Sona.
Söylədi: bu evdən dur rədd ol ona.
Yoxdurmu heç sənin sahibin, yiyən?
Hardasan soruşan, hardasan deyən?
Tula tək düşmüsən bunun yanına.
Vəlvələ salaram indi canına.
Tərk elə bu saat sən bu məkanı.
Başına tökərəm bütün cahanı.
Bu qız da Sonaya tərs-tərs baxırdı.
Gözləri nəşədən tamam axırdı.
Söylədi Sonanın bir baş özünə.

Tərs-tərs nə baxırsan mənim gözümə?
Heç yerə gedəsi deyiləm ki, bil!
Mənimlə yaşayır bu oğlun Şamil.
Kimsəyə hesabmı verəcəyəm mən?
Kimə istəyirsən gedib söylə sən.
Bu qız dən verirdi yenə dilinə.
Aləm qarışmışdı biri-birinə.
Sona əl uzatdı onun başına.
Başını vururdu evin daşına.
Əvvəlcə bu oğlan baxdı haraya.
Sonra da tələsik girdi araya.
Sonanın əlindən bu qızı aldı.
Aparıb qapıdan tez yola saldı.
Aləmi uçurtdu, dağıtdı arvad.
Hər yeri dağıdıb eylədi bərbad.
Bu səs-küy yayıldı ordan hər yana.
Heç cürə gəlmirdi özünə ana.
Dünyaya heç cürə o, vermirdi səs.
Çox mətəl qalırdı onu görən kəs.
Üzündə varıydı kədərdən pərdə.
O, tab gətirirdi bütün hər dərdə.
Hər gündə gəlirdi işə kədərlə.
Barışa bilmirdi belə qədərlə.
Açılmaq bilmirdi qaşı-qabağı.

Güc ilə gəlirdi dalnan ayağı.
Seyranın yazığı gəlirdi ona.
Deyirdi zəhmətkeş qadındır Sona.
Çalışıb həmişə hörmət edərdi.
Əlinə gələni verib gedərdi.
Bu işdən keçmişdi bir xeyli zaman.
Sonanı dükana göndərdi Seyran.
Qapıdan çıxan tək geriyə döndü.
Sanki, bir alovdu o saat söndü.
Gözündən gələn yaş leysan olmuşdu.
Qapqara bulud tək yaman dolmuşdu.
Sözü heç tutmurdu dili- dodağı.
Qaranlıq görürdü artıq otağı.
Hönkürə-hönkürə bərk ağlayirdı.
Sel kimi gözündən yaş çağlayırdı.
Titrəmə tutmuşdu, yaman əsirdi.
Evinə getməyə çox təlısirdi.
Yerinə yapışıb qalmışdı Seyran.
Bilmirdi nə yardım eyləsin o an.
Soruşdu arvaddan olub -keçəni.
Söylədi :qorxutdun ay Sona, məni.
De görüm, nə oldu , ay bacı sənə?
Nə xəbər verdilər indi də yenə?
Zəng etdi indicə mənə bir oğlan.
Şamili maşınnan vurublar bu an.

Dedilər vəziyyət yaman ağırdı.
Şamiln yanına məni çağırdı.
Danışa bilməyir dedilər Şamil.
Zəng edib dedik ki, vəziyyəti bil.
Sözünü deyən tək düyməni basdı.
Dəstəyi o saat yerindən asdı.
Heç zaman duymadım onun səsini.
Tanıya bilmədim dost, kimsəsini.
Bu dostu kimdi ki, dedi ay Sona?
Yenidən zəng elə indi sən ona.
Soruş bir yerini görək hardadır.
Yalanmı söyləyir, yoxsa dardadır?
Kimdir ki, bu dostu tanımırsan sən?
Nədənsə bu zəngdən şübhələndim mən.
Yığ indi yenidən sən o nömrəni.
Uşağın yerini öyrənək yəni.
Bu saat oğlana sən zəng edirsən.
Yerini bilməsən hara gedirsən?
Görürəm titrəyir ayağın, əlin.
Danışa bilmirsən, titrəyir dilin.
Ver mənə sən indi o telefonu.
Mən özüm yığaram bu saat onu.
Öyrənək yerini birlikdə gedək.
Nə lazım olarsa hər şeyi edək.

Ağlama, bir azca səbirli ol sən.
Hər şeyi bu saat həll edərəm mən.
Özünü gəl azca həm də al ələ.
Bilinmir doğurdan bir nə var hələ.
Sən yekə arvadsan, toxta bax bir az.
Öldürmə özünü belə də olmaz.
Arvad telefonu əlinə aldı.
Telefon əlində Sona mat qaldı.
Düşməyib söylədi bura nömrəsi.
Qorxutdu doğurdan bu zəng hər kəsi.
O, bağlı nömrəylə yığıbdı məni.
Narahat eylədim özüm də səni.
Seyran ona dedi, yığ bir ərini.
Eşidibmi görək lov xəbərini.
Doğurdan olsaydı elə bir xəbər.
Ona da zəng edər həmin bəxtəfər.
Qoy gedim Şamili axtarım özüm.
Kişi lap xəstədi, çox qorxur gözüm.
Qorxuram, eşitsə kişi xəbəri.
Qorxudan tutular onun gözləri.
Ürəyi xəstədir, özü də şəkər.
Gördüyüm günləri burnumdan tökər.
Sonaya gətirib su verdi Seyran.
Özünü ələ al, bir azca dayan.
İnanma oğlanın sən heç sözünə.

Zəng elə Şamilin bir baş özünə.
Sona titrəyirdi, möhkəm əsirdi.
Dişi dodağını sanki kəsirdi
Qorxaraq o, tezcə yığdı nömrəni.
Dəhşətə salırdı onu görəni.
Gözündən sel kimi tökülürdü yaş.
Baxırdı nömrəyə o, yavaş-yavaş.
Şamilin dəstəkdən gəlirdi səsi.
Az qaldı Sonanın batsın nəfəsi.
Heç nədən yoxuydu onun xəbəri.
Sonanın bərələ qaldı gözləri.
Bilmirdi ağlasın, ya da kı, gülsün.
Az qaldı ürəyi partlasın, ölsün.
Heç bir şey olmayıb ay ana, mənə.
Bilmirəm , kim deyib, nə deyib sənə?
Mən evdə oturub yeyirəm çörək.
Öyrənim zəng edən bəs kimdir görək.
Bax, qızı sən qovdun, bu evdən getdi.
Açıqla bu zəngi yəqin o, etdi.
Çünki o deyirdi o gündən mənə,
Bu baha gələcək anana, sənə.
Həmin qız heyfini çıxıbdı səndən.
Heç bir şey olmayıb, qorxma sən məndən.
Olduqca tərs qızdır, səndən öc alıb.

Yalandan zəng edib qorxuya salıb.
Donub yerinəcə yapışdı Sona.
Nə qədər pis təsir eylədi ona.
Bilmirəm heç kimin o, kimsəsidi?
Ancaq zəng eyləyən oğlan səsidi.
Şamil tez dillənib dedi: ay ana,
Bu işin başını burax bir yana.
Böyük əminliklə söyləyirəm mən.
Onların dilini bilənməzsən sən.
Bir oğlan dostuna vurdurubdu zəng.
Bununla başını egləyibdi dəng.
Küsmüşdü o günlər sənin sözündən.
Qisası aldılar elə özündən.
Seyran yerindəcə donub qalmışdı.
Fikir ürəyində lövbər salmışdı.
Kənardan dayanıb baxırdı ona.
Tir-tir yerindəcə əsirdi Sona.
Düşünüb, daşınıb verdi bir qərar.
Qoy səni evinə aparsın Sərdar.
Get evdə rahatlan, özünə gəl sən.
Əvvəldən oyuna bənzətmişdim mən....

*****

Sona dediyini deyib dururdu.
Gah nala, gah da ki, mıxa vururdu.
Sevdadan çəkmirdi heç bir cürə əl.

Deyirdi toyumu edəcəm əvvəl.
Toyumda iştirak eyləyərsiz siz.
Bütün işimizi həll eləyək biz.
Qızı da gətirin qoy görsün hamı.
Yoxsa el qınayar bütün adamı.
Gətirin məclisə görsünlər onu.
Əyninə geyinsin gəlinlik donu.
İstəyirəm mən də gətirəm gəlin.
Bir yolluq ağzını yumam bu elin.
Anayam mənim də arzularım var.
Bu toyu görməyim savab iş olar.
İstəməz çıxmasın gəlin məclisə.
Otursun otaqda vallah, gizlicə.
Eləcə görsünlər gəlibdi bizə.
Yenidən qayıdar öz evinizə.
Mən edim toyumu qoy verim yola.
Sonra da nə bilim nə olar, ola!
Ay quda, sən allah, eyləmə tərslik.
Mən sənə nə etdim, gördün nə pislik?
Həmişə sən məndən görmüsən xeyir.
Fəridə bu işə özü nə deyir?
Şamili sevirdi, nə oldu ona?
Məhəbbət qurtarıb yetişdi sona?
Hardadı Fəridə görünmür gözə?

Heç qulaq asmayır deyilən sözə.
Çox tərs-tərs baxırdı Sevda Sonaya.
Deyirdi, nə deyim sən tək anaya?
Bu sözü mən dedim gör neçə kərə.
Ağzımda deyirəm qız gedib ərə.
Elə dediyini deyib durursan.
Gah nala, gah da ki, mıxa vurursan.
Qızmı var gətirim mən verim sənə?
Başımı apardın sən mənim yenə.
Bax, özün bilərsən, nə borcuma get.
Ürəyin istəyir lap toyunu et.
Mən sənin qapına basmaram ayaq.
Bütün sözlərimi demişəm bayaq.
Sonanın varıydı öz planları.
İstəyirdi tora salsın onları.
Başında varıydı min cürə xəyal.
Elə gah danışır, gah da olur lal.
İstəyirdi qızı toya gətirsin.
Burda da bu işi tamam bitirsin.
Deyirdi yəqin ki, bu deyir yalan.
Toy vaxtı gələrlər hamısı o an.
Gələndə aldadar, qızı da verməz.
Yerini onlara bir daha deməz.
Bir xəbər yayıldı elə, obaya.
Sona çağırırdı hamını toya.

Həyətdə böyük bir çadır quruldu.
Çadıra bər-bəzək, xalça vuruldu.
Kəsildi heyvanlar, asıldı qazan.
Qonaqlar gəlirdi ora anbaan.
Hər yana yayıldı çalğının səsi.
Oyuna səslədi bütün hər kəsi.
Heç kimin bu işdən yoxdu xəbəri.
Hər şeydən xəbərsiz olmuşdu əri.
Bütün olanları bilmirdi kişi.
Sona korlamışdı bütün hər işi.
Arvadın yoxuydu dünyada halı.
Artıq pisləşirdi onun əhvalı.
Yollarda qalmışdı ananın gözü.
Bilmirdi heç kimə dediyi sözü.
Qarnından qapqara qanlar axırdı.
Təlaşla qız gələn yola baxırdı.
Yoxuydu qızgildən heç xəbər daha.
Hər bir şey qalmışdı indi Allaha.
Artıq yavaş-yavaş keçirdi zaman.
Sona nə hallara düşürdü inan.
Heç halı yoxuydu onun özündə.
Kədər fırlanırdı qara gözündə.
Hamı soruşurdu nə olub sənə?
Aləmlə bir olub qaş-qabaq yenə.

Həyatda ən gözəl günündür sənin.
Evunə gələcək gözəl bir gəlin.
Qolunu sən qaldır, gəl gir meydana.
Səs-səmir yayılsın bütün hər yana.
Sona tez Sevdaya telefon açdı.
Ağappaq ağardı, rəngi də qaçdı.
Gördü ki, söndürüb o, telefonu.
Sanki bir cərəyan kül etdi onu.
Bildi ki, bu xına o xına deyil.
Gəlinə salmışdı olduqca meyil.
Artıq arzuları dəymişdi daşa.
Bələndi gözündən tökülən yaşa.
Təlaşla baxırdı hamı Sonaya.
Dedilər nə olub görən anaya?
Sona hönkürərək bərk ağlayırdı.
Gözündən sel kimi yaş çağlayırdı.
Dedilər sevincdən ağlayır ana.
Dünya bir yanadır, Şamil bir yana.
Gözünün həm ağı, həm qarasıdı.
Bu onun yeganə, tək balasıdı.
Sonanın getdikcə pozuldu halı.
Anbaan pisləşdi onun əhvalı.
İynədən vurdular, verdilər dərman.
Cıt ötdü, az qala ölmüşdü inan.
Lap yaxın qohumlar bildilər işi.

Mat olub yerində qalmışdı kişi.
Az qala onu da infakt vurmuşdu.
Məclisin önündə güclə durmuşdu.
Toy öz axarınnan davam edirdi.
Kimi toya gəlir, kimi gedirdi.
Qohumluq bununla yetişdı sona.
Nöqtə qoyulmuşdu bir daha ona.

******

Aradan keçmişdi bir xeyli zaman.
İşlər qaydasına düşürdü inan.
Artıq quda deyil, düşmən oldular.
Zamanla uşaqlar yaşa doldular.
Həyat axarınnan davam edirdi.
Hamı öz işinə çıxıb gedirdi.
Şamil qoşulmuşdu narkamanlara
Pul, para çatmırdı heç vaxt onlara.
Nəşədən çəkdilər, dava saldılar.
Layiqli cəzanı hamsı aldılar.
Şamilə iki il kəsdilər cəza.
Orda da törətdi nə qədər qəza.
Hər an bazarlıqı ana edirdi.
Şamilin dalınca tez-tez gedirdi.
Həmişə gedəndə onun yanına.
Üşütmə düşürdü vallah , canına.

Hər şeyə varıydı çox ehtiyacı.
Vəziyyət olurdu getdikcə acı.
Bircə ay getməsə dalınnan əgər.
Aləm bir-birinə o saat dəyər.
Özünü o oda , közə vururdu.
Sumkalar əlində orda dururdu.
Zindana yol açıb, cığır salmışdı.
Bir yolluq fikiri orda qalmışdı.
Həm paltar aparır, həm kartof, soğan.
Xörəyi bir aylıq qoyur hər zaman.
Dözməyir Sonanın ana ürəyi.
Odlanır, kül olur onun kürəyi.
Türmədə pul, para verməsə əgər,
Nöbədə olanlar adamı göyər.
İçəri buraxmır heç nəyi onda.
Nöbbətçi pul alır nə qədər sonda.
Bütün yeməklərin içi yoxlanır.
Şübhəli şeylərin hamsı saxlanır.
Türmənin yolunda qalmışdı Sona.
Heç sağ ol demirdi Şamili ona.
Çatdıra bilmirdi pulu, paranı.
Bilmirdi talasın indi haranı.
Seyranın evində tutar qalmadı.
Heç nəyi bir qram vecə almadı.
Seyranın olmurdu ondan xəbəri.

Əlinə almışdı bütün işləri.
Cummuşdu it kimi evə- eşiyə.
Məhəl də qoymurdu orda kişiyə.
Əvvəlcə hər şeyin yerin dəyişdi.
Gördü ki, bu yaman gözəl bir işdi.
Əl atdı gizlicə o, paltarlara.
Gizlətdi ağlına gəldisə hara.
Bir-bir çantasına onlardan atdı.
Yarı qiymətinə hamıya satdı.
Edirdi bunları o, bilə-bilə.
Pulları verirdi çünki Şamilə.
Özünü lap oda, közə vururdu.
Gözünün önündə Şamil dururdu.
Heç nəyi görmürdü elə bil gözü.
Bütün planları qururdu özü.
Elə ki, gedirdi toya , nişana,
Bir kəlmə demirdi onda Seyrana.
Hər şeyi xəlvəti alıb gedirdi.
Nəyi istəsəydi onu edirdi.
O itən əşyanı axtarsa Seyran,
Gətirib yerinə qoyardı o an.
Seyran mat qalırdı özü-özünə.
İnana bilmirdi onda gözünə.
Düşünüb nə qədər fikrə gedirdi.

Sonanı çağırıb sual edirdi.
Bununçün gəzmişdim evi, eşiyi.
Baxmamış qoymadım bircə deşiyi.
Əşyanı qoyduğun o yer boşuydu.
Doğruluq hər şeydən mənə xoşuydu.
Ay həkim, bilmirəm nə deyim sənə.
Baxdığın yerlərə bir də bax yenə.
Heç yerə əməlli baxmayırsan sən.
Bəs buna nə edə bilərəm ki, mən?
At kimi dururdu onun üzünə.
Məhəl qoymayırdı heç bir sözünə.
Zarafatla Seyran deyirdi hərdən.
Heç gözüm su içmir mənim bu evdən.
Elə bil bu evdə dolanır şeytan.
Şeylərin yerini dəyişir hər an.
Hər bir şey gah itir, gah da tapılır.
Ev-eşik elə bil vallah, çapılır.
Bu dünya malları burda qalacaq.
Oğurluq adamı gözdən salacaq.

*****

Borcu borc üstünə yığırdı Sona.
Hər gündə girirdi düz min cür dona.
Oğurluq varıydı onun qanında.
Fırlanıb qalırdı elə canında.
Artıq öyrəşmişdi onun əlləri.

Xəlvətcə gəzirdi bütün cibləri.
Əlinə keçəni xəlvət alırdı.
Hər şeyi cibinə gizli salırdı.
Bir gün işdən gəlib yatmışdı Seyran.
Çox ağır xəstəsi olmuşdu yaman.
Çantadan dört dənə yüzlüyü aldı.
Güzgünün önündə bir qaba saldı.
Özünü yatağa nə güclə atdı.
Ölü tək uzanıb möhkəmcə yatdı.
Telefon səsinə birdən oyandı.
Dirsəyi üstünə durub dayandı.
Pullara sataşdı birinci gözü.
Quruyub yerinə yapışdı özü.
Güzgünün önündə bir yüzlük vardı.
Yüzlüyün üçünü bəs kim apardı?
Atlayıb yerindən ayağa durdu.
Başında min cürə xəyallar qurdu.
Axtardı otağı, bütün hər yanı.
Əsəbdən lərzəyə gəlirdi canı.
Onun döşəməyə gözü sataşdı.
Əsəbdən səbiri olduqca daşdı.
Pulların içindən pul sürüşmüşdü.
Yüzlüyün ikisi yerə düşmüşdü .
O, tapa bilmədi pulun birini.

Axtardı otağın bütün yerini.
Sonanı çağırdı sonra yanına.
And verdi oğlunun şirin canına.
Bir sual edəcəm, mən indi sənə.
Gəl indi sən yalan söyləmə mənə.
Yüz manat yox olub qabın içindən.
Oraya qoymuşdum bir az öncə mən.
O qabın içindən niyə alıbsan?
Pulun bir hissəsin yerə salıbsan.
Sənə kim dedi ki, ordan alasan?
İndi bu durumda burda qalasan.
Sona heç pozmadı indi halını.
Əlinnən yoxladı qabın dalını.
Bəlkə də şkafın düşüb dalına.
Yanıram mən indi sənin halına.
Bu işlər hey gəlir sənin başına.
Vallah, heç yaraşmır nə də yaşına.
Həmişə yalandan hay-küy salırsan.
Yenə də ortada özün qalırsan.
Bu sözlər qılınc tək kəsdi Seyranı.
Daha da odlandı yazığın canı.
Az qaldı əyilsin ağızı , gözü.
Əsib, titrəyirdi əsəbdən özü.
O, tərs-tərs Sonanın baxdı üzünə.
Əsəbdən əlini çırpdı dizinə.

Oynatma deyirəm əsəblərimi.
Soxaram gözünə vallah, əlimi.
Pulun ayağı var, hoppanıb gedib?
Taxtanın dalına pul səfər edib?
Bu pulu atmışam qabın dibinə.
Atmadım qoyasan sən də cibinə.
Bu evdə bir sənsən, bir də ki, özüm.
Daha qalmayıbdı sənə heç sözüm.
Sən məni dəlimi hesab edirsən?
Pulları götürüb çıxıb gedirsən?
Sənə kim deyibdi pullara əl vur?
Həmişə demişəm puldan uzaq dur.
Bilmirəm, ay həkim, nə deyirsən sən?.
Sənin o pulunu neynəyirəm mən?
Yəqin külək açıb bu pəncərəni.
Günahkar görürsən bax sən də məni.
Pəncərə bağlıdır, deyirəm sənə.
Üstəlik nağıl da söylədin mənə.
Ağlına gələni gətdin dilinə.
Sən məni qoyibsan dəli yerinə.
Zəng edib deyərəm yoxsa ərinə.
Gətir qoy pulları indi yerinə.
Sona tez yaylığı əlinə aldı.
Ucuna bir neçə düyün də saldı.

Bağladım şeytanın mən quyruğunu.
Bax sabah tapacam sənin pulunu.
Nifrətlə Sonaya baxırdı Seyran.
Söylədi: burda var bir dənə şeytan.
Özünü yığışdır deyirəm sənə.
Yalandan hekayə oxuma mənə.
Bilmirəm şeytansan, ya da ki, cinsən.
Doğurdan sən məni yaman minmisən!
Həmişə keçirəm mən günahından.
Ancaq əl çəkmirsən heç tamahından.
Nə qədər mən sənə hörmət edirəm.
Elə ki, üz tutub evdən gedirəm,
Yenə də işindən qalmırsan dala.
Divarı sökürsən onda az qala.
Həmişə, hər şeydən olur xəbərim.
İşdən çıxart onu söyləyir ərim.
Evdə qoymayırsan hər zaman tutar.
Əlinə keçəni lap qopart, apar.
Gör neçə illərdır sən işləyirsən.
Çörəyi mənimlə bir dişləyirsən.
Həmişə baxıram kameraya mən.
Bu evi talayıb aparırsan sən.
Nədənsə yazığım gəlir heyy sənə.
Nə qədər zıyanlar vurursan mənə!
Mən özüm verirəm yumurta, ət, bal.

Pul verib deyirəm istədiyin al.
Baxıram çay qalmır qutu da yenə.
Nə deyim bilmirəm daha mən sənə.
Nə qədər versəm də doymayır gözün.
Xəlvətcə yığırsan hər şeyi özün.
Elə bil üzündə şeytan tükü var.
Bu evdə nə qədər oğurluq olar?
Həmişə danışıb deyirəm sənə.
Evimdə oğurluq kəsilmir yenə.
Oğurluq işləyib sənin qanına.
Təsir də etməyir sözlər canına.
Üstəlik günahkar görürsən məni.
Heç kimsə işlətməz bircə gün səni.
Əl çəkə bilmirsən sən bu peşəndən.
Səninçün nə edim, heç bilmirəm mən?
Çünki heç doymayır, heç zaman gözün.
Bir yaxşı fikirləş, bir daha özün.
Gecə keçib getdi açıldı səhər.
Sona gəlib işə çatdı bir təhər.
Fırlandı o yana, bir də bu yana.
Nəhayət üz tutdu evdə Seyrana.
Mən yığım birinci öz otağını.
Salım səliqəyə tez yatağını.
İşləri qurtarım gələrəm yenə.

Nə desən köməklik edərəm sənə.
Aradan keçmişdi azca bir zaman.
Sonanın dalınca üz tutdu Seyran.
Hər yana baxaraq nəzər salmışdı.
Otağa girəndə o, mat qalmışdı.
Seyranın bir böyük şkafı vardı.
Bu şkaf divarnan düz bir olardı.
Gücü çatmayırdı heç kimin ona.
Divardan şkafı çəkmişdi Sona.
Gördü ki, yorulub oturub yerdə.
Üstəlik Seyranı çağırır bir də.
Mən bunu səninçün çəkmişəm həkim.
Şkafı tərpədə bilməyir heç kim.
Diqqətlə dalına indi bax özün.
Ordakı hər şeyi görəcək gözün.
Seyran mat qalmışdı bundakı gücə.
Şkafı o, çəkib görəsən necə?
Şkafın dalına baxdı o saat.
Gördü ki, dayanıb orda yüz manat.
Sən evi bu günə niyə salmısan?
Ortada yalandan belə qalmısan.
Anlaya bilmədim heç zaman səni.
De görüm nə hesab eylədin məni?
Savadsız qadınsan ağarıb başın.
Əlliyə çatıbdı indi də yaşın.

Fiziki qanundan yoxdu xəbərin.
Oğurluq eyləyir bu başla əlin.
De görüm, allahın hansı bir qulu,
Bax belə bir yerə atıbdı pulu.
Bu pulun de görüm, varmı qanadı?
Oğurluq deyilmi bunun da adı?
Get söylə bu işi sən hər bir kəsə,
Pul uçub oraya girər kim desə,
Sən gətir adamı mənim yanıma.
Tüpürsün bu millət onda canıma.
Durduqca titrəyir əlim, ayağım.
Əsəbdən çatlayıb vallah, dodağım.
Bax gör nə hoqqalar dalınca qaçdın.
Senari yaratdın, teatr açdın.
Sən o, boş başınla aldatma məni.
Biabır edərəm bu eldə səni.
Döşəmə üstündə oturdu Sona.
Sanki heç bu sözlər çatmırdı ona.
Söylədi : nə deyim, ay həkim yenə,
Heç cürə yaxşılıq yaramır sənə.
Şeytanın açmışam mən quyruğunu.
Onunçün tapmışam indi pulunu.
Deyirəm , mənə də haqq olur yenə.
Mən niyə tapıram pulları sənə.

Olduqca qəribə söz dedin Sona.
Pul nədən itir ki, dəyməsən ona.
Sən götür pulumu yerə səpələ,
Günahkar gör məni, üstəlik hələ.
Artıq sus düşmüşdü Sonanın özü.
Aldada bilmədi Seyranı sözü.
Seyran toparladı artıq özünü.
Sonaya bir yolluq dedi sözünü.
Bu cürə bu işlər getməz heç zaman.
Azadsan işindən daha bu andan.
Həmişə kecirəm günahından mən.
Yenidən oğurluq eyləyirsən sən.
Tarıma çəkilir lap əsəblərim.
Titrəyir ürəyim, əsir əllərim.
Mən sənə nə qədər verirəmsə pay,
Qabda heç qalmayır dəmləməyə çay.
Atırsan çantaya pendiri, yağı.
Sən necə yeyirsən, olmurmu ağı?
Hər şeyi görürəm, kor deyil gözüm.
Bilirəm, demirəm heç sənə özüm.
Daşıdın, bankadan hər zaman balı.
Pozulur adamın ovqatı, halı.
Bu gündən bunlara qoyaq nöqtəni.
Evimdə nə qədər saxlayım səni?
Kədərlə baxırdı Seyrana Sona.

Başlayıb ağladı, söylədi ona.
Bircə ay möhlət ver, çıxartma məni.
Bir daha narahat etmərəm səni.
Bilirsən var mənim çox ehtiyacım.
Yüküm lap böyükdür, ağırdır acım.
Özümə yeni bir iş taparam mən.
Onda da bu işdən çıxardarsan sən.
Mən sənin evində kəsmişəm çörək.
Bütün günahımdan keçəsən gərək.
Sən axı çörəyə hörmət qoymadın?
Heç zaman verilən şeylə doymadın.
Ay həkim, bunları mən yeyim bir ay.
Bəs sonra kim verər mənə belə pay?
Seyran əsəbindən yandı, alışdı.
Əhvalı olduqca tamam qarışdı.
Ay Sona , deyəsən olubsan dəli,
Hər bir şey gördüyün işindən bəlli.
Bu sözü sən niyə deyirsən mənə?
Bunların hamısı aiddir sənə.
Bütün bu ağılı sən ver özünə.
Fikir ver dediyin hər bir sözünə.
Əgər sən işimdən çıxartsan məni,
Uşaqlar günahkar bilərlər səni.
Elmanla Telmanı böyütdüm özüm.

Budur ki, sənə də, ay həkim sözüm,
Ayırma onlardan sən məni bir an.
Sonunda olarsan özün də peşman.
Onlar da ana tək bilirlər məni.
Doyunca de harda gördülər səni.
Uşaqlar böyüyüb başa çatıblar.
Onlar uşaqlığın daşın atıblar.
Yetkinlik yaşına gəlib çatıblar.
Qabaqda toy-büsat gözləyir səni.
Nə olar işimdən çıxartma məni.
Qoy görüm onların mən də toyunu.
Sevmişəm balam tək hər an boyunu.
Yerindən tərpənməz çöpün də daha.
Səni and verirəm gözəl Allaha.
Seyranın yazığı gəlirdi ona.
Ürəyi yumşalıb dedi , ay Sona,
Sənin tək adamı görməmişəm mən.
Düzələ bilməzsən heç bir zaman sən.
Oğurluq yeriyib sənin qanına.
Yayılıb damarla bütün canına.
Artıq sən bu yolun yolçusu oldun.
Evimdə mənimlə bir yaşa doldun.
Əlindən qoymadın axı peşəni.
Əsəbdən öldürdün həmişə məni.
Həmişə keçmişəm mən günahından.

Amma sən keçmədin heç tamahından.
Çox şeydən olmayır sənin xəbərin.
Hər şeyi cibinə atır əllərin.
Sən onu bilmirsən həmişə, hər an.
Kamera göstərir səni anbaan.
Həmişə hər yerdən izləyir Mərdan.
Deyir ki, rədd elə Sonanı burdan.
Mənim də üz -gözüm öyrəşib sənə.
İş tapıb sonra da çıxarsan yenə.

*****

Mərdanın üzünə çıxmırdı Sona.
Qorxurdu ağır bir söz deyər ona.
Bir xeyli sakitcə gəzdi, dolandı.
İşində qalmağa tamam inandı.
Seyran düşünürdü etməz bir daha.
Edərsə, çıxardar qalmaz sabaha.
Sonanın Şamili çıxdı türmədən.
Həminki həyata döndü yenidən.
Bir xeyli özünü düzəltdi Sona.
Heç kimsə qoy oğru deməsin ona.
Bir gün evdən işə gəldiyi zaman.
Polislər küçəylə bir idi o an.
Qonşunun qapısı açıq qalmışdı.
Polislər elə bil iyi almışdı.

Dolmuşdu hamısı evə -eşiyə.
İmkan vermirdilər bircə kişiyə.
Yerindən tərpənsin girsin içəri.
Polislər tutmuşdu bütün yerləri.
Sona dönüb baxdı, gördü ki, birdən.
Polislər bu evdən çıxdı qəfildən.
Onların önündə vardı bir qadın.
Sona tanıyırdı, bilirdi adın.
O, qadın bu evdə çalışanıydı.
Hər dərdə qaynayıb qarışanıydı.
İllərdi bu evdə o, işləyirdi.
Çörəyi onlarla bir dişləyirdi.
Polislər əlinə qandal vurmuşdu.
Qolundan tutaraq möhkəm durmuşdu.
Basdılar tələsik onu maşına.
Heç kimsə baxmadı axan yaşına.
Sona tez soruşdu orda polisdən,
Bu nə eyləyibdi, şoka düşdüm mən.
Dedilər, bu qadın yolunu azıb.
Əlinnən özünə o, quyu qazıb.
İyirmi il bir evdə işləyən qadın.
İtirib özünün çox təmiz adın.
Oğurluq adını artıq alıbdı.
Özünü bu günə özü salıbdı.
Baxanda Sonanın qaraldı qanı.

Qorxudan lərzəyə gəlirdi canı.
Ay allah, burda var nə qədər kişi?
Nə üçün görübdü yazıq bu işi?
İndi də Sonanın ağardı rəngi.
Özü hiss etmədən basırdı zəngi.
Seyran içəridən qapını açdı.
Sonanın elə bil dalağı sancdı.
Tələsik özünü içəri saldı.
Qorxudan bürüşüb yerində qaldı.
Gözləri önündə canlandı özü.
Meyit tək olmuşdu o anda üzü.
Ay allah, nə pisdir bu işin sonu?
İndi kim qurtarar türmədən onu?
Yaxşı ki, düşmədim heç bu günə mən.
O, ordan qurtara bilərmi görən?
Daha heç bir şeyə əl atmayacam.
Aləmi ömrümdə mən qatmayacam.
Qorxuram bu gündən tövbə edəcəm.
Artıq öz yolumnan təmiz gedəcəm.
Yaxşı ki, polisə verməyir Seyran.
Oğurluq etmərəm bir daha inan.
Bir də ki, mən yazıq nə götürürəm?
Guya ki, evimə nə ötürürəm?
Mənim apardığım xırda-xuruşdu.

Cibindən aldığım qəpik-quruşdu.
Onunçün çıxardır mənim gözümü.
Az qala öldürə vallah, özümü.
Bir daha heç bir şey götürmərəm mən.
Qonşunun axırı nə oldu görən?
Sonanı görəndə mat qaldı Seyran.
Bildi ki, qorxudan o, əsir bu an.
Dedi ki, qonşunu gördünmü Sona.
Oğurluq nə verdi sonunda ona?
İyirmi il bu evdə o çalışıbdı.
Hamıya qaynayıb lap qarışıbdı.
Bilmirəm nə dolub beyninə birdən,
Bu evi soyubdu özü qəfildən.
Seyfin qapağını tamam qoparıb.
Bütün qızılları , seyfi aparıb.
Görürsən, nə oldu indi, ay Sona?
Kim yardım eyləyə biləcək ona?
Qızıllar heç ona nəsib olmadı.
Cibləri pul ilə, vallah dolmadı.
Bu dunya malları burda qalacaq.
Ömürlük oğurluq adı alacaq.
Gör necə bir ləkə vurdu adına.
Heç kimsə çatmayır indi dadına.
İşıqlı həyatdan o, məhrum oldu.
Bütün arzuları çiçək tək soldu.

Sonanın bir qədər qorxmuşdu gözü.
Yerindən almadı heç nəyi özü.
Aradan bir xeyli keçmişdi zaman.
Telmana gözaltı etmişdi Seyran.

******

Uzaq bir qohumdan bir qız aldılar.
Toy edib bu toydan məmnun qaldılar.
Seyran heç bilmirdi gəlin dadını.
Ancaq çox sevirdi hər bir qadını.
Yenə də çıxmışdı o, axtarışa.
Baxmırdı nə yaya, nə qarlı qışa.
Boylanıb baxırdı o yan, bu yana.
İndi qız gəzirdi ana Elmana .
Bir gün Elman gəlib dedi Seyrana.
Mən özüm bir gözəl tapmışam, ana.
Uzaqdan vuruldum həmin gözələ.
Haqqında heç bir şey bilmirəm, hələ.
Vuruldum o, qızın mən qaş-gözünə.
Çox həsəd apardım, vallah özünə.
Belə bir gözəli heç görmədim mən.
Hər şeyin şahidi olacaqsan sən.
Bu işə olduqca Seyran şad oldu.
Sevinci yağ kimi qəlbinə doldu.
Qurbanam ay Allah, söylədi sənə.

Nə yaxşı göstərdin bu günü mənə.
Yaxşı ki, bu qızı tapıbdı özü.
Onların heç olmaz söhbəti- sözü.
Yəqin bir -birini verərlər yola.
Gələcək göstərər kaş sağlıq ola.
Aradan keçmişdi bir xeyli zaman.
Seyranın yanına üz tutdu Elman.
Mən qızın özündən izin almışam.
Bütün hər bir şeydən məmnun qalmışam.
Atamla birlikdə indi siz gedin.
Qanuni olaraq elçilik edun.
Nişan tax, sonra da biz toy edərik.
Bir müddət kecəndə köçüb gedərik.
Sizinlə yaşamaq istəmir Sevil.
Qoy deyim bunu da sən indidən bil.
Atama deyərsən ev alar bizə.
Yük olmaq istəmir Sevil də sizə.
Vermişik biz artıq belə bir qərar.
Qız gildə bu işə çox razılıq var.
Nə deyim, ay oğul, söylədi ana.
Dünya bir yanadı, sən də bir yana.
Görürəm doğurdan sevirsən onu.
Toy ilə qurtarar bu işin sonu.
Seyran qayda ilə hazırlıq etdi.
Mərdanla qız gilə o, elçi getdi.

Qayda -qanun ilə həri aldılar.
Bu işdən olduqca razı qaldılar.
Süfrələr açıldı, şənlik quruldu.
Sevinclə badələr vuruşduruldu.
Bir üzük taxdılar orda gəlinə.
Üzük çox yaraşdı onun əlinə.

*****

Hər bir şey Elmanı məmnun edirdi.
İşlər öz yolunnan rahat gedirdi.
Artıq az qalmışdı toyun vaxtına.
Elman çıxacaqdı bəylik taxtına.
Gəlinlik donuna baxırdı Seyran.
Qız gilə gedirdi istədiyi an.
Onların evində olduğu zaman.
Qəribə bir söhbət eşitdi o an.
Elə bil Seyranı ildırım vurdu.
Təccübdən o saat ayağa durdu.
Yazığın tutuldu sanki qulağı.
Əsəbdən çatladı onun dodağı.
Öyrəndi, bildi ki, duldu bu gəlin.
Ağzını mən necə yumacam elin?
Allahım, bu nədi gəldi başıma?
Nə deyim bacıma, ya qardaşıma?
Qaynanam, baldızım öldürər məni.

Deyərlər nə məcbur eyləyib səni?
Sən subay oğluna dulmu alıbsan?
Özünü belə bir işə salıbsan.
Nə gəlib tər-təmiz qız uşağına?
Sən dulu salırsan öz ocağına.
Güc - bəla evinə yollandı Seyran.
Elmanla üzbəüz gəldi həmən an.
Təlaşla boylandı o yan, bu yana.
Hər şeyi oğluna söylədi ana.
Aç qulağlarını indi eşit , bil.
Bu evə gəlin tək gələmməz Sevil.
Mən subay oğluma dul alammaram.
Gətirib evimə heç salammaram.
Qohumlar eşitsə öldürər məni.
Xəbərdar edirəm indidən səni.
Bu qədər özümü öldürürəm mən.
De görüm, bu işi bilirdinmi sən?
Diqqətlə dinlədi ananı Elman.
Söylədi: mən indi öyrəndim inan.
Bir də ki, dul olsa nə olar ana?
Buraxa bilmərəm onu heç yana.
Kim nə söyləyirsə, nə desə sənə,
Sözlərin heç biri çatmayır mənə.
Bu sözü bılirsən tək bircə özün.
Tam burda qalacaq dediyin sözün.

Bilmək istəyirsən əgər düzünü.
Bil ki, mən sevirəm onun özünü.
Seyranı elə bil cərəyan vurdu.
Acıqla sıcrayıb yerindən durdu.
Ölsəm də mən onu alan deyiləm.
De görüm, mən nədən ona əyiləm?
Sən özün bilərsən, deyirəm ana.
Dünya bir yanadır, Sevil bir yana.
İndidən düzünü deyirəm sənə,
Əgər sən Sevili almasan mənə,
Mən nəyi istəsəm onu edəcəm.
Bu evi tərk edib çıxıb gedəcəm.
Donub yerindəcə qalmışdı Seyran.
Qorxuya düşmüşdü elə həmin an.
Sevili almasa gedərmi Elman?
Bu sual içini yeyirdi inan.
Düşündü, daşındı nə qədər ana.
Bu sirri demədi evdə Mərdana.
O, özü - özünə verdi bir qərar.
Düz deyir, dul olsa guya nə olar?
Əsası odur ki, oğlumu sevir.
Nə lazım bu qədər bunu çək- cevir?
Bu aləm bu işi bilməlidirmi?
Ərdən boşanıbsa ölməlidirmi?

Köhnə fikirlidir baldız, qaynana.
Hamı bir yanadır, onlar bir yana.
Bilsələr hamısı bütün bu işi,
Başımda turp əkər üstəlik kişi.
Oğlumun xətrinə verəcəm yola.
Bilmirəm sonrası artıq nə ola?
Kimsəyə bir kəlmə demərəm özüm.
Aləmlə bir olar söhbətim, sözüm.
Oğlumu itirmək istəmirəm mən.
Xeyrini özün ver ey allahım, sən.
Toy edib Sevili gəlin gətirdi.
Bununla bu işi tamam bitirdi.

*****

Aylar dolanırdı, gəlirdi illər.
Növbəynən keçirdi bir-bir fəsillər.
Nəvələr gəlmişdi artıq dünyaya.
Onlar səs salmışdı günəşə, aya.
Uşaqlar böyüyür, artırdı sayı.
Yaradan vermişdi nəvədən payı.
Həyat öz yolunnan davam edirdi.
Sona da işinə gəlir- gedirdi.
Günlərin birində bir axşam çağı,
Silib-süpürürdü Sona otağı.
Arada Seyranla söhbət edirdi.
Hər işin dalınnan Sona gedirdi.

Bu zaman Sonaya söylədi Seyran.
Ay Sona, gün keçir, dəyişir dövran.
Şamilə bir qız tap, evləndir onu.
Dünyanın hələ ki, gəlməyib sonu.
Sonanı elə bil cərəyan vurdu.
Olduğu yerdəcə quruyub durdu.
Təccüblə Sonaya baxırdı Seyran.
Söylədi : nə oldu sənə bax bu an?
Ay həkim, Fəridə düşdü yadıma.
Tək uyğun görürdüm onu adıma.
Heç kimə isinmir mənim ürəyim.
Yadıma düşəndə yanır kürəyim.
Ay Sona, bu nədir, nə danışırsan?
Yalandan odlanıb, sən alışırsan.
O, zaman səs saldın bütün hər yerə.
Deyirdin Fəridə gedibdi ərə.
Çox yaxşı bilirsən bu mümkün deyil.
Heç zaman sizlərə dönməz onu bil.
O, ərli qadındır deyirsən özün.
Yenə də ondadı , elə bil gözün.
Bu sözü ürəkdən deyirəm sənə.
Bir qız tap oğlunu evləndir yenə.
Sən də bir dadginən nəvə dadını.
Qız olsa verərsən ona adını.

Ay həkim, bu nədir, nə deyirsən sən?
Adımı heç kimə verəmmərəm mən.
Elə bir iş olsa o zaman əgər,
Kişi öz adını istəsə deyər.
Nə qədər qızlar var, özü də çoxdu.
Şamilin evlənmək fikiri yoxdu.
Aradan keçmişdi azca bir zaman.
Otağın qapısı açıldı bu an.
Sevinc tez içəri keçdi otağa.
Sona da irəli gəldi qabağa.
Onlar qucaqlaşıb, həm öpüşdülər.
Mehriban-mehriban tez görüşdülər.
Seyranla görüşüb keçdi divana.
Boylandı o yana, bir az bu yana.
Soruşdu: ay Sona, necədir nəvən?
Görürsən, nə qədər var onu sevən?
Özü bir şenlikdi balaca kişi.
Aləmi qatmaqdı tək bircə işi.
Nə qədər bənzəyir öz atasına.
Dözürsən sən onun hər xatasına.
Görürsən nə qədər şirindir özü?
Şamilə bənzəyir o qara gözü.
Arvad bir nəfəsə hey danışırdı.
Sevinci başından sanki aşırdı.
Sona da quruyub orda qalmışdı.

Xəcalət üzünə pərdə salmışdı.
Yanaqlar köz kimi lap alışırdı.
Hər bir şey gözündə tam qarışırdı.
Gözləri Sevincin üzündə qaldı.
Tər onun alnında bir cığır saldı.
Sevinci gözünnən istədi yesin.
Bilmədi sözünü heç necə desin.
Seyran da baxırdı onun üzünə.
Hər şeyi deyirdi Sevinc düzünə.
Saxlaya bilmədi, Seyran özünü.
Nəhayət Sonaya dedi sözünü.
Anlaya bilmirəm ay Sona, səni?
Axı nə yerinə qoyubsan məni?
Sən niyə gizlətdin bu işi məndən?
Tərslikdən indicə soruşdum səndən.
Qorxursan nəvənə dəyəcək gözüm?
Gör neçə nəvəyə sahibəm özüm?
Sonanın əsirdi əli, ayağı.
Tir-tir titrəyirdi sanki dodağı.
Bilmirdi nə desin Seyrana özü.
İlişib qalmışdı ağzında gözü.
Sevincin acıqla baxdı üzünə.
Əsəblə əlini çırpdı dizinə.
Yenidən Seyrana tutdu üzünü.

Deyəcəm mən sənə indi düzünü.
Yenə də yalançı oldum yanında.
Nələr var deyərsən, yenə canında.
Deməyə utandım bunları sənə.
Cünki xoş gəlmirdi bu gəlin mənə.
Oğluma qoşulub gəlibdi özü.
Utandım deməyə mən də bu sözü.
Heç cürə mən onu qəbul etmirdim.
Qaldığı yerə də vallah, getmirdim.
Artıq o, gələndə iki canlıydı.
Qəbul etməyirdim, mənlə qanlıydı.
Neynirəm, o cürə gələn gəlini.
Görmək istəmərəm sırtıq, dəlini.
Bax , ona görə də gizlətdim səndən.
İncimə ay həkim, sən allah məndən.
Kirədə qalırdı məndən aralı.
Nə qədər olmuşdu qəlbim yaralı.
Yanına getmədim onun heç zaman .
Yadıma düşmədi bir dəfə inan.
Hərə bir tərəfdən danladı məni.
Dedilər sahib çıx gəlninə yəni.
Günlərin birində bazarlıq etdim.
Üzümü pis tutub onlara getdim.
Bilmədim heç necə oldusa özüm.
Çəpləşdi gəlinlə yenə də sözüm.

Qapını göstərdi və dedi , mənə.
Buraya ayağın dəyməsin yenə.
Şamili heç zaman tərk etmərəm mən.
Bu işi yuxunda görəmməzsən sən.
Məndədir oğlunun həmişə gözü.
Mənimlə evlənib Şamilin özü.
Sən nədən düşübsən ortaya indi.
Bu oğul sənindi, ər də mənimdi.
Borcundu baxasan hər zaman bizə.
Yoxsa heç qapını açmararam sizə.
Çünki hər bir şeyə var ehtiyacım.
Artıq qalmayıbdı mənim əlacım.
Kirəyə verməyə yoxdu bir qəpik.
Vurar ev yiyəsi bizə bir təpik.
Sən gərək alasan bizi evinə.
Heç hörmət etmirsən axı gəlinə.
O zaman tərk etdim onları yenə.
Heç xəbər gəlmədi gəlindən mənə.
Aradan keçmişdi azca bir zaman.
Qapımı döydülər bir gecə yaman.
Qapını açdım mən çıxdım eşiyə.
Gördüm bir qadın var bənzər kişiyə.
Tanıdım qadını elə həmin an.
Təlaşlar içində görürdüm inan.

Məni görən kimi səsləndi mənə.
Üz tutub qapına gəlmişəm yenə.
Gəlmişəm mən sənə verəm bir xəbər.
Hazıra nazirsən sən a bəxtəfər.
Dünyaya gəlibdi bir oğul balan.
Yəqin heç olmayıb yadına salan.
Onlara qurbandır bu əziz canım.
Bilirsən heç cürə yoxdu imkanım.
İndi də zəhmət çək sən al yanına.
Bir az da əziyyət ver bu canına.
Oğlunun oğludur, de buna nə söz?
Bütün çətinliyə bir az da sən döz.
Ay həkim, nə deyim, lal olub qaldım.
Sonra da onları yanıma aldım.
Deməyə utandım bunları sənə.
Bununçün günahkar mən oldum yenə.
Sonanı səbirlə dinlədi Seyran.
Sonra da üz tutub söylədi o an.
Bu işdə sən nədən utandın Sona?
Sənin ki, oğlandı ayıbmı ona?
Ayıblı heç bir şey görməyirəm mən.
Bu qızın anası deyilsən ki, sən?
Bir də ki, evlənmək heç ayıb deyil.
Dünyada adətdir, sən bunu da bil.

Nə deyim, ay Sona, bilərsən özün.
Yalandır həyatın, söhbətin, sözün.

****

İllər bir-birini qovub gedirdi.
Həyat öz yolunnan davam edirdi.
Getdikcə Elman da yaşa dolmuşdu.
Onun üç övladı artıq olmuşdu.
Çox vaxt işdən evə gəldiyi zaman,
Sevili evində tapmırdı Elman.
Şübhəsi artırdı Sevildən hər an.
Getdikcə bu evdə qopurdu tufan.
Sevilin artırdı heyy tələbləri.
Çöllərdə olurdu elə gözləri.
Ərini görməyə yox idi gözü.
Xəlvətcə hər yeri gəzirdi özü.
Kohnə sevgilisi tapmışdi onu.
Bununla hər şeyin gəlmişdi sonu.
Uşaq da çıxmışdı onun yadından.
Zəhləsi gedirdi Elman adından.
Son vaxtlar evinə düşürdü dava.
Göydə fırlanırdı qab-qacaq , tava.
Elman hiss edirdi olub- keçəni.
Deyirdi yəqin bu aldadır məni.
Hər gündə bu dığ-dığ davam edirdi.

Sevil də gizlicə evdən gedirdi.
Seyrana bu sirri açmırdı Elman.
Bilirdi anası partlayar o an.
Çünki bu evliyə qol qoymamışdı.
Aldığı gəlindən heç doymamışdı.
İndi də ortaya çıxdı bu işi.
Bunu kim götürər, de hansı kişi?
Elman aldadırdı özü- özünü.
Gizlədirdi çox vaxt söhbət- sözünü.
Bəlkə səhv edirəm deyirdi Elman.
Kaş bütün şübhələr olaydı yalan.

*****

Seyran öz işinə davam edirdi.
Sona da onlara gəlib- gedirdi.
Günlərin birində bir axşam yenə.
İşdən sonra Seyran gəldi evinə.
Seyifdən on dənə yuzlüyü aldı.
Aparıb çantanın içinə saldı.
Dükandan özünə paltar almışdı.
Ona da min manat borclu qalmışdı.
Deyirdi verərəm borcumu səhər.
Özünü mətbəxə saldı bir təhər.
Çay içdi, uzandı, bir az divana.
İstədi oğluna zəng etsin ana.
Yorğunluq varıydı onun çanında.

Baxdı ki, telefon yoxdu yanında.
Duruxub bir qədər yadına saldı.
Bildi ki, telefon çantada qaldı.
Keçdi o, otağa çantanı aldı.
İçinə baxanda lap mətəl qaldı.
Diqqətlə çantaya baxdığı anda,
Gördü ki, əl gəzib həmin məkanda.
Sayanda baxdı ki, əskikdi pulu.
Aparıb allahın hansısa qulu.
Düşündü utanmır Sona yaşından.
Gör nələr keçirir yenə başından.
Burda bir Sonadır, bir də ki, özüm.
Mən axı oğruya nə qədər dözüm?
İllərdi hər şeyi keçirəm ona.
Artıq yetişmişik, gəlmişik sona.
Deyirlər qozbeli düzəldir qəbir.
Nə qədər eyləyim mən axı səbir.
Üşütmə düşmüşdü yenə canına.
Sonanı çağırdı tezcə yanına.
Söylədi: bir kəlmə söz demə mənə.
Pulları qoy bura deyirəm sənə.
Canımı yığmısan boğazıma sən.
Üstünü axtarmaq istəmirəm mən.
Gəl məcbur eyləmə indi də məni.

Polisə verərəm bu saat səni.
Hər yerə kamera qoyubdu kişi.
Qurtaraq bağlayaq burda bu işi.
Həmişə bu evdən oğurluq etdin.
Sonra da sakitcə evinə getdin.
Hər şeyi deyirəm indi düzünə.
Heç nəyi gəlmədim sənin üzünə.
Bu dəmdə itirdi Sona özünü.
Seyrandan çəkmirdi bir an gözünü.
Oğurluq etmədim dedi, ay həkim.
Bu işi boynuma qoyammaz heç kim.
Cantanın yanından özüm ötürdüm.
Sadəcə olaraq pulu götürdüm.
O pula varıydı çox ehtiyacım.
Yoxuydu heç mənim çünki əlacım.
Şamili tutubdu polislər yenə.
Utandım bunu da demədim sənə.
Əvvəlcə mən səndən borca pul aldım.
Çatmadı vəkilə ortada qaldım.
Heç kimsə vermədi o pulu mənə.
Yenidən üz tüta bilmədim sənə.
Bütün pullarını qaytaracam mən.
Bir azca səbirlə məni gözlə sən.
Sonanın üzünə baxırdı Seyran.
Düşündü yalanlar uydurur bu an.

Söylədi Sonaya, tərk et məkanı.
Sızlayır, göynəyir adamın canı.
Nə qədər yalanlar danışar insan?
Boğaza yığıldım mən artıq inan.
İndidən deyirəm bax dönə-dönə.
Heç kimi gətirmə minnətə yenə.
İnana bilmərəm bircə sözünə.
Verdiyin pulların girsin gözünə.
Seyranın evini Sona tərk etdi.
Bir yolluq bu evdən o, çıxıb getdi.
Sonradan Seyrana dedilər ki, bil.
Oğurluq üstündə tutulub Şamil.

*****

Bir gün işdən evə gələndə Elman,
Arvadı önünə çıxdı həmin an.
Əzilib, büzüldü, girdi min dona.
Əlində bir kağız uzatdı ona.
Ay Elman, gedərsən bu ünvana sən.
Hər şeyi yoluna düzəltmişəm mən.
Xaricdən bağlama göndərib xalam.
Vacibdir onları mən ordan alam.
Heç bir şey demədi Sevilə Elman.
Sakitcə yoluna düzəldi o an.
Artıq yetişmişdi həmin ünvana.

Boylandı o yana, bir də bu yana.
Ətrafa bir qədər o, qulaq asdı.
Maşından düşərək düyməni basdı.
Qapını Elmana olmadı açan.
Maşına qayıtdı o da həmin an.
Qapını açaraq mindi maşına.
Bilmirdi nə işlər gəlir başına.
Elə ki, tərpəndi maşın yerindən,
Başına bir kəndir saldılar birdən.
Arxadan kəndiri möhkəm burdular.
Şiddətlə başına tez-tez vurdular.
Elmanın nəfəsi artıq daraldı.
Başı fırlanırdı, gözü qaraldı.
Maşını kənara onlar çəkdilər .
Elmanın üzündə şumlar əkdilər.
Oğlan anlamırdı olub-keçəni.
Nə üçün döyürsüz deyirdi məni?
Taqəti qalmadı onun canında.
Bir maşın saxladı gəlib yanında.
Onları görəndə sevindi Elman.
Düşündü yardıma gəlib bu insan.
Ağlına gəlməyən gəldi başına.
Su kimi axırdı qanı maşına.
Onlar da Elmanın önündə durdu.
Oğlana bıçaqla zərbələr vurdu.

O, qanlar içində yıxılıb qaldı.
On səkkiz yerindən yaralar aldı.
Son dəfə vurdular onun başına.
Canilər tələsik mindi maşına.
Maşına qaz verib onlar qəfildən.
Elmanın üstündən keçdilər birdən.
Torpağa yapışıb qalmışdı Elman.
Onu öldü bildi canilər o an.
Sürətlə ayrıldı onlar məkandan.
Hərəkət yoxuydu daha Elmandan .
Oğlan saatlarla yerdə qalmışdı.
Qan axıb torpaqda izlər salmışdı.
Yolun kənarınnan bir qız gedirdi.
Kimləsə danışıb söhbət edirdi.
Birdən gözlərinə sataşdı Elman.
Təcili yardıma zəng etdi o an.
Gördü ki, tərpənir, gəlir nəfəsi.
Kim görsə dəhşətə salar hər kəsi.
Pis hala qalmışdı Elmanın üzü.
Seyranın olmadı gecə-gündüzü.
Bir an da Elmandan ayrı qalmadı.
Heç kimi otağa özü salmadı.
Sevilin olduqca qaraydı qanı.
Elmanın yanında qalmışdı canı.

Bu gəlin dünyaya verməyirdi səs.
Qarnının altını bilmirdi heç kəs.
Bir səhər yuxudan erkən oyandı.
Elmanın yanında gəlib dayandı.
Təlaşla baxırdı onun üzünə.
Əlini vururdu tez-tez dizinə.
Seyran pis olurdu qızın halına.
Az qala alaydı onu dalına.
Deyirdi, ay qızım o, sağalacaq.
Yenidən sizinlə birgə olacaq.
Bu günlər keçəcək, bir daha dönməz.
Namərdin əlinnən Elmanım ölməz!
Qatillər tutulub təslim olacaq.
Onların arzusu gül tək solacaq.
Balamın heç nədə yoxdu günahı.
Qatili tutacaq bizlərin ahı.
Bu zaman polislər girdi otağa.
Üz tutub gəldilər bir az qabağa.
Polislər Sevilin önündə durdu.
Sonra da qoluna kələpcə vurdu.
Seyranın gözləri ağara qaldı.
Polisə qışqırıb hay-haray saldı.
Buraxın gəlini siz nə edirsiz?
Yalandan buraya gəlib-gedirsiz.
Qatillər gəzirlər çöldə, çəməndə.

Gəlini tut apar, ay polis, sən də.
Gəlini buraxın, geri çəkilin.
Otaqdan hamınız bir-bir əkilin.
Ay həkim, bizdə var nə qədər dəlil.
Ərini öldürtmək istəyir Sevil.
Bütün planları özü qurubdu.
Gəzdiyi adam da gəlib vurubdu.
Özünnən gətirib üç nəfər oğlan.
Öldürmək istəyib onu həmin an.
Oğlanlar Elmanın ölmünə vurub.
Bilərək oğlunun qəsdinə durub.
Kamera çəkibdi sonuna qədər.
Polisin zəhməti getmədi hədər.
Canilər hər şeyi boynuna aldı.
Polis də hamsını içəri saldı.
Gəlindir oğlunu bu günə salan.
Əlbirdir onunla gəzdiyi oğlan.
Seyranın çıxmışdı ağlı başından.
Sinəsi islandı gələn yaşından.
Düşmənə çevrildi gəlin gözündə,
Seyran heç olmadı o an özündə.
Bayaqdan gəlini qoruyan Seyran,
Üstünə atlandı onun həmən an.
Üstədi gəlinin yolsun başını.

Başına ələsin dünya daşını.
De görüm , nə idi onun günahı?
Bax səni tutacaq çəkdiyi ahı.
Gətirib o, səni eylədi arvad.
Sən isə hər şeyi eylədin bərbad.
Polislər onları güclə ayırdı.
Fələk bildiyini bir-bir sayırdı.
Güc ilə gəlirdi Elman özünə.
Mat qaldı polisin indi sözünə.
Gözünün önündə nələr canlandı.
Düşündü Sevili, necə insandı?
Mən onu çox sevdim, lap özüm qədər.
O, verdi gör mənə nə qədər kədər.
Elman maddım-maddım yerdən baxırdı.
Gözündən sel kimi yaşlar axırdı.
Başını aşağı salmışdı Sevil.
Yoxuydu dünyada sanki elə bil.
Əlində kələpçə onu aldılar.
Aparıb zindana artıq saldılar.

*****

Günlər bir - birini qovub gedirdi.
Hərə öz bildiyi işi edirdi.
Elmana bir ömür bəxş etdi ana.
Yenidən can qatdı şirin bir cana.
Elman sağalaraq ayağa durdu.

Yeni evliliyə bir möhür vurdu.
Canilər hamısı cəza aldılar.
İllərlə zindanda onlar qaldılar.
Bir gün xəbərlərə baxanda Seyran.
Ekranda Sonanı gördü həmin an.
Oğurluq üstündə cəza almışdı.
Məhkəmə iş kəsib həpsə salmışdı.
Seyranın Sonaya yazığı gəldi.
Bu xəbər ox kimi qəlbini dəldi.
Nə qədər söylədim, axı mən ona,
Bu yoldan uzaqlaş dedim , ay Sona.
Bu yolun sonunda durubdu zindan.
Bax həmin zindanda qalıbsan bu an.
Əl çəkə bilmədin öz vərdişindən.
Ləzzət al zindanda indi işindən.
İşinlə sonunda bax sən, ey qadın,
Qanunla alıbsan bu oğuru adın!

# TOVUZ ŞƏHİDLƏRİ!



Nə qədər ağırdır həmin o gecə.
Tarixə adını yazdırdı necə?
On iki iyulda açılan səhər,
Hamının yeməyi oldu lap zəhər.
Erməni o gecə hücuma kecdi.
Bu dəfə hədəf də Tovuzu seçdi.
Hər yana yayıldı atışma səsi.
Lərzəyə gətirdi bu səs hər kəsi.
Təşvişə düşmüşdü rayonda hamı.
Vahimə basırdı bütün adamı.
Sərhəddən cürbəcür xəbər gəlirdi.
Xəbərlər ox olub ürək dəlirdi.
Ayağa qalxmışdı bütün insanlar.
Dəhşətdi həmin gün, həmin o anlar.
Getdikcə artırdı gurultu səsi.
Hamının döyüşdə vardı kimsəsi.
Körpələr, uşaqlar qorxurdu səsdən.
Yardım istəyirdi evdə hər kəsdən.
Şayələr baş alıb gedirdi yaman.
Bilmirdin düzdümü, yoxsa ki, yalan.
Dedilər erməni keçibdi gecə,
On nəfər əsgəri öldürüb necə?

Dağıdıb sərhədin torpaq, daşını.
Kəsiblər onların bir-bir başını.
Güllə tək dağıldı xəbər hər yana.
Bir anda yayıldı Azərbaycana.
Getdikcə artırdı atışma səsi.
Lərzəyə gətirdi bu səs hər kəsi.
Topun gurultusu qalxdı göylərə.
Mərmilər dağıldı bütün hər yerə.
Nə qədər yaralı, şəhid varıydı.
Hamının başına dünya darıydı.
Məmmədov Elşaddı şəhidin biri.
Bu xəbər bürüdü bütün hər yeri.
Onların evindən post görünürdü.
Gurultu səsinə ev bürünürdü.
Ata tez tövlənin üstünə qalxdı.
Ordan da Elşadın postuna baxdı.
Hər şeyi gözünnən görürdü Dönməz.
Deyirdi Elşadım heç zaman ölməz.
İki top bu posta düşdüyü zaman,
Dönməzi elə bil vurdu cərəyan.
Üçüncü top düşdü bir az kənara.
Az qaldı bu kişi dəysin divara.
Bunları gözünnən görürdü kişi.
Anladı başına gələcək işi.
Bir kəlmə söylədi kişi bu sözü.
Kaş elə kor olsun düşmənin gözü.

Deyəsən yıxıldı bax mənim evim.
Qurusun, lal olsun ay allah, dilim.
Bu dəmdə qışqırdı evdə qız, gəlin.
Elşadın postuna top düşdü bilin.
Səs-küyə boylandı Nuriyyə ana.
Qışqırıb ağladı o, yana-yana.
Üşütmə gəlmişdi onun canına.
Bu qorxu yayıldı tamam qanına.
Ağlaşma səsinə yığıldı hamı.
Yandırırdı bu səs bütün adamı.
Dedilər ölməyib o, yaralıdır.
Top düşən yer ordan lap aralıdır.
Bu sirri saxlamaq mümkün olmadı.
İstəklər yerinə gəlib dolmadı.
Gecənin yarısı bir xəbər gəldi.
Xəbər lap onların qəlbini dəldi.
Ölüm xəbərini artıq aldılar.
Hər yerə ağlaşma, şüvən saldılar.
Ananın ürəyi tir-tir əsirdi.
Bir ağrı qılınc tək onu kəsirdi.
Möhkəm ağlayırdı ana Elşadı.
Elşadın qalmışdı körpə övladı.
Məmmədin varıydı düz yarım yaşı.
Anlaya bilməzdi bu işi başı.
Gözünü zilləyib ancaq baxırdı.
Adamı yandırıb, yaman yaxırdı.

Hamının üzündə qalmışdı gözü.
Anlaya bilmirdi heç nəyi özü.
Bəzən də qorxaraq o, ağlayırdı.
Gözündən sel kimi yaş çağlayırdı.
Elşad öz sevdiyi qızı almışdı.
Bu gün o, qızı da dərdə salmışdı.
Üç aylıq hamilə olmuşdu bu qız.
İndi də Elşadsız qalmışdı yalqız.
Gözündən od kimi yaş ələyirdi.
Hər yeri bu yaşla o, bələyirdi.
Atanın böyükdü dərdi, kədəri.
Allahdan gəlmişdi belə qədəri.
Ağlayıb əlini vurub dizinə,
Deyirdi bu kişi özü-özünə.
Zülümlə böyütdüm mən bu uşağı.
Qanıyla suladı Elşad torpağı.
Nə günlə yığmışdım onun qanını.
Ovcumda qorudum hər an canını.
Odun doğramaqla saxladım onu.
Gör necə puç oldu Elşadın sonu.
Evimdə olmurdu çox zaman yemək.
Tapanda bir parça mən quru çörək,
Ovcumda Elşada yedizdirərdim.
Suyu da üstündən içizdirərdim.
Həmişə baxırdı uşaq üzümə.
Deyirdi çörəkdən saxla özünə.

Onda söyləyirdim ona da yalan.
Deyirdim bu saat yemişəm inan.
Halbu ki, acından ölürdüm özüm.
Yoxuydu deyəcək başqa bir sözüm.
Allahım Elşadı əlimdən aldı.
Evimin qapısı lap bağlı qaldı.
Olsa da bu xəbər acıdan acı.
Yoxuydu heç nəyin artıq əlacı.
Nəhayət yetişdi dəfn zamanı.
Tarixə yazıldı ömrün o anı...

*****

Şəhidin biri də çavuş Vüqardı.
Onun düz otuz üç yaşı olardı.
Ordu da illərdi xidmət edirdi.
Həmişə döyüşdə öndə gedirdi.
Varıydı Vüqarın üççə övladı.
Sonadək dadmadı o, övlad dadı.
Bir övlad olmuşdu evdə yeganə.
Heç nəyə olmurdu heç vaxt biganə.
Anası gözləmiş on il yolunu.
Sanki bu itirdi iki qolunu.
Anası qıymırdı o, əsgər gedə.
Bilmirdi nə edə, bəs necə edə?
Vüqara verməyə belə bir imkan.
Çünki o, qorxurdu onunçün hər an.
Vüqar anasına dedi sözünü.

Ay ana, narahat etmə özünü.
Səngərdə var bizim çox şəhidimiz.
Artıq deyilik ki, biz heç birimiz.
Bütün şəhidlərin öz anası var.
Bəs onlar neyləsin, söylədi Vüqar?
Sən artıq deyilsən onlardan ana!
Ev-eşik bir yana, vətən bir yana.
Heç ona görə də bir söz demə sən.
Çünki bu yolumdan gönəmmərəm mən.
Evin hər yukunu Vüqar çəkirdi.
Daş töküb o, yeni bir ev tikirdi.
Xəstə atasına baxan Vüqardı.
Onun dərmanını özü alardı.
Bütün arzuları yarımçıq qaldı.
Yaşlı anasını azara saldı.
Elə ki, eşitdi ana xəbəri,
Qaranlıq gördü o, bütün yerləri.
Çünki onun üçün günəş batmışdı.
Taleyi ananı zülmə atmışdı.
Qışqırıb ağladı, saçını yoldu.
Olanlar hamısı anaya oldu.
Vüqar söyləməkdən batmışdı səsi.
Gəlmirdi az qala onun nəfəsi.
Vüqarın qapıya gələndə nəşi,
Onlara axışdı bütün hər kişi.
Bütün kənd gəlmişdi düz Vüqargilə.

Onu ötürdülər bu son mənzilə.

*****

Xəyyam Dadaşovdu şəhidin biri.
Bu xəbər dolandı, gəzdi hər yeri.
Həmin gecə igid yaralanmışdı.
İşıqlı dünyadan aralanmışdı.
Öncədən anaya məktub yazmışdı.
Bu yağı düşmənlər yolu azmışdı.
Onlar düz Ağdama hücum etdilər.
Güllələr Xəyyamı dəlib getdilər.
Şəhid anasına yazmışdı, ana!
Əzimlə baxarsan sən bu cahana.
Ürəklə söykən gəl əvvəl divara.
Gözünü dikərsən ordan yollara.
Son dəfə gələcəm o yolla evə.
Məni bas bağrına sən sevə-sevə.
Son dəfə qucaqla, ay ana , məni.
Şəhidəm, görmərəm bir daha səni.
Bu bizim sonuncu görüş olacaq.
Oğlun şəhid kimi yadda qalacaq.
Bu sözlər ananı yandırdı, yaxdı.
Gözünün yaşları sel kimi axdı.
Xəyyamın varıydı on səkkiz yaşı.
Bir də ki, özündən kiçik qardaşı.
On səkkiz baharı, qışı varıydı.
Ananın başına dünya darıydı.

Boyunu sevərək böyütdü onu.
Artıq bu oğlanın gəlmişdi sonu.
Ana əl qatmışdı öz üz-gözünə.
Ölüm diləyirdı indi özünə.
Əlinnən üzünə şıram cəkmişdi.
Elə bil üzündə şumlar əkmişdi.
Yanaqdan sızan qan üzdə iz saldı.
Anaya Xəyyamdan şəkillər qaldı.
Atanın gözündən yaşlar axırdı.
Əlacsız qalaraq yerə baxırdı.
Cəbhədə qalmışam deyirdi dörd il.
Şəhidlik nəsibim olmayıbdı bil.
Xəyyamım cəbhədə üçcə ay qaldı.
Üc aya şəhidlik zirvəsi aldı.
Neyləyək? fəxrimdi bu oğlum mənim.
Sağ olsun deyirəm yenə vətənim!

*****

Leytenant Rəşaddı şəhidin biri.
Bu xəbər dolandı artıq hər yeri.
İyulda gəlmişdi dünyaya Rəşad.
Gözündə qalmışdı arzu və murad.
Həmin ay köç etdi Rəşad dünyadan.
Şəhidlik taxtına qalxdı həmin an.
Üç aylıq olanda o, yetim qaldı.
Dayısı onları yanına aldı.
Oğlundan seçmədi Rəşadı dayı.

Dayının olmuşdu ən əziz payı.
Otuza yaxındı Rəşadın yaşı.
Rəhmətə getmişdi böyük qardaşı.
Ananı üzürdü beləcə kədər.
Allahdan gəlmişdi ona bu qədər.
Rəşadın üstündə tir-tir əsirdi.
Bu qorxu həmişə onu kəsirdi.
Rəşadın çoxuydu xoş arzuları.
Yarımçıq tərk etdi bütün onları.
Ayrı ev tikirdi Rəşad özünə.
Düz çıxa bilmədi ancaq sözünə.
Bu mənfur erməni vermədi imkan.
Gülləyə tuş gəldi orda həmən an.
Gözaltı etdiyi qızı da vardı.
Yaşasa onunla evli olardı.
Yandırdı bu ölüm dərdli ananı.
Həm ağlar qoymuşdu gözəl cananı.
Ananın yoxuydu başqa əlacı.
Ancaq ağlayırdı o, acı-acı.
Deyirdi aparın cəbhəyə məni.
Əlimnən boğacam özüm düşməni.
Rəşadla görüşə gəlmişdi hamı.
Yığılmışdı ora  kəndin adamı.
Elliklə Rəşadı yola saldılar.
Ömürlük Rəşadsız hamsı qaldılar.

*****

Atışma gecədən davam edirdi.
Bu səs -küy aləmi aşıb gedirdi.
Səhər tezdən yenə qızışdı dava.
İyulun on dördü açıldı hava.
Uşaqdan qocaya  ayağa qalxdı.
Dəstəynən adamlar sərhədə axdı.
Küçələr tutmurdu bu izdihamı.
"Qarabağ bizimdir" deyirdi hamı.
İş gəlib çatmışdı belə bir həddə.
Toplaşıb yığıldı hamı sərhəddə.
Dəqiq bir məlumat yoxuydu hələ.
Söz-söhbət gəzirdi hələ ki, belə.
Birdən bir general çıxdı qabağa.
Başını salmışdı tamam aşağa.
Çətinlik çəkirdi o, danışmağa.
Gözünü qaldırıb baxdı uzağa.
Səsində varıydı xırıltı , kədər.
Duruxdu, boylandı yenə bir qədər.
Nəhayət o, ələ aldı özünü.
Sonunda xalqına dedi sözünü.
Bilmirəm, mən necə söyləyim sizə?
Çox ağır bir itki üz verib bizə.
İtirdik nüfuzlu bir generalı.
Səngərdən olmadı bir an aralı.
Həşimov Poladdı həmin qəhrəman.
Əsgərin önündə olub həmən an.

Poladla olubdu palkovnik İlqar.
Səngərdə birlikdə durublar onlar.
Bax bu da göstərdi bütün cahana,
Nə qədər mərd oğul doğubdu ana.
Adı tək Poladdır, əyilməz dəmir.
Əsgərə arxadan verməyib əmir.
Əsgərin önündə gedibdir hər an.
Arxamca, söyləyib igid, qəhrəman.
Artıq bu millətin səbri dolubdu.
Bir neçə əsgər də şəhid olubdu.
İndi açıqlanar onların adı.
Acıdır hamıya xəbərin dadı.
Batmışdı adamlar qəmə, kədərə.
Xəbərlər yayıldı bütün hər yerə.
Böyükdən kiçiyə qan ağlayırdı.
Bulaq tək gözlərdən yaş çağlayırdı.
Artıq axşam düşüb hava qaraldı.
Getdikcə səbirlər tamam daraldı.
Cənazə karvanı çıxmışdı yola.
Millət toplanmışdı sağa, həm sola.
Elə ki, tamamən qaranlıq oldu,
Yolun kənarları adamla doldu.
Uzaqdan göründü maşın karvanı.
Həyəcan bürüdü bütün hər yanı.
Göylərə yüksəldi alqış səsləri.
Ağlatdı ordakı bütün kəsləri.

Tovuzdan şəhərə yollandı karvan.
Sərhəddə döyüşlər gedirdi o an.
Ayağa qalxmışdı hər yerdə millət.
Qaranlıq duşmüşdü , olmuşdu zülmət.
Sumqayıt o gecə qan ağlayırdı.
Leysan tək gözlərdən yaş çağlayırdı.
Poladın evinə axdı adamlar.
Həyətdə çox böyük bir izdiham var.
İynəni atsaydın düşməzdi yerə.
Şüarlar səsləndi bəlkə min kərə.
Əllərdə bayraqlar dalğalanırdı.
İnsanlar qəhərdən lap odlanırdı.
Binada varıydı açıq pəncərə.
Bayraq  dalğalandı ordan hər yerə.
Gecədən keçmişdi nə qədər zaman.
Yerindən getmədi bir dənə insan.
General-mayoru gözləyirdilər.
Açıq pəncərəni izləyirdilər.
Birdən pəncərədə göründü adam.
Sanki dalğalandı orda izdiham.
Ordan əl salladı hamıya ana.
Oğul gözləyirdi o, yana-yana.
Ananın yanmışdı, köz oldu bağrı.
Onu öldürürdü içində ağrı.
Dünya bir yanaydı, Polad bir yana.
Belə gözləmirdi oğlunu ana.

Xalqın generalı gəlirdi indi.
Ana nə dayandı, nə də ki, dindi.
Beş aydır görmürdü anası onu.
Üstəlik susmuşdu həm telefonu.
Xalqın qarşısına çıxdı bacısı.
Olduqca böyükdür onun acısı.
Hamıya üz tutdu , söylədi bacı.
Dəhşətdir, ağırdır dedi bu acı.
Təmkinli olmağa çağırıram mən.
Qapının önündə durubdu düşmən.
Artıq heç bir şeyə yol verməyək biz.
Poladın xətrinə dözməlisiz siz.
Mənə yox hamıya olubdu qardaş.
Riayət eyləyək hər şeyə bir baş.
Bu gecə Vəndamda qonaqdı Polad.
Görüşə gəlibdi dostlar , həm də yad.
Hamının kədəri başından aşır.
Bu ata yurduyla o, vidalaşır.
Lap səhər tezdəndən gün ki, doğacaq,
O maşın karvanı burda olacaq.
Sumqayıt dönmüşdü qaynar qazana.
Bir qram yatmadı o gecə ana.
Deyə  bilmirdilər ona xəbəri.
Bu xəbər dolandı bütün yerləri.
Nəhayət dil açdı baldızı özü.
Bu oldu anaya dediyi sözü.

Hazırlaş gəl gedək birlikdə kəndə.
Yaralı Polada dəyərsən sən də.
Hərbi qospitala gəlibdi balan.
Gəl yola düzələk indi biz bu an.
Mat qaldı baldızın ana sözünə.
Diqqətlə sən bir bax indi özünə.
Heç gör bax ,dəliyə oxşayıram mən?
Ağzına gələni söyləyirsən sən.
Nə vaxtdan Vəndamda qospital olub?
Bu fikir başına bəs niyə dolub?
Baldızın kəsilib sonda əlacı.
Deyibdi bu xəbər olduqca acı.
Polad yaralanıb, şəhid olubdu.
Ömür çiçəkləri tamam solubdu.
Heç tutar qoymadı ana özündə.
İtdi ifadəsi onun üzündə.
Dünyanı görmürdü ananın gözü.
Dilində bitmişdi bir Polad sözü.
Səmayə xalaya olan olmuşdu .
Hər tərəf adamla gəlib dolmuşdu.

*****

Elə ki, çəkildi qatı qaranlıq.
Gecə yırğalandı sanki bir anlıq.
Yavaş-yavaş artıq açıldı səhər.
Göz-gözü görürdü indi bir təhər.
Maşınlar şəhərə daxil oldular.

Sırayla həyətə gəlib doldular.
Son dəfə evinə gəldi general.
Hamı pillələri çıxdı  dalbadal.
Qonaqla gəlmişdi indi Poladım.
Adamlar gedirdi lap addım-addım.
Həmişə ayaqla gələrdi özü.
İndi görünmürdü heç yerdən üzü.
Çünki o, bu dəfə tabutda gəldi.
Bu gəliş hamının bağrını dəldi.
Evdə gözləyirdi arvad -uşağı.
Tabutu endirdi onlar aşağı.
Elə bil bu evdə qopmuşdu tufan.
Yer, göy ağlayırdı sanki həmin an.
Üzünü tabuta söykədi ana.
Naləsi yayıldı  bütün cahana.
Yoldaşı, uşaqlar ağlayırdılar.
Sözlərlə ürəklər dağlayırdılar.
Göylərə qalxmışdı ağlamaq səsi.
Az qaldı ananın kəssin nəfəsi.
Heç kimə demədi  bir kəlmə Polad.
Elə bil yoxuydu Polad adda ad.
Adamlar  ağlayıb vay-şivən saldı.
Suallar hamısı cavabsız qaldı.
Polad dillənmirdi, deməyirdi söz.
Ananın sifəti sanki oldu köz.
Yanıb, odlanırdı , ana ürəyi.

Sanki dağılmışdı evin dirəyi.
Dünya dar olmuşdu onun başına.
Hər yer bələnmişdi gözün yaşına.
Nəhayət yetişdi getmək zamanı.
Saxlamaq olmurdu heç cür ananı.
Fəxri xiyabana yollandı hamı.
Yol, iz tutmayırdı bu izdihamı.
Dövlət adamları dəfnə getdilər.
Nöbəynən hamısı çıxış etdilər.
Adamla dolmuşdu fəxri xiyaban.
Orda dəfn olundu gözəl bir insan.
Əklillər qoydular həmin məzara.
Xalqımız düşübdü dərdə, azara.
Tarixə yazdırdı Polad adını.
General dadmışdı şəhid dadını.
Poladla birlikdə eyni zamanda.
İlqar dəfn olundu həmin məkanda.
Dəfn mərasimi çatmışdı başa.
Nə qədər əklillər düzdülər daşa.
Saymaq olmayırdı burda adamı.
Artıq evlərinə dönürdü hamı.

******

Ananın çoxuydu dərdi, kədəri.
Hər yerdə Poladı gəzdi gözləri.
Gecələr gözünə getmirdi yuxu.
Şəkilə baxırdı gününün çoxu.

Gecələr rəsminnən söhbət edirdi.
Yorulub qapıya tərəf gedirdi.
Dözmürdü yenidən ana ürəyi.
Hədsiz istəyirdi onu görməyi.
Təlatüm düşürdü onun canına.
Yenidən dönürdü rəsmin yanına.
Suallar verirdi o, danışırdı.
Başı şəkillərə çox qarışırdı.
Sən niyə aldatdın , bala ananı?
Səndən ötrü qəlbi, canı yananı.
Kaş elə evinə dönəydin yenə,
Bir qolu kəsilmiş gələydın mənə.
Elə itirəydin bir ayağını.
Kəsəydim şəklin yox , öz qabağını.
Həmin bu halınla qəbuldun mənə.
Mən nə eyləyim ki, dönəsən yenə?
Şəkli qucaqlayıb o, ağlayırdı.
Albomu açırdı, gah bağlayırdı.
Şəkil qucağında evdə gəzirdi.
Sıxmaqdan onları bəzən əzirdi.
Yas mərasimləri davam edirdi.
Nə qədər qonaqlar gəlib-gedirdi.
Ağlayıb hamıya deyirdi ana.
Salacam səs indi mən bu cahana.
Cəbhəyə aparın deyirdi məni.
Dişimlə didərəm orda düşməni.

Yemək bişirərəm , corab yuyaram.
Bütün əsgərlərə xörək qoyaram.
Yardım eyləyərəm əsgərə mən də.
Sursat daşıyaram yeri gələndə.

*****

Ana istəyirdi yumsun gözünü.
Bəlkə yuxusunda görə özünü.
Heç yuxu gəlmirdi onun gözünə.
Ölüm istəyirdi ana özünə.
Oturub kədərlə fikrə dalırdı.
Xəyallar içində itib qalırdı.
Heç bir şey gəlmirdi onun dadına.
Düşürdü  uşaqlıq ili yadına.
Atası Polada bir  tüfəng aldı.
Polad tez tüdəngi boynuna saldı.
İlk dəfə tüfənglə çəkdirdi şəkil.
Hərbiçi olmuşdu sanki elə bil.
Polad oynayardı tankla,tüfənglə.
Davam eyləyərdi eyni ahənglə.
Məktəbdə həmişə əla alardı.
Hamı bu şagirdə heyran qalardı.
Çox zaman gülmürdü ananın üzü.
Onu az görürdü uşaqlar düzü.
Almünum zavodda o, çalışmışdı.
Bütün çətinliyə həm alışmışdı.
Fəhlə işləyirdi bu gözəl ana.

Rahatlıq vermirdi heç zaman cana.
Həmişə olubdu halal çörəyi.
Ərindən görübdü hər an köməyi.
Çətiniydi onun zavodda işi.
Birgə çalışırdı özüylə kişi.
Ər-arvad verərdi onlar baş-başa.
İşə gedərdilər hər gün bir başa.
Ananın çətin də olsaydı işi,
İşləmək olmuşdu onun vərdişi.
Uşaqla o, özü məşğul olardı.
Onlara baxanda gözü dolardı.
Səbirlə Polada deyərdi ana,
Ağıllı övlad ol sən bu cahana.
İtirmə ananın zəhmətini sən.
Həmişə fəxr edim qoy səninlə mən.
Bir zaman olacaq dolarsan yaşa.
Sən onda hər şeyi düşərsən başa.
Böyüyüb olarsan böyük bir oğlan.
Mənim zəhmətimi xatırla o an.
Aralı olarsan pis vərdişlərdən.
Böyüyəndə yapış yaxşı işlərdən.
İllər bir-birini əvəz edirdi.
Polad böyümüşdü dərsə gedirdi.
Məktəbdə hamıdan o,seçilirdi.
Bütün dərslərini əla bilirdi.
Əlaçıydı orda Poladın özü.

Sinifdə olmuşdu şagirdin gözü.
Məktəbdə varıydı böyük hörməti.
Bir dəfə dərsindən qalmazdı qəti.
Xarici dillərə vardı həvəsi.
O, mat eyləyirdi bilən hər kəsi.
Ağlınnan hər yerə səs saldı Polad.
Paladda varıydı gözəl istedad.

*****

Ananın gecəsi gündüz olurdu.
Bulud tək boşalır, gah da dolurdu.
Varıydı ananın öz arzuları.
İstərdi  oxusun bu oğulları.
Keçərdi Poladın böyür - başına.
Tumar da çəkərdi lap göz-qaşına.
Deyirdi var mənim arzu-muradım.
İstərəm prakror olsun Poladım.
Polad dinləyirdi ana sözünü.
Ona sevdirərdi  möhkəm özünü.
Hüquqşünaslığa hazırlaşırdı.
Həvəsi getdikcə aşır-daşırdı.
Bir gün ana evdə olduğu zaman,
Dərsdən evə gəlir bu igid oğlan.
Çantanı tullayır o, bir kənara.
Kitablar tökülür , dəyir divara.
Polada mat qalır ananın özü.
Oğluna bu olur elə ilk sözü.

Bu nədir, ay Polad, bu nədir etdin?
Kitabı, dəftəri dağıdıb getdin.
Nə olub, ay bala, de görüm sənə?
İndi gəl düzünü söylə sən mənə.
Ay ana, bu gün mən verdim bir qərar.
Deyirlər kişilər hərbiçi olar.
Tarix müəllimim danışdı bizə.
Dedi ki, uşaqlar söyləyim sizə.
Hər dövrün, zamanın öz tələbi var.
İndi əsil kişi hərbiçi olar.
Ana qucaqlayıb dedi Polada,
Qurbanam özünə qoyduğum ada.
Şiddətli davalar gedir hər yanda.
Ürək də qalmayıb, vallah insanda.
Hər gündə nə qədər igidlər ölür.
Bax bu da insanın ömrünü bölür.
Ən böyük arzumdu yaşa dolasan.
Əlaçı oxuyub, prakror olasan.
Qoy olsun , ay ana söylədi Polad.
Boş yerə verilmir mənə də bu ad.
Dediyim sözümdə mən də qalacam.
Verilən torpağı özüm alacam.
Elə ki, məktəbi qurtarır oğlan,
Hərbiyə imtahan verir həmin an.
Verdiyi yerə də o qəbul olur.
Bütün arzuları yerinə dolur.

Aradan keçsə də nə qədər zaman,
Ananın gözündə canlanır o an.
Anaya qalan bu xatirələrdi.
Aradan yox olan ancaq illərdi.
Bir evdə doğulub, bu xalq igidi!
İndi hər bir evin olub şəhidi.

*****

Poladın anası tək deyil inan.
Poladı  ağlayır bu Azərbaycan.
Hamıya tanışdı indi həmin ad.
İlk şəhid general olubdu Polad.
General verməyib  əmri arxadan .
Səngərdə əsgərlə olub anbaan.
Onlarla birlikdə çörək yeyibdi.
Əsgərin hamsına balam deyibdi.
Həmişə evinə gəldiyi zaman,
Öz halal puluyla həmin bu oğlan,
Dükana, bazara çıxıb gedərdi.
Nə qədər bazarlıq, yardım edərdi.
Ana xatırlayır belə bir anı.
Deyir ki, əsgərə bağlıydı canı.
Boş olmur heç zaman onun əlləri.
Dolu bir çantaynan girir içəri.
Ana bu çantanı əlinə alır.
Boylanıb içinə bir nəzər salır.
Görür diş fırçası, diş məcunudur.

Təccübdən hər şeyi ana unudur.
Ay oğul, özünü işə salmısan.
Bu qədər bunları niyə almısan?
Söyləyir: ev üçün almadım ana.
Cavabdeh oluram mən hər insana.
Bilmirəm nə deyim, ay ana sənə?
Əmanət ediblər əsgəri mənə.
Onlara almışam, yusun dişini.
Bilməzsən heç zaman sən hərb işini.
Onların hamısı göz bəbəyimdir!
Sinəmdə döyünən bu ürəyimdir!
Deyirəm, ay ana mən dönə-dönə,
Onlar çox doğmadır,  əzizdir mənə.
Günlərin birində bu Polad yenə,
Əlində bağlama gəlir evinə.
Ana bağlamanı alır əlinə.
Bu nədir kəlməsi gəlir dilinə.
Polad gülümsəyib deyir, ay ana,
Əsgərlər olduqca yaxındır cana.
Gələn tək dərziyə mən çıxıb getdim.
Onlara varadnik sifariş etdim.
İndi də almışam sifarişləri.
Dedim ki, qoy asan olsun işləri.
Çox zaman vaxtları olmur yumağa.
Ancaq ehtiyac var dümmağ ağlara.
Dərin fikirlərə dalmışdı ana.

Xəyalı gedirdi onun hər yana.
Gözünü zilləyib ana baxırdı.
Gözündən sel kimi yaşlar axırdı.
Oğluna varıydı çox ehtiyacı.
Bu xəbər zəhərdən olmuşdu acı.
Heyy bu şəkillərlə o, danışırdı.
Əzabdan yanırdı, lap alışırdı.
Heç yerdən gəlmirdi Poladın səsi.
Ananın batırdı sanki nəfəsi.
Bir yana çatmırdı ananın əli.
Az qala olurdu  fikirdən dəli.
Zülümlə keçirdi gecə bir təhər.
Bir də görürdün ki, açılır səhər.
Heç yuxu gəlmirdi onun gözünə.
Xəyal tək gəlirdi bu iş  özünə.
Deyirdi: kaş elə olaydı yalan.
Poladım gələydi yanıma bu an.
Beş aydır görmürdü ana üzünü.
Yollardan çəkmirdi heç vaxt gözünü.
Ağlına gəlməzdi Poladı ölər.
Bu xəbər ananın ömrünü bölər.
Ancaq heç gəlmirdi oğlu yanına .
Təlatüm düşürdü onun canına.

*****

Xəyallar uzağa apardı onu.
Qurtarmaq bilmirdi xəyalın sonu.

Canlandı gözündə həmin o gecə.
Polad sevindirdi ananı necə?
Gecənin birində ana yatmışdı.
Yuxunun içində tərə batmışdı.
Gördü ki, qapının zəngi çalındı.
Hər yerə tamamən səs-küy salındı.
Təlaşla yuxudan ana oyandı.
Saatın önündə gəlib dayandı.
Baxdı ki, üç artıq indi tamamdır.
Dedi ki, bu gələn yəqin balamdır.
Ananın üzündə sanki nur saçdı.
Tələsik yeriyib qapını açdı.
Açanda gördü ki, görünmür oğlan.
Qapının dalında kostium var o an.
Kostium asılıb bu asılqandan.
Arxada dayanıb bizim komutan.
Bu nədir, ay oğlum, almısan yenə?
Gətirib göstərdin bu gecə mənə.
Bilirsən, ay ana, sevirəm səni.
Bu dəfə almışam sən istiyəni.
Nədir ki, ay oğlum, bu mən istəyən?
Yadımdan çıxıbdır,  qocaldım deyən.
General rütbəsi verilib mənə.
Onun formasını gətirdim sənə.
Poladın sevinci başdan aşırdı.
Onun üz-gözündən nurlar daşırdı.

Poladı bağrına basdı anası.
General olmuşdu çünki balası.
Yoxuydu sevincin həddi-hüdudu.
Zəhmətlə alınmış rütbə bax budu!
Ananın ən gözəl hədiyyəsiydi.
Polad anasının gül nəfəsiydi.
Ananın o anlar düşdü yadına.
Heç bir şey gəlmədi indi dadına.
Çünki yox olmuşdu onun Poladı.
Anaya qalmışdı şəkli və adı.
Şəklini basmışdı o, sinəsinə.
Polad səs vermirdi onun səsinə.
Yoxuydu Poladın bu anda özü.
Şəkildə qalmışdı ananın gözü.
Ananın gözündən süzülürdü yaş.
Tökülürdü şəklin üstünə bir baş.
Lal-dinməz şəkildən Polad baxırdı.
Ananı yandırıb, vallah yaxırdı.
Şəkili heç yerə qoymurdu ana.
Gəzirdi otaqda o yan, bu yana.
Ananı boğurdu eləcə qəhər.
Bir də görürdü ki, açılıb səhər.
Xəyallar yumaq tək çözələnirdi.
Ana öz-özünə özələnirdi...

*****

İlqar da Poladla şəhid olmuşdu.

Onların həyatı birgə solmuşdu.
Palkovnik rütbəsi almışdı İlqar.
Şəhidlər içində palkovnik də var.
Birlikdə vuruşmuş onlar sərhəddə.
Artıq gəlib çatmış işlər bu həddə.
Birlikdə uyuyur onlar bu anda.
Şəhərdə olan bir böyük məkanda.
Qoca bir qadındır onun anası.
Şəhid olub indi İlqar balası.
Sənsiz bəs neynərəm, ay oğul balam?
Mümkünmü sənsiz mən dünyada qalam?
Yenə də əsgərin önündə dayan.
Kamandir yatarmı, ay oğlum oyan?
Ananın naləsi göyə qalxırdı.
Gözündən sel kimi leysan axırdı.
İlqarın varıydı iki övladı.
Atanın başqaydı onlarcün dadı.
Bu dadı doyunca dadammadılar.
Ataynan birlikdə qalammadılar.
Onsuz da üzünü az görürdülər.
Hər dərdi anayla bir bölürdülər.
Səngərdə olurdu ata hər zaman.
Ölümü çox qəfil olmuşdu yaman.
Hər yanda bayraqlar dalğalanırdı.
Palkovnik İlqara hamı yanırdı.
Tərpənmək olmurdu adam əlindən.

Şüarlar düşmürdü insan dilindən.
Fəxri Xiyabana onlar getdilər.
Rütbəli adamlar çıxış etdilər.
Nə qədər xoş sözlər dedilər o an.
İndi dəfn olurdu gözəl bir insan.
İlqarın oğluna söz verən zaman,
Güc ilə sözünü deyirdi oğlan.
Çünki yaş boğurdu, əsirdi səsi.
Titrəyirdi onun zərif nəfəsi.
Deyirdi fəxrimdir, mənim bu atam.
Yolunnan gedəcəm, söz verirəm tam.
Mən onun yolunu davam edəcəm.
Atamın yolunnan özüm gedəcəm.

*****

Tovuz rayonunun Ağdam bölgəsi.
Aləmi bürüdü atışma səsi.
Varıydı nə qədər şəhidlərimiz.
Əzimlə döyüşdü əsgərlərimiz.
Olsaydı bizlərdə belə bir imkan,
Təqvimi silərdik elə həmin an.
Tarixdən siləydik həmin gecəni..
Yenidən yazardıq hər şeyi yəni.
Vətənin yolunda töküldü qanlar.
Alovda, atəşdə yandı cavanlar.
Kimisi evliydi, kimisi subay.
Onlar canlarını vermişdilər pay.

Elçinin toyuna lap az qalmışdı.
Kənddə bir gözələ meyil salmışdı.
Yığılıb qohumlar elci getdilər.
Elçinə  gözəl bir nişan etdilər.
Aradan keçmişdi qısa bir zaman.
Təmir eyləyirdi evini oğlan.
Çünki az qalmışdı toyun vaxtına.
Elçin qalxacaqdı bəylik taxtına.
İndi otağına bəzək vururdu.
Gözləri önündə nələr dururdu.
O, hərbi hissəyə yola düşürdü.
Ürəyi əsirdi, sanki üşürdü.
Oğlan Məleykənin gəldi yanına.
Gizilti düşmüşdü sanki çanına.
Gördü ki, bu qızın qanı qaradır.
Bilmir ki, dünyada hara haradır.
Söruşdu: nə olub sənə Məleykə?
De görüm xətrinə dəyiblər bəlkə?
Bir kəlmə çıxmadı qızın özündən.
Yaşlar süzülürdü ancaq gözündən.
Elçin təlaşlandı, nə olub sənə?
Bu saat düzünü söylə sən mənə.
Məleykə quruyub yerində qaldı.
Güc ilə özünü o, ələ aldı.
Bu gecə yuxuma gəlib dolmusan.
Yuxumda görmüşəm şəhid olmusan.

Elçin söylədi ki, qorxma Məleykə.
Narahat yatıbsan deyirəm bəlkə.
Düzünü söyləyim onda mən sənə.
Doğurdan bax bir şey olarsa mənə,
Qulaq as indidən mənim sözümə.
Yeni bir həyat qur onda özünə.
İndi çın çıxmışdı qızın yuxusu.
Onunçün yanırdı, bu qız çoxusu.
Bütün kənd qalxmışdı bu gün ayağa.
Elçini verirdi onlar torpağa.
Ananın naləsi göylərə qalxdı.
Adamlar tabutun dalınnan axdı.
Havada bayraqlar dalğalanırdı.
Bütün şəhidlərə hamı yanırdı...

*****

Hərənin özünün var öz silahı.
Gör necə yaradıb gözəl Allahı?
Şairin qələmdir əldə silahı.
Qələmlə vuruşur axşam, sabahı.
Əsgərin topu var, həm tüfəngi var.
Dillənir cürbəcür bütün silahlar.
Müasir texnika baş alıb gedir.
Düşmənə hər cürə zərbələr edir.
Silahsız döyüşüb cəbhədə İlqar.
Döyüşdə zəhməti, çox əməyi var.
Yaralı düşsə də çox aralıya.

O, xidmət eyləyib hər yaralıya.
Həmişə güllənin altında gedib.
Hipokrat andına o, əməl edib.
Hamıya uzadıb yardım əlini.
Həkim tək qoruyub İlqar elını.
İlqarın varıydı iyirmi beş yaşı.
Gör nələr çəkmişdi igidin başı.
Şikayət etmədi heç vaxt cəbhədən.
Evə zəng eyləyib danışdı hərdən.
Həmişə hər şeydən razılıq etdi.
Namərd gülləsinə güdaza getdi.
İlqarın üzündən nurlar yağırdı.
Şəhidin yoxluğu bizə ağırdı.
Tovuzu bürüdü döyüş səsləri.
Heç kimin yoxuydu ondan xəbəri.
Atası oğlundan qaldı nigaran.
Şiddətli döyüşlər gedirdi o an.
Axşamdan bazarlıq etmişdi kişi.
Maşını yükləmək oldu ilk işi.
Oğlunu çağırıb dedi bir başa,
Apar bazarlığı İlqar qardaşa.
Oğlan tez oturdu orda maşına.
Hər şeyi apardı öz qardaşına.
Aradan keçmişdi yəqin ki, bir az.
Telefon səsindən diksindi Ayaz.
Artıq yarım saat güclə olardı.

Baxdı ki, zəng edən ona İlqardı.
Təşəkkür eylədi Ayaza İlqar.
Dedi ki, payını artıq aldılar.
Çatdırdıq onları lazımı yerə.
Dağıtdıq hamsını biz əsgərlərə.
Atanın rahatlıq çökdü canına.
Yağ kimi yayıldı hamsı qanına.
Getdikcə artırdı atışma səsi.
Vahimə basırdı artıq hər kəsi.
Ayazın ürəyi üşürgələndi.
Üzündən hər yerə kədər ələndi.
Ağdamdan Tovuza yayılan bu səs,
Ayazı qorxutdu olduqca bu kəs.
Qardaşı zəng edib deyirdi, İqar,
Qorxuram bax sənə nə isə olar.
Öpürəm mən sənin o, üz- gözündən.
Müğayət olgunan indi özündən.
İlqar qardaşını salırdı rahat.
Deyirdi get evdə sən arxayın yat.
Heç yerdə görəmməz bu düşmən məni.
Nə gəzir mən olan yerdə erməni?
Ana sığmayırdı evə-eşiyə.
Həmişə deyirdi, evdə kişiyə.
Qəhrəman oğuldu bu İlqarımız.
Gözdəyirik onu evdə hamımız.
Mənim bu davadan su içmir gözüm.

Onların yanına gedəydim özüm.
Narahat olmuşdu hamı bu gecə.
Dayanmaq bilmirdi atışma necə?
Ata aldadırdı özü-özünü.
Bir damcı yummadı gecə gözünü.
Artıq gecə saat  dördü vururdu.
Gördü ki, həyətdə kimsə dururdu.
Elə bil vahimə gəldi kişiyə.
Tələsik özünü atdı eşiyə.
Oğlu bu maşını işə salmışdı.
Elə bil nədənsə dərdə qalmışdı.
Atanı görəndə duruxdu bir az.
Təccüblə baxırdı oğluna  Ayaz.
Ay bala, bu vədə hara gedirsən?
Gecənin bu vaxtı sən nə edirsən?
Ay ata, bilmirəm nə deyim sənə?
İlqarın dostları zəng vurdu mənə.
Dedilər qardaşın yaralanıbdı.
Bir necə yerindən yara alıbdı.
Ayaz tez sıçrayıb mindi maşına.
Mən özüm qoy dəyim bir qardaşına.
Ay ata, kaş İlqar bircə sağ olsun.
Mənim arzularım yerinə dolsun.
İlqar qoruyurdu bizim torpağı.
Razıyam  olmasın iki ayağı.
Boynuma mindirib saxlaram onu.

Təki sağlıq olsun bu işin sonu.
Onun arzuları heç çin olmadı.
Artıq bu həyatda İlqar qalmadı.
Təcili yardımla gəlmişdi nəşi.
Onu yola saldı minlərlə kişi.
Buna tab gələrmi ana ürəyi?
Odlanıb yanırdı onun kürəyi.
Qalxmışdı göylərə ana naləsi.
Kədərə bürüdü orda hər kəsi...

*****

Şəhidlər ölməyir, onlar yaşıyır.
Şəhidlik adını şəhid daşıyır.
Vətəni yolunda veribdilər can.
Onlarla fəxr edir bu Azərbaycan!
Şəhidlər dadırlar şəhid dadını.
Qanıyla tarixə yazır adını.
On dördü iyulda şəhidimiz var.
Onlardan biridir Babayev Yaşar.
Yaşarın varıydı otuz üç yaşı.
Hərbidə çox şeylər çəkmişdi başı.
İcazə almışdı, evdəydi Yaşar.
Hərbiyə dönməyə vaxta hələ var.
Ananın bir axşam gəldi yanına.
Bir həvəs gəlmişdi sanki canına.
Söylədi: ay ana, heç nə demə sən.
Qərarı vermişəm,  yol üstəyəm mən.

Həmişə qoy qüvvət gəlsin qoluna.
Bir şeylər hazırla , ana yoluma.
Ananın titrədi incə ürəyi.
Alovlandı onun yenə kürəyi.
Sən nə tez dönürsən, ay oğlum, Yaşar?
Sənin ki, vaxtına bir neçə gün var.
Bilirsən yatacaq indi yoldaşın.
Uşaqsız gör nələr çəkibdi  başın.
Səkkiz il gözlədin uşaq yolunu.
Bu işdən cəkmə gəl indi qolunu.
Tək qoyma bu zaman burda Nərgizi.
Tez dönüb gəl məyus eyləmə bizi.
Ay ana, dayanıb,  gözləyir maşın.
Sən allah, dalımca tökmə göz yaşın.
Ananın üzünə boylandı Yaşar.
Söylədi : Nərgizin bir qurbanı var.
İndidən deyirəm həmin o zaman,
Kəsərsən ay ana, Nərgizə qurban.
Ananın sevincdən yaşardı gözü.
Kəsərəm, qurbanı söylədi özü.
Yaşar tez hoppanıb maşına mindi.
Sonra da maşından o, yerə endi.
Yadımdan çıxmışdı, söyləyəm sənə.
Bir yardım əlini uzat sən mənə.
Çoxlu şar alarsan, tök otağına.
Bəzək vur Nərgizin sən yatağına.

Uşağın adını Narin qoyarsan!
Hər şeyin gözünü ona alarsan.
Aradan keçmişdi bir xeyli zaman.
Anaya zəng etdi yenidən oğlan.
Bir neçə beçəni qızardarsan sən.
Axşama dönəndə apararam mən.
Sən elə bişir ki, hamıya çatsın.
Əsgərlər ağzına bir tikə atsın.
Ana tez-tələsik beçələr yoldu.
Yaşarın dediyi o vədə doldu.
Yollarda qalmışdı ananın gözü.
Heç gəlib çlxmadı Yaşarın özü.
Oğlunun yanında qalmışdı canı.
Qazana baxdıqca qaraldı qanı.
O gecə Yaşardan heç çıxmadı səs.
Nə xəbər vermədi oğlundan heç kəs.
Narahat olurdu ana ürəyi.
Alışıb, yanırdı sanki kürəyi.
Gecəni keçirdi ana bir təhər.
Artıq gecə keçib açıldı səhər.
Vahimə içində ana gəzirdi.
Bu işə güc ilə, zorla dözürdü.
Gözləri yoldaydı, özü nigaran.
Qışqırtı səsləri eşitdi bu an.
O, zaman o, durub qapını açdı.
Ana ayaqyalın küçəyə qaçdı.

Maşınnan, adamnan küçə daşırdı.
Bu səslər aləmi sankı aşırdı.
Bayraqlar yellənir, şüar səslənir.
Qorxudan ananın başı hərlənir.
Qonşusu söyləyir qorxma , Firəngiz.
Bayaqdan hər şeyi izyirik biz.
Qonşumuz düşübdü indi qəzaya.
Çığırtı qalxıbdı vallah, səmaya.
Ananın əsirdi ana ürəyi.
Daha da yanırdı onun kürəyi.
Bilirdi yüz faiz burda nəsə var.
Qışqırıb deyirdi : Yaşar, ay Yaşar!
Əmoğlu dillənib dedi: ay bacı,
Oğlun yaralanıb, bax odu acı.
Ananı elə bil ildırım vurdu.
Saçını yolaraq yerində durdu.
Heç zaman Yaşarım yaralanmaz.
O, uşaq gözləyir, belə də olmaz.
Səkkiz il gözləyib onun yolunu.
İtirsin razıyam o, bir qolunu.
Bircə sağ -salamat dönsün evinə.
Nə deyim, söyləyim indi gəlinə?
Sən demə anaya olan olubmuş.
Evində zəlzələ, tufan qopubmuş.
Xəbəri eşitdi ata da daha.
Yalvarıb deyirdi o, da allaha,

Razıyam kəsilsin qoy bir ağağı.
Yaşar gözləyirdi axı uşağı.
Gözündən sel kimi yaş ələnirdi.
Hər tərəf bu yaşa tez bələnirdi.
Allahım, yalvarıb deyirəm sənə.
Oğul yox, o, qardaş olmuşdu mənə.
Qıyma sən balamın cavan canına.
Qoy gəlsin yenə də ata yanına.
Papiros çəkməzdi heç vaxt yanımda.
Təlatüm var mənim indi canımda.
Anası Yaşarsız heç yaşayammaz.
Bu yükü heç zaman o, daşıyammaz.
Küçədə izdiham, adam çoxuydu.
Əfsuslar olsun ki, Yaşar yoxuydu..

*****

Namiq Əhmədovdu şəhidin biri.
Cənnətdir mayorun o andan yeri.
Gözünü Salahlı kəndində açıb.
Həmişə oxumaq dalınca qaçıb.
Hərbiçi olmağı seçibdi özü.
Həmişə düzüydü söhbəti- sözü.
Vətəni tuturdu canından əziz.
Hər işi olurdu dəqiq və təmiz!
Komandir doğuldum dedi anadan.
Komandir kimi də ölərəm inan.
Həmişə o, kəndə gəldiyi zaman.

Şəhid anasına dəyirdi hər an.
Deyirdi hazır ol, ay ana sən də.
Bir gün gördün elə şəhidəm mən də.
Qorudu  vətəni Namiq canıyla.
Suladı  torpağı qızıl qanıyla.
O, şəhid olmuşdu vətən yolunda.
Adını tarixə yazdı sonunda.
Acıdan acıdır , vallah bu xəbər.
Xəbəri verdilər evə bir təhər.
Anaya söyləyə bilmirdi kimsə,
Nə olar bu sözü ana eşitsə?
Əmiyə dedilər öncə xəbəri.
Bu xəbər dolandı bütün yerləri.
Ananın qan oldu bağrının başı.
Qurumaq bilmədi gözünün yaşı.
Olduqca zərifdi ana ürəyi.
Artıq o,duyurdu itib əməyi.
Göylərə qalxmışdı onun naləsi.
Kiriмək bilmirdi göynəyən səsi.
Ancaq hay vermirdi oğlu səsinə.
Sanki dağ basmışdı düz sinəsinə.
Namiqin varıydı iki övladı.
Yaxşı ki, dadmışdı o, övlad dadı.
Onlar soruşurlar atam hardadır?
Hamı söyləyir ki, uzaqlardadır.
Bir gün olacaqdır gələcək yenə.

Deyəcək, uşaqlar sarılın mənə.
Hər gündə gözləyir onlar yolunu.
Necə söyləsinlər  işin sonunu?...

*****

Şəhidlər içində bir mayor da var.
Onlardan biridir Novruzov Anar.
Masallıdan olan həmin bu oğlan,
Vətənin yolunda olmuşdu qurban.
Anar uşaqların onuncusuydu.
O evin həm də ki, sonuncusuydu.
Özünün varıydı düz qırx beş yaşı.
Zülümlər çəkmişdi orduda başı.
Kəşfiyyat işiylə məşğul olurdu.
İllərdi orduda yaşa dolurdu.
Varıydı onun da iki övladı.
Nihat qoyulmuşdu onun da adı.
Şəhidlik xəbəri baş alıb getdi.
Bu xəbər hamını çox məyus etdi.
Nihatı bürüdü tamam qəm, kədər.
Onlara yazıldı belə bir qədər.
Dəfində söz alıb, söylədi Nihat.
Söz verdim hamıya elə bu saat.
Oxuyub mən hərbi həkim olacam.
Atam tək hərbidə yaşa dolacam.
Anardan razılıq edirdi hamı.
O, darda qoymurdu bircə adamı.

Döyüş bölgəsinə hər an gedirdi.
Yaralı əsgəri xilas edirdi.
Həmin gün döyüşə gedirdi Anar.
Söylədi: bu gecə şəhid olmaq var.
Yəqin ki, mən indi şəhid olacam.
Tarixdə şəhid tək yadda qalacam.
Sanki ürəyinə dammışdı onun.
Kimsə deyirdi ki, gəlibdi sonun.
Doğurdan dediyi kimi də oldu.
Bütün arzuları o gecə soldu...

*****

Unuda bilmirdi heç kim Poladı.
Yoxluğu yandırdı dostu, həm yadı.
Matəmə batmışdı bütün insanlar.
Xoşuydu hamıya Poladlı anlar.
İstəmirdi kimsə onu itirə.
Varıydı hərədə xoş bir xatirə.
Həyat yoldaşıydı Ofelya xanım.
Poladla fəxr edir, deyirdi canım.
Görmədim Polad tək adam həyatda.
Ömürlük qalacaq general yadda.
Belə adamları xəyal edirdim.
Çoxlu nağıllara sanki gedirdim.
İnana bilməzdim özüm heç zaman.
Dünyada yaşayar belə bir insan.
Onu tanıdıqca mat qaldım özüm.

Hər şeyin şahidi oldu bu gözüm.
Xalq  üçün yaşadı Polad hər zaman.
Evdə olmayırdı istədiyin an.
Aylarla gəlmirdi general evə.
İşini görürdü o, sevə-sevə.
Hər şeyi işinə qurban edirdi.
İşinin dalınnan özü gedirdi.
O, zaman toyunu saxladı özü.
Sevdiyi qıza da bu oldu sözü.
İşdən göndərirlər xaricə məni.
Mən məyus edəsi olacam səni.
Elə ki, oxuyub gələrəm yenə.
O zaman şad xəbər verərəm sənə.

*****

Cibinin puluyla nələr edirdi.
Əsgərə yardıma özü gedirdi.
Səmayə xalaya dostu demişdi.
Hökümət Polada bir ev vermişdi.
Hamıdan xəbərsiz Polad getmişdi.
Şəhidə hədiyyə evi etmişdi.
Halbu ki, kirədə qalırdı özü.
Heç kimə demədi evdə bu sözü.
Kazarma tikirdi o, əsgərlərə.
Aldı televizor ucqar yerlərə.
Odun doğrayardı onlara özü.
Əsgərin üstündə olurdu gözü.

Bir gün yoxlamaya gəldiyi zaman.
Gözünə bir əsgər sataşır o an.
Görür ki, yırtılıb onun çəkməsi.
O, heyran eyləyir orda hər kəsi.
Soyunub çəkməni verir əsgərə.
Gözünü zilləyir əsgər tez yerə.
General çəkməsi geyəmmərəm mən.
Axı ayağından çıxardıbsan sən.
Polad ayaqqabı geyindi özü.
Bu oldu əsgərə o anda sözü,
Sərhəddə dayanan bütün əsgərlər,
Tamam generala bərabərdilər.
Halal xoşun olsun, geyin onu sən.
Bunu əminliklə söyləyirəm mən.

*****

Bir gün Polad belə bir xəbər aldı.
O, xeyli dayanıb fikirə daldı.
Deyirlər ki, bu gun bu axşam çağı.
Əsgərin olubdu bax ilk uşagı.
Evlərindən gəlib bu gün də özü.
Sevincdən alışıb yanır lap gözü.
Əsgəri yanına çağırır Polad.
Deyir ki, hazırlaş indi bu saat.
Yığışıb gedərsən evə-eşiyə.
Dəyərsən doğulan təzə kişiyə.
Düzən ver bu saat sən üst-başına.

Minərsən həyətdə duran maşına.
Gedərsən maşınla sən düz evinə.
İstəyirəm evdə hamı sevinə.
Əsgərin qızardı ağ olan üzü.
Nəhayət dillənib danışdı özü.
Razıyam deyilən bu xoş niyyətdən.
Yenicə gəlmişəm məzuniyyətdən.
Mən necə gedərəm evə o zaman.
Qanunlar heç buna verməzlər imkan.
Çox yaxşı əsgərsən dedilər mənə.
Əlavə icazə verirəm sənə.
Əsgər hazirlanıb mindi maşına.
O, gəlib yetişdi mənzil başına.
Sürücü bir konvert verdi əsgərə.
Təccüblə boylandı əsgər hər yerə.
General göndərib, bax bunu sənə.
Çatanda verərsən söylədi mənə.
Konverti o, açdı həmin o saat.
Hədiyyə qoymuşdu yüz yetmiş manat...

*****

Hec nədən qorxmazdı Polad heç zaman.
Düşmənin önünə gedərdi hər an.
Bir gün maşın ilə gəzir sərhəddə.
Sürücü saxlayır sonuncu həddə.
Söyləyir: biz gedə bilmərik daha.
Yaşama vaxtımız qalıb Allaha.

Gülləynən vurarlar düşmənlər bizi.
Vəzifəm budur ki, qoruyam sizi.
General boylandı o yan, bu yana.
Gülümsəyib baxdı həmin oğlana.
Tutdu pəncərəyə tez kürəyini.
Söylədi: eylədim mən gərəyini.
Dəyəmməz düşmənin gülləsi sənə.
Bu gələn güllələr qoy dəysin mənə.

*****

Əsgərlə birlikdə çörək kəsərdi.
Onların üstündə hər an əsərdi.
Günlərin birində yemək zamanı,
Diqqəti cəlb edir tez bir oğlanı.
Görür ki, içməyir kompotu oğlan.
Niyə içməyirsən ? Soruşur o an.
Bilmək istəsəniz düzünü əgər,
Xoşuma gəlməyir, söyləyir əsgər.
Polad tərk eyləyir həmin məkanı.
Qayıdıb deyir ki, al istəkanı.
Gətirdim kompotu icəsən özün.
Hamıya olacaq deyəsi sözün.
Ürəklə deyərsən hər yerdə yenə,
Kompotu general süzübdü mənə.

******

Getdikcə artırdı şəhidin sayı.
Nazimin varıydı zirvədə payı.

Şəhidlik zirvəsi nəsibi oldu.
Ayın on altısı həyatı soldu.
Hücuma keçmişdi gecədən düşmən.
Hər yeri bürüdü yenə duman , çən.
Hünərlə döyüşdü Nazim bu zaman.
Düşmənə vermədi bir an da aman.
Sonunda bir topun qurbanı oldu.
Qəlpələr Nazimin canına doldu.
Həmin gecə ana yatdığı zaman,
Oğlunu yuxuda gördü həmən an.
Gördü ki,  gəlibdi Nazim yanına.
Bir məlhəm yayıldı onun canına.
Oğlunu bağrına basmışdı ana.
Oğlu bir yanaydı, hamı bir yana.
Söylədi: meylimi saldım vətənə.
Ay ana, bir kəlmə söyləmə mənə.
Mənimçün birinci vətəndir, vətən!
İkinci yerdə də dayanırsan sən.
Mən təzə bir paltar aldım özümə.
Çox yaxşı göründü paltar gözümə.
O saat yuxudan ayıldı ana.
Bir qorxu gəlmişdi bu zaman cana.
Əsirdi ananın tir-tir ürəyi.
Çim suya batmışdı onun kürəyi.
Hönkürə-hönkürə ağladı ana.
Üzünü tutdu o, tezcə Əfqana.

Söylədi: evimiz yıxıldı bizim.
Şəhid olacaqdı bu gecə Nazim.
Kişi inanmadı onun sözünə.
Nəsə gələmmədi ancaq özünə.
Söylədi : bu nədir danışırsan sən?
Uşağın başında nə vardır görən?
Gecəni verdilər yola bir təhər.
Gördülər açılıb zülümlü səhər.
Aradan keçmişdi azca bir zaman,
Dedilər şəhiddir sizin bu oğlan.
Sevdanı elə bil ildırım vurdu.
Olduğu yerdəcə quruyub durdu.
Nazimin istəyi yerinə yetdı.
O, şəhid olaraq dünyadan getdi.
Həmişə deyərdi şəhid olacam.
Ömürlük tarixdə, yadda qalacam.
Ananın göylərə qalxdı naləsi.
Dəhşətə gətirdi bu da hər kəsi.
Bütün kənd oyandı, qalxdı ayağa.
Nazimi tapşırdı onlar torpağa...

*****

Vətən inildəyir, vətən dardadır!
Bizim nər igidlər indi hardadır.
Şəhidlər köç edib,  getdi dünyadan.
İgid doğuldular onlar anadan.
Vətəni qorudu onlar canıyla.

Torpağı suvardı qızıl qanıyla.
Kimisi evliydi, kimisi subay.
Onlar eylədilər canlarını pay.
Əl çəkmir erməni heç vətənimdən.
Səfərbərlik oldu dünən  qəfildən.
Kiçikdən böyüyə ayağa qalxdı.
Millətim sel kimi sərhədə axdı.
Qalammaz Poladın heç qanı yerdə.
Erməni batammaz bizlərə bir də.
Hörmətlə yad edir Poladı hamı .
Ölümü yandırdı bütün adamı.
Az qalıb, az qalıb bu qələbəyə.
Təlimlər keçilir hər tələbəyə.
Səsimiz gələcək düz Qarabağdan.
Heç zaman pay olmaz qara torpaqdan.
Ruhunuz önündə baş əyirik biz.
Qoy rahat uyusun şəhidlərimiz!
Tovuzda Can Polad deyirlər ona.
Əzablı bu günlər yetəcək sona.

# *Kitabın içindəkilər:*

**Ön söz** ........................................................................................ 3

**Ana ürəyi** ........................................................................................ 5

**Oğru  qadın** .................................................................................. 115

**Tovuz şəhidləri** ............................................................................. 221

RƏNA QURBANLI

# ANA ÜRƏYİ

“Elm və təhsil” nəşriyyatının direktoru:
***professor* Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 02.10.2020
Şərti çap vərəqi 14. Sifariş № 586
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4